Ə.Ə.Ağayev, Y.T.Rzayeva,
T.M.Hüseynova, T.Ə.Vahabova

# SOSİAL
# PEDAQOGİKA

Elmi redaktor: **Sərdar Musa oğlu Quliyev**
*pedaqoji elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Rəyçilər: **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqoji elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**Raya Nəsib qızı Mursaqulova**
*pedaqoji elmlər namizədi, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**Əjdər Əbdülhüseyn oğlu Ağayev, Yaqut Tosif qızı Rzayeva, Teyyubə Məmmədkazım qızı Hüseynova, Tamilla Əhməd qızı Vahabova.**

*Dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası «Pedaqogika və psixologiya» bölməsinin 25 iyun 2005-ci il tarixli 13 nömrəli iclas protokolu ilə ali təhsilin bakalavr pilləsi üçün təsdiq olunmuş proqram əsasında hazırlanmışdır.*

*Sosial pedaqogika dərsliyi Azərbaycanda bu vaxtadək nəşr edilməmişdir. Sosial pedaqoji biiik sahəsinə maraq və tələbatdan irəli gələrək bu dərslik müəlliflər tərəfindən hazırlanmışdır. Dərsliyin tərtibi zamanı son illərdə Rusiya pedaqoji nəşriyyatı tərəfindən çap edilmiş dərsliklərə istinad edilmiş, onlardan əməli surətdə istifadə edilmişdir. Dərsliyin ali pedaqoji universitet və intsitutların bakalavr pilləsində sözü gedən ixtisas üzrə kadr hazırlığında rolu əvəzsizdir.*

## ÖN SÖZ

Müasir şəraitdə respublikamızın müharibə şəraitinə düçar edilməsi, yurddaşlarımızın öz torpaqlarından məcburən didərgin salınması, iqtisadi, siyasi və sosial problemlərin kəskinləşməsi çətin şəraitə düşmüş, yurdsuz-yuvasız qalmış insanlara, ailəsində şikəst uşaq, əlil, qoca və ya şikəst valideynləri olan, işsiz qalan, qaçqın ailələrə, ailəsi tərəfindən zorakılığa məruz qalan, baxımsız, çətin uşaqları olan, valideynləri narkoman və ya spritli içkilər qəbul edən ailələrə sosial köməyi labüdləşdirdi.

Ailənin və uşağın müdafiə olunmaması, yeniyetmələr arasında cinayətkarlığın, uşaq xəstəliklərinin artması sosial pedaqoqun işinə kəskin tələbatı doğurdu.

Sosial pedaqoqun işi təkcə «kömək» və ya «yenidəntərbiyə»dən ibarət olmayıb, ailə böhranının qarşısının alınması, uşaqlarla işin təşkili, onların normal yaşaması və inkişafı üçün lazımi əlverişli şərait yaratmaqdır.

Hal-hazırda sosial pedaqogikanın mahiyyəti və məzmununun anlaşılmasında bir çox nöqteyi-nəzərlər mövcuddur. Dərslikdə bunlara münasibət bildirilməklə, pedaqogikada sosial istiqamətin dərindən öyrənilməsinə və sosial iş sistemində onun xüsusiyyətlərinin aşkar olunmasına diqqət yetirilir.

Sosial pedaqoqun işində mərkəzi yeri inkişafda olan insan, uşaq və yeniyetmə şəxsiyyətinin formalaşması tutduğu üçün dərslikdə onlarla fərdi işin mühümlüyü vurğulanır.

Dərsliyin tərtibi zamanı məsələnin tarixi köklərinin araşdırılması istiqamətində ayrı-ayrı dövrlərdə yaşamış görkəmli alim və tədqiqatçıların bu məsələyə münasibətinin izahı üçün müraciət olunması zərurəti meydana çıxmışdır. Ona görə də bu sahədə yaşanan problemlərlə yanaşı sosial tərbiyə sahəsində görkəmli şəxsiyyətlərin

-10950-

fikirlərinə, onların təcrübəsinə müraciət edilmişdir. Eyni zamanda uşaqlara dövlət tərəfindən göstərilən qayğı da nəzərdən keçirilir. Sosial pedaqoqa və ya işçiyə kimsəsiz, yetim qalmış, valideynlərini itirmiş uşaqlara qayğı göstərilməsi sahəsində dövlətin yeritdiyi siyasəti bilmək vacib məsələdir. Ailə ilə iş qurmağı, onun problemlərinin həllində öz mövqeyini, tərbiyədə mühitin rolunu, azad tərbiyə, özünütərbiyə və yenidən tərbiyəni mütləq bilməlidir. Dərslikdə verilən materiallar sosial pedaqoq və ya işçiyə şikəst, əlil uşaqlarla iş qurmaqda, onların problemlərinin həllində yardımçı ola bilər.

Dərslikdə verilən materiallar sosial pedaqoq və ya işçiyə çətin şəraitə düşmüş, nəzarətsiz qalmış, köməyə və qayğıya ehtiyacı olan uşaqlarla iş apararkən xüsusilə lazımdır.

Dərslik ali məktəb tələbələri üçün də maraqlıdır. Belə ki, burada kurs və ya buraxılış işləri, referat yazılmasında istifadə etmək üçün materiallar verilir ki, bu da gələcək sosial pedaqoq və ya işçi, bir sözlə gənc mütəxəssis üçün çox vacibdir.

Təklif olunan dərsliyin hər fəslinin sonunda suallar və tapşırıqlar verilir, tələbələrin müstəqil çalışması və materialı dərindən mənimsəməsi üçün referat mövzuları təklif edilir. Bu işdə onlara yardımçı ola biləcək Azərbaycan və rus dillərində ədəbiyyat siyahısı da təklif edilir.

# FƏSİL 1. SOSİAL PEDAQOGİKANIN ELMİ-NƏZƏRİ ƏSASLARI

## 1.1.Sosial pedaqogika bilik sahəsi – tədris fənni kimi: predmeti, yeri və rolu

**Sosial pedaqogikanın yaranma tarixi** Cəmiyyətdə sosial münasibətlərin həlledici səviyyədə intişar tapması ona pedaqoji yanaşmanı zəruri etdi. Digər tərəfdən təbii fəlakətdənmi, təsadüfi qəzadanmı, terror və xəstəlikdənmi ayrı-ayrı şəxslərin və ya insan qruplarının bədbəxtliyə düçar olması sosial bərpa işini aktuallaşdırdı, onun pedaqogikası və metodikasını doğurdu. Beləliklə, pedaqoji elmlər sistemində sosial pedaqogika yarandı.

«Sosial» (lat.sözü *sosialis)* - mənası ictimai olub, insanların cəmiyyətdəki real həyatını və münasibətlərini əks etdirir. Bu isə təkcə insanın sosial inkişafı və tərbiyəsi deyil, həm də onun sosial dəyərlərə, cəmiyyətin qayda və qanunlarına bələdliyi deməkdir. Bu bələdlik də öz növbəsində insanın cəmiyyətdə yaşaması və reallaşmasına kömək edir.

Sosial pedaqogika pedaqogİkada ailə, silki, xəlqi və dini tərbiyənin yaradılmış bütöv bir sistemidir.

Sosial tərbiyənin müasir təcrübəsini nəzərdən keçirməzdən əvvəl ailə tərbiyəsi, din, etika tarixinə, etnoqrafiya və etnopedaqogikaya müraciət edək.

Sosial pedaqogika fikrinin rüşeymləri və ənənələri hələ Qədim dünyada çox bəsit formada yaranmışdı. Belə ki, e.ə. V əsrdə Demokrit tərbiyənin ictimai şəraitlərdən asılı olduğu fikrinə gəlmiş, Platon, Aristotel (e.ə.V-IV əsrlərdə) tərbiyənin insanın inkişafının şərti hesab etmiş, cəmiyyətin taleyini onun vətəndaşlarının inkişafından asılı olduğunu söyləmişlər.

Bu fikrin bariz nümunəsi- qədim dövrlərdə mövcud olmuş sosial istiqamətli Sparta və Afina tərbiyə sistemləri dövlətin xarakterini, onun sosial-iqtisadi və siyasi həyatının xüsusiyyətlərini əks etdirirdi.

Azərbaycan xalqının zəngin ədəbi irsində, folklor nümunələrində, dastanlarında verilən tərbiyəvi fikirlər, öyüd-nəsihətlər o dövrün sosial həyatına, gənc nəslin sosiallaşmasına güclü təsir etmişdir.

Pedaqogika uşaqların təlim-tərbiyə müəssisələrində tərbiyəsinin nəzəriyyəsi və metodikası kimi yaranmış və inkişaf etmişdir. XVIII əsrin sonundan, şəxsiyyətin inkişafının nisbətən müstəqil mərhələsi kimi yeniyetmə dövrü seçilməyə başlanandan, gənc oğlan və qızların tərbiyəsi pedaqogikanın diqqət obyektinə çevrildi.

«Sosiall-pedaqogika»nın söz birləşməsi kimi ilk dəfə alman alimi A.Disterveq tərəfindən XIX əsrin II yarısında təklif edilməsinə baxmayaraq, bu anlayışdan yalnız XX əsrin əvvəllərində geniş istifadə edilmişdir. Alman fəlsəfi fikrinin nümayəndəsi olan Paul Natorp XX əsrin əvvəllərində cəmiyyətin bütövlükdə pedaqogikalaşdırılması təklifi ilə çıxış edərək, bu fikrin həyata keçirilməsi üçün tərbiyə birliklərinin yaradılmasına çağırırdı. Bu fəaliyyəti o, sosial pedaqogika kimi adlandırırdı. Natorp belə hesab edirdi ki, insan - insan birlikləri hesabına insan olur. Səslənən bu fikir onun sosial pedaqogikasının əsasını təşkil etmiş və öz əksini 1911-ci ildə nəşr etdirdiyi «Sosial pedaqogika» kitabında tapmışdır.

P.Natorpun cəmiyyətin pedaqogikalaşdırılması nəzəriyyəsi o dövrün mütərəqqi fikirli insanlarının ümumdemokratik və humanist görüşlərinin təcəssümü idi.

Sovetlər dönəmində pedaqogika elmində «sosial pedaqogika» anlayışı yox idi. Moskvada nəşr olunmuş «Pedaqoji ensiklopediya»da (1968) sosial pedaqogika «burjua pedaqogikasının bir istiqaməti kimi» izah edilirdi.

Marksist pedaqogika belə hesab edirdi ki, təhsil və tərbiyənin bütün sahələri bu və ya digər cəhətdən cəmiyyətlə əlaqəli olduğuna görə bütövlükdə pedaqogika özü sosialdır. Məhz elə bu nöqteyi-nəzərdən sosial pedaqogikanın pedaqoji elmin xüsusi sahəsi kimi ayrılmasını lüzumsuz hesab edirdilər. Onlar hesab edirdilər ki, pedaqogika ilə sosiologiya arasında sərhəd yaradan bilik SAhələri mövcuddur. Bu da pedaqoji elmin xüsusi sahələri olan müqayisəli pedaqogika, tərbiyənin sosiologiyası, pedaqoji sosiologiya, xalq təhsilinin iqtisadiyyatı və s.-dir. Bu mövqe 1980-ci illərədək saxlanılsa da 1917-ci ildən həm Rusiyada (P.P.Blonski, P.F.Kapterev, K.N.Ventsel, S.T.Şatski, daha sonralar V.V.Zenkovski), həm də Azərbaycanda (C.Məmmədquluzadə, R.Əfəndiyev, N.Nərimanov, Ü.Hacıbəyov, bir qədər sonra M.Mehdizadə, Ə.Seyidov, M.Muradxanov və b.) sosial pedaqogikanın problemlərinə diqqəti yönəltmişlər.

P.P.Blonski uşağı müvəffəqiyyətlə tərbiyə etmək üçün onun sosial əhatəsinin qayda və dəyərlərini bilməyin vacib olduğunu qeyd edərək, uşaq davranışındakı əyintilərin səbəbini uşaq orqanizminin özünəməxsusluğunda və onu əhatə edən mühitin xüsusiyyətlərində axtarmağı tövsiyə edirdi.

P.F.Kapterev isə ailə tərbiyəsi ilə ictimai tərbiyənin birləşdirilməsi fikrini irəli sürərək, körpələr evi, uşaq bağçaları, ailə məktəbləri, fəhlə və kəndlilərin uşaqları üçün sığınacaqların yaradılmasını təklif edirdi.

K.N.Ventsel 1905-ci ildə Rusiyada uşaqların müdafiəsi üçün Böyük xartiyanın yaradılması, şagirdlərin Beynəlmiləlləşdirilməsi təklifi ilə çıxış etmiş, uşaq hüquqları Deklarasiyasını hazırlamışdır.

S.T.Şatski isə öz növbəsində ikitərəfli təsir fikrini irəli sürərək, bir tərəfdən – uşaq şəxsiyyətinin formalaş-

masına ətraf mühitin təsirini, digər tərəfdən, uşağın ətraf aləmə təsirini əsaslı şəkildə işləmişdir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində bir çox alim-pedaqoqlar uşaqların ailədə tərbiyəsi probleminə müraciət edirlər. Ailə tərbiyəsinin Ensiklopediyası yaranır, ailə tərbiyəsinə həsr olunmuş qurultaylar və konfranslar keçirilir, zorakılıqsız pedaqogika, şəxsiyyətin azad tərbiyəsi eksperimentdən keçirilir və təbliğ edilirdi.

1917-ci ilin Oktyabr sosialist inqilabından sonra Rusiyada təhsilin yeni sistemi – yeni məktəb yaradılır; böyüklər və gənclər üçün mədəni və maarif şəbəkələri formalaşdırılır; tərbiyə və təhsilin pedaqoji məsələlərinə yeni nöqteyi-nəzərdən yanaşılır. Yeni yaradılan sovet pedaqogikası tərbiyə və təhsilin mahiyyətini müəyyən edir, yeni təhsil sisteminin prinsiplərini əsaslandırır, vəzifələrini aydınlaşdırır, ümumi, peşə və ali təhsilin bütün mərhələlərinin qarşılıqlı əlaqəsini qeyd edir. Məktəb təhsilinin məzmunu dəyişir; məktəb qarşısında sosialist şəxsiyyətinin tərbiyəsi məsələlərinin həlli vəzifəsi qoyulur. Müəllimlər «sosialist maarifinin ən başlıca ordusu»na çevrilir. Uşaq və gənclər birlikləri, komsomol və pioenr təşkilatları gənclərin kommunist tərbiyəsinin avanqardına çevrilir.

Bütün bu məsələlər XX əsrin 20-ci illərində diskussiyaların predmetinə, döyüş və siyasi mübarizə sahəsinə çevrilir, tərbiyənin məqsədi, məktəbin sosial vəzifələri, məktəbin siyasətlə əlaqəsi, yeni pedaqogika haqqında, bioloji və sosial tərbiyə, təhsilin sistemi və məktəbin quruluşu, uşaq və gənclər təşkilatları, məktəbin özünüidarəsi haqqında elmi mübahisələr aparılırdı. Burada bir çox pedaqoq alimlər yaxından iştirak edir, öz mülahizələrini irəli sürürdülər.

A.S.Makarenkonun şəxsiyyətin kollektivdə tərbiyəsi problemi, şəxsiyyətlə kollektivin münasibətləri, onun çətin

tərbiyə olunan yeniyetmələrlə iş təcrübəsi sosial tərbiyə nəzəriyyəsini irəli sürür. Bununla o, şəxsiyyətin tərbiyəsində uşaq kollektivinin əhəmiyyətini təcrübədə sübut edir.

Azərbaycanda da sosial pedaqogikanın inkişafında bir çox mütərəqqi fikirli insanların əməyi olmuşdur. XIX əsrin ortalarında Azərbaycan pedaqoji fikrində C.Məmmədquluzadənin, R.Əfəndiyevin, N.Nərimanovun mətbuatdakı çıxışları və əsərlərinin nəşri ətraf aləmin uşağın tərbiyəsi və inkişafına təsiri, şəxsiyyətin sosiallaşması və sosial pedaqoji roluna diqqəti artırdı. Onlar məktəbin tərbiyə vəzifələrini ətraf mühitlə birləşdirməyi; sosial mühitin uşağın tərbiyəsinə cəlb edilməsini, yəni məktəbin ətraf aləmlə əlaqəsi olmadan tərbiyə məsələlərinin həllinin mümkünsüzliyi fikrini irəli sürürdülər.

M.Mehdizadə, Ə.Seyidov, M.Muradxanov uşağın sosial münasibətlər sistemində davranışını səciyyələndirirdilər.

Bir sözlə, Rusiyada, o cümlədən də Azərbaycanda da sosial pedaqogika XIX əsrin sonunda yaranaraq, XX əsrin 20-ci illərindən müəyyən inkişafa başlamış və məktəbin həyatla, sosial mühitlə əlaqəsi fikrinin həyata keçirilməsinə səylər edilmşdir. Bu fikir öz nəzəri əsasını və qismən uyğun praktik təcəssümünü bir sıra parlaq pedaqoq nəzəriyyəçilər və metodistlərin təcrübəsində tapmışdır. Lakin kütləvi təcrübədə o çox sadə şəkildə tətbiq edilərək, fikrin nüfuzdan düşməsinə gətirib çıxardı.

XIX əsrin ikinci yarısında pedaqogika və ictimai tərbiyə sistemində sifarişlər genişləndi. Birinci sifarişə ardıcıl olaraq gənc və bir qədər də böyük yaş qrupuna daxil olan insanların tərbiyəsi; ikinciyə isə bütün yaş dövrləri əhatə olunan (uşaq, yeniyetmə və gənc), bir çox hallarda sosial sistemlərə uyğun olmayan və ya onlarda qəbul

olunmuş normaları pozanların da uyğunlaşması (adaptasiyası) və yenidən tərbiyəsi «daxil edilir»di.

Bu qəbildən olan sifarişlərin genişlənməsi Avropa və Amerikada baş verən sosiomədəni proseslərlə sıx bağlı idi. Bu proseslər iqtisadiyyatın sürətlə sənayeləşməsini, kənd əhalisinin şəhərə axınını, kütləvi miqrasiyanı yaratdı və həmin insanların yeni şəraitdə həyata hazır və qadir olmadığını üzə çıxardı. Bunun nəticəsi olaraq natamam ailələr yarandı, cinayətkarlığa, əxlaqsızlığa təkan verildi, nəzarətsizlərin sayı artı, avaraçılığın və dilənçiliyin əsası qoyuldu. Amerikada vəziyyəti əsasən Avropanın az inkişaf etmiş bölgələrindən olan kütləvi mühacirlər çətinləşdirdi.

Bu dövr həm də onunla səciyyələnirdi ki, Avropada başlanan urbanizasiya milli dövlətlərin yaranması, Şimali Amerikada isə amerika millətinin formalaşması dövrü ilə üst-üstə düşdü. Hər ikisi obyektiv olaraq, müəyyən milli dəyərlərin bütün sosial təbəqələr, əhalinin bütün yaş qrupları üçün tətbiqini tələb edirdi.

Tarixən və ənənəvi olaraq tərbiyəçi hesab edilən kilsə, insanların həyatında əhəmiyyətli rolunu oynamaqda davam etsə də, yeni sosiomədəni reallıqları tezliklə dərk edə bilmədiyi üçün əxlaq və tərbiyə sahəsində öz mütləq hakim mövqeyini itirdi.

Cəmiyyətin mənəvi mühitində sanki bir boşluq yarandı ki, onu doldurmaq zərurəti meydana çıxdı. Bəzi müəlliflər yeni sahəni, sosial pedaqogikanı işləməklə bu boşluğu doldurmağa cəhd etdilər.

XX əsrin sonu, XXI əsrin əvvəllərində hökm sürən sosial-siyasi vəziyyət bəşəri biliklərin müstəqil sahəsi kimi sosial pedaqogikanın yaranmasını labüd etdi ki, bunun da dəyəri və əhəmiyyəti müasir şəraitdə:

- inkişafda olan şəxsiyyətin dinamik dəyişən cəmiyyətdə humanist münasibətlərə olan tələbatı kimi;

- sosial təcrübənin bütün sahələri üçün (sosial müəssisələrin və sosial xidmət sistemlərinin fəaliyyəti) sosial pedaqoqun elmi cəhətdən biliklərlə təmin edilməsinin vacibliyi kimi;

- sosial işin rolunun artması kimi müəyyən edilir.

Sosial pedaqogika üçün səciyyəvi olan problemlərə maraq təkcə bizim respublikamızda, Rusiyada deyil, xarici ölkələrdə də XX əsrin 70-ci illərindən güclənmişdir ki, bunu da tərbiyə sisteminin növbəti böhranı və tənəzzülü ilə əlaqələndirmək olar. Bizim respublikada bu prosesə maraq rayonlarımızın işğalı, qaçqınlıq, miqrasiya və s. demoqrafik proseslər nəticəsində yaranan tərbiyə problemləri ilə bağlı məsələlərlə (H.Əlizadə, Ə.Əlizadə) yarandı.

Xaricdə sosial pedaqogikanın problemlərinin nəzəri cəhətdən yenidən həllinə yalnız ötən əsrin 50-60-cı illərində Almaniyada cəhd edildi. Lakin Avropada (Almaniya da daxil olmaqla) və ABŞ-da XIX əsrin sonlarından başlayaraq dövlət institutları, dini və ictimai qurumların təşkil etdiyi əməli fəaliyyət sosial işlər termini ilə daha geniş yayıldı. Bu terminin məzmununu ailəyə, əhalinin müxtəlif qruplarına köməkdə məktəbin və digər başqa təşkilatların tərbiyəvi təsirlərinin inteqrasiyası təşkil edirdi.

Buradan tam məntiqi bir sual yaranır: pedaqoji biliyin yeni sahəsinin işlənilməsi nəyə gərəkdir? Və ya: dəyişmiş sosial sifarişə artıq bərqərar olmuş pedaqogika elmi cavab verə bilərmi və ya buna cəhd etmişdirmi?

Bu suala pedaqogika elmi öz cavabını tezliklə verdi. Birinci cavabı- androqogikanın – böyüklərin pedaqogikasının meydana gəlməsi oldu. Lakin o, lap əvvəldən, yəni XIX əsrin ortalarından bu günədək başlıca olaraq böyüklərin təhsili problemləri ilə məşğul olur. Son onillikdə androqogikadan heroqogika (qocalığın pedaqogikası) törədi ki, bu da başlıca olaraq ahıl yaşlı insan-

ların müxtəlif variantlı təhsili ilə məşğul olmağa başladı. İkinci cavabı, XIX əsrin sonunda yaranaraq və bizim yüzillikdə formalaşan uşaq və yeniyetmələrin yenidən tərbiyəsi pedaqogikası, həmçinin islah (həbs, cəza çəkmə) pedaqogikasının yaranması oldu ki, bu da çətin və problemli uşaqların tərbiyəsi ilə məşğul olur. Beləliklə, dəyişən sosial sifarişə ənənəvi pedaqogikanın verdiyi bu cavablar çox məhdud oldu. Bunun isə çox tutarlı əsası var. Hər bir elm sahəsi lazımi qədər konservativ olmaqla (yəni, yeniliyə meylli olmayan) və obyektiv olaraq dəyişikliyə və öz tədqiqat obyektinin genişləndirilməsinə müqavimət göstərir.

Pedaqogikanın «mühafizəkarlığı» o dərəcədə güclü oldu ki, hətta yaranan təzə sahə – sosial pedaqogikanın bir çox istiqamətləri pedaqogikanın ənənəvi «müştəriləri» olan uşaq, yeniyetmə və gənclər problemlərinin öyrənilməsinə yönəldı. Bu isə sosial pedaqogikanın bir çox banilərinin (Q.Nol, Q.Boymer və b.) onun tədqiqat predmetini baxımsız, evsiz-eşiksiz qalmış uşaqlara kömək və həddi-büluğa çatmamış uşaqların cinayətkarlığının qarşısının alınması hesab etməsi ilə izah edilir.

**Sosial pedaqogika nə üçün öyrənilir**

Sosial pedaqogika – elə biliklər sahəsidir ki, onu öyrənməklə: birincisi, insanın həyatında bu və ya digər şəraitlərdə baş verməsi labud olan və baş verə biləni duymaq; ikincisi, inkişafı üçün faydalı şəraitin yaradılması, onun sosiallaşması prosesində «fasilə»lərin qarşısının alınması mümkündür. Üçüncüsü, insanın düşdüyü faydasız, əlverişsiz şəraitlərin təsirini, insanın sosiallaşması prosesində baş verən arzuolunmazlığın səmərəsini azaltmaq olar.

Sosial pedaqogika ailə tərbiyəsini, onun xüsusiyyətlərini, milli xüsusiyyətləri, dini və ictimai tərbiyəni nəzərdə tutur. Məsələn, bizim müsəlman ailəsinin islam dini ilə bağlı özünəməxsus adət-ənənələri, insanpərvərlik

ruhunda tərbiyəsi, düzlük, insanlara və bütün varlıqlara məhəbbət, dözümlüiük kimi əxlaqi normaların gözlənilməsinə əməi olunmasından ibarətdir.

**Sosial pedaqogika nəyi öyrənir** Bu suala ümumi halda belə cavab vermək olar: sosial pedaqogika insanın demək olar ki, bütün ömrü boyu həyata keçirilən sosial tərbiyəsini öyrənir. Yəni: *Sosial pedaqogika bilik sahəsi kimi sosial tərbiyəni sosiallaşma yönümündə öyrənir.*

Başqa sözlə, sosial pedaqogika dövlət, bələdiyyə, ictimai və xüsusi tədris müəssisələrində aparılan tərbiyə və təhsilin vəziyyətini öyrənir.

Müasir dövrdə mövcud olan sosial tərbiyə sistemi nəzəriyyə və təcrübənin aşağıdakı məsələlərini: uşaqların sosial müdafiəsi, müxtəlif tədris və tərbiyə müəssisələrində ailə və uşaqiarla kollektivlərin sosial fəaliyyətinin nəzəriyyə və metodikasını öyrənir.

İnsan həyatında sosial tərbiyənin yerini və rolunu müəyyən etmək üçün onu inkişaf və sosiallaşma prosesləri ilə müqayisə etmək lazımdır.

*İnkişaf –insanın immanent* (daxilən ona məxsus olan) *qabiliyyət və xüsusiyyətlərinin realizə edilməsidir.*

İnsanın inkişafını ətraf aləmin təsiri və qarşılıqlı təsiri ilə *sosialaşması* və onun nəticəsi prosesi kimi, yəni *mədəni dəyərlərin və sosial normaların mənimsənilməsi* və təkrar istehsalı, həm də insanın yaşadığı cəmiyyətdə özünü realizə etməsi kimi müəyyən etmək olar.

Sosiallaşma: a) insanın cəmiyyətlə təbii qarşılıqlı təsiri və real, bəzən də müxtəlif istiqamətli həyat hadisələrinin təbii təsiri prosesində; b) bu və ya digər kateqoriyalı insanların həyat şəraitinə dövlət tərəfindən edilən təsirlər prosesində; c) insanın inkişafı üçün şəraitin məqsədəyönəlmiş şəkildə yaradılması prosesində, yəni

tərbiyədə; ç) insanın özünüinkişaf və özünü tərbiyə prosesində baş verir.

Başqa sözlə, inkişaf – insanın təşəkkülündə ümumi proses, sosiallaşma isə – konkret sosial şəraitlərlə şərtləşən inkişafıdır. ***Tərbiəyəyə*** isə *insanın sosiallaşması zamanı nisbətən sosial cəhətdən nəzarət olunan inkişaf prosesi kimi baxmaq olar.*

Tərbiyə ailədə həyata keçirilir. Bu halda ailə pedaqogikasının obyekti olan *ailə və ya xüsusi tərbiyə* nəzərdə tutulur.

Tərbiyə dini təşkilatlar vasitəsilə də həyata keçirilir. Bu halda isə söhbət *dini və ya konfessional (ruhani)* tərbiyədən gedir ki, o da *dini tərbiyənin obyektidir.*

Tərbiyə kriminal və totalitar siyasi və saxta dini cəmiyyətlərdə, birliklərdə də həyata keçirilir. Bu halda söhbət *dissosial və ya kontrsosial* (əks sosial*) tərbiyədən* gedir (A.Mudrik).

Sosial tərbiyə (həm ailə, həm də dini ) sosiallaşma prosesinin yalnız tərkib hissəsi olduğundan sosial pedaqogika onu sosiallaşma yönümündə, yəni, planet, ölkə və yaşayış yeri (region, şəhər, kənd, mikrorayon) miqyasında insanın tərbiyəsinə hansı sosial şəraitlərin birbaşa və ya dolayı olaraq təsir göstərdiyini: onun həyatında və tərbiyəsində kütləvi kommunikasiya vasitəsilərinin, ailə, ətrafdakı insanlarla ünsiyyətin və bir çox başqa amillərin necə rol oynadığını araşdırır.

**Sosial pedaqogikanın obyekti və predmeti**

Sosial pedaqogikanın müxtəlif təyinləri mövcuddur: «Sosial pedaqogika – ümumi pedaqogikanın sosial vəzifələrini aşkara çıxaran və bütün yaş həddi qruplarında tərbiyə prosesini tədqiq edən elmi fənndir» (H.Miskes, Almaniya).

«Sosial pedaqogikanın mənası – gənclərin sosial sistemə tez bir anda uyğunlaşmasında, zərərli davranış

normalarından yayınmalara qarşıdurmada onlara kömək etmək deməkdir (E.Mollenhaur, Almaniya).

«Sosial pedaqogika – sosial mühitin tərbiyəvi təsirləri haqqında elmdir» (V.D.Semenov, Rusiya).

*Sosial pedaqogika* - pedaqogikanın sahəsi olub, sosial tərbiyəni sosiallaşma istiqamətində öyrənir, yəni bütün yaş həddi qrupları və sosial kateqoriyalı insanların həm tərbiyə üçün xüsusi olaraq yaradılmış, həm də mühüm vəzifəsi tərbiyə olmayan təşkilatlarda (müəssisə, hərbi hissə və s.) həyata keçirilməsini tədqiq edir (M.Mudrik).

*Sosial pedaqogika* - pedaqogikanın bir sahəsi olub, sosial tərbiyəni tədqiq edərək, bunun üçün yaradılmış xüsusi təşkilatlarda və əsas vəzifəsi tərbiyə olmayan təşkilatlarda həyata keçirir (Krivşenko L.P.).

*Sosial pedaqogika* - anlayışlar, təsdiq, qanun və qanunauyğunluqlar sistemi olub, şəxsiyyətin sosial təşəkkülü prosesini, qrupun sosial idarəsini açıqlayan, ictimai və pedaqoji təcrübə ilə təsdiq olunmuş təlim və tərbiyə nəzəriyyələrinin formalaşdırılmış toplumudur (Mardaxayev L.V.).

*Sosial pedaqogika* – şəxsiyyətin, ictimai qrupların sosiallaşma prosesində sosial təşəkkülü və inkişafının təkmilləşdirilməsinin nəzəriyyəsi və təcrübəsidir (Q.Qalaquzova).

*Sosial pedaqogika* - insanın bütün həyatı boyu davam edən sosial tərbiyəsini öyrənən elmdir (F.Mustafayeva).

*Sosial pedaqogika* - bir elm sahəsi kimi özözlüyündə sosial və ya pedaqoji hadisələri öyrənir (H.Əlizadə).

*Sosial pedaqogika* pedaqogika tarixinə, təlim və tərbiyənin keçmişdəki və digər ölkələrdəki təcrübəsinə istinad edir.

Tədris fənni kimi *sosial pedaqogikanın* tərkib hissəsini - sosial pedaqoq, sosial işçi, xüsusi psixologiya üçün mütəxəssis, təshihedici və bərpaedici pedaqogika üçün ixtisaslı sosial işçi hazırlığı təşkil edir. O, bir çox bölmələrdən ibarətdir ki, onları aşağıdakı kimi təsvir etmək olar:

*Sxem 1.*




Bir sözlə, *sosial pedaqogika* - pedaqogikanın özünün xüsusi sosial tərbiyə və təhsil fəaliyyətli üsulları ilə müstəqil bölməsidir. Sosial pedaqogikanın üsulları şəxsiyyətə, onun özünü təkmilləşməsinə, özünütərbiyəsinə, özünütəşkilə, özünütəsdiqə istiqamətlənmişdir.

Müasir dövrdə *sosial-pedaqoji* nəzəriyyə və təcrübəyə tələbat artmış, sosial amillərin uşaqların və ayrı-ayrı insanların həyatında rolu yüksəlmiş, sosial müdafiəyə, sosial–pedaqoji köməyə ehtiyacı olan uşaq və böyüklərin sayı artmışdır.

Sosial pedaqogikanın obyekti - sosial qarşılıqlı təsirlərin, insanın yaxın əhatəsii sahəsindəki şəxslərarası münasibətlərin bütöv bir sistemidir.

Bu məsələyə müxtəlif yanaşmalar mövcud olduğundan, bir çox alimlər belə hesab edirlər ki, sosial pedaqogikanın obyekti insan olmaqla, onun bütün ömrü boyu nəzərdə tutulan sosiallaşması və bu prosesdə ona köməklik göstərilməsidir.

Digərləri isə belə hesab edir ki, tərbiyə cəmiyyət və dövlət tərəfindən onun üçün yaradılmış təşkilatlarda həyata keçirilir. Bu halda *sosial və ictimai tərbiyə* nəzərdə tutulur ki, o da *sosial pedaqogikanın* öyrənilməsi obyektidir.

Sosial pedaqogikanın predmeti müxtəlif cür müəyyən edilir. Bir çox alimlər onu bütün yaş dövrü qruplarının və sosial kateqoriyalı insanlar üçün xüsusi müəyyən edilmiş və ya digər müəssisələrdə həyata keçirilən tərbiyə prosesi kimi izah edirlər. Digərləri isə sosial pedaqogikanın predmetini sosial mühitin tərbiyəvi təsiri kimi müəyyən edirlər.

Sosial pedaqogikanın predmetini Alman alimi Paul Natorp fərqli olaraq müəyyənləşdirmişdir. O, belə hesab edirdi ki, sosial pedaqogika xalqın mədəni səviyyəsinin yüksəldilməsi məqsədini güdən cəmiyyətin tərbiyəvi qüvvələrinin təsirini tədqiq edir. Belə anlam yeni dövrün sosial sifarişinə tam mənada uyğun idi və sosial pedaqogikaya insanın bütün ömrü boyu davam edən tərbiyəsi haqqında biliklər sahəsi kimi baxılmasına imkan verirdi.

Boçarova V.Q. isə sosial pedaqogikanın predmetini insanın bütün ömrü boyu yaş dövrü qruplarında və onun müxtəlif mikromühitlərində sosial qarşılıqlı münasibətlərinə pedaqoji təsir prosesi kimi müəyyən edir.

Bir sözlə, sosial pedaqogikanın predmeti – sosial pedaqoji proses olub, praktik fəaliyyətin prinsiplərinin,

10950



- OYU -
KİTABXANA

forma, üsullarının tədqiqi və onun gerçəkləşməsi şərtləri ilə müəyyən edilir. Lakin bu da heç sosial pedaqogikanın predmeti məzmununun tam izahını verə bilmir.

## 1.2.Sosial pedaqogikanın məqsədi, məzmunu, vəzifələri və əsas anlayışları

Sosial pedaqogikanın metodoloji əsaslarına *geniş mənada* elə nəzəri, konseptual fikirləri, bilikləri aid etmək olar ki, onlar sosial pedaqogikanın metodoloji vəzifələrini yerinə yetirə bilsin. Onlar fəlsəfə, sosial fəlsəfə, pedaqogika, psixologiya, sosial psixologiya, etnoqrafiya, sosiologiya, tibb və b. elmlərlə hasil edilir.

*Dar mənada isə* - sosial-pedaqoji gerçəkliyin elmi dərkinin məqsədləri, prinsipləri, quruluşu, üsulları və bu üsulların təşkili formalarıdır.

Sosial pedaqogikanın *başlıca kateqoriyaları* – daha ümumi və əsaslı anlayışlar olmaqla, onun əsas təşkiledicilərini əks etdirir. Onlara: sosial pedaqoji proses, sosial pedaqoji fəaliyyət, sosial inkişaf, sosial tərbiyə, sosial uyğunlaşma və uyğunlaşmama, sosiallaşma, sosial bərpa, sosial pedaqoji təshihetmə, yenidən tərbiyə və s. aiddir.

Sosial pedaqogikanın *məqsədi* - şəxsiyyətin, qrupun özünəməxsusluğuna və onun yaşadığı dövlətin, cəmiyyətin sosiomədəni xüsusiyyətləri nəzərə alınmaqla onun sosial formalaşmasına zəmin yaratmaqdır. Özünəməxsusluq bir insanın (qrupun) digərindən fərqidir. Bu yaş həddi fərqi, iradi keyfiyyətlər, fərdi imkanlar fərqidir (məs: xüsusi ehtiyacı, məhdud imkanları olan insanlar).

Sosial pedaqogikanın məzmunu – onun vəzifələri ilə müəyyən edilir. Bu vəzifələrin hər biri onun istiqamətlərini göstərməklə məzmununu əks etdirir. Sosial peda-

qogikanın vəzifələri isə (lat. sözü functia –fəaliyyət) –borc, fəaliyyət dairəsi, təyinatı kimi izah edilir. Bu vəzifələr onun məzmununu anlamağa kömək edir.

*Sosial pedaqogikanın vəzifələrini* L.V.Mardaxayev - ümumi-nəzəri, praktik və xüsusi olmaqla praktik fəaliyyətin sahələri üzrə bölür. Belə vəzifələr çoxdur. Onları ayrıca istiqamətlər üzrə – nəzəri, praktik və təhsilvericilik kimi ayırmaq olar:

1. Uşağın (yeniyetmənin) ailədə, məktəbdə, küçədəki qrupla münaqişə mərhələsində onun vəziyyətinin öyrənilməsi;
2. Çətinliyə düşmüş uşağa (yeniyetməyə) köməyin göstərilməsi və böhrandan çıxmaq üçün variantların, yolların axtarılması;
3. Müxtəlif sosial sahələrdə uşağı əhatə və ona təsir edən sosial tərbiyənin vəziyyətinin təhlil edilməsi;
4. Sosial pedaqogikada müsbət təcrübənin təhlil edilməsi, ümumiləşdirilməsi, yayılması və təbliğ edilməsi;
5. Uşağın (yeniyetmənin) fəaliyyətinin özünətərbiyəyə, özünütəlimə və öz həyatını və davranışını müstəqil təşkil etməyə yönəldilməsi;
6. Sosial pedaqoqun fəaliyyətinin uşağın (yeniyetmənin) böhranlı vəziyyətinə, onun hüquqlarının müdafiəsinə aid olan problemlərinin müxtəlif ixtisasçı, mütəxəssis tərəfindən koordinasiyası və birləşdirilməsinə istiqamətlənməsi;
7. Sosial tərbiyənin müxtəlif problemlərinin tədqiqi, sosial pedaqoqların, kollektivlərin, müxtəlif pedaqoji mərkəzlərin işinin təhlil edilməsidir.

Sosial pedaqogikanın vəzifələrini Y.V.Vasilkova: - tərbiyəedici; sosial-hüquqi və sosial-bərpaedici kimi də qruplaşdırır.

<u>*Tərbiyəedici vəzifəsi*</u> -uşağın (yeniyetmənin) onu əhatə edən mühitə cəlb olunmasını, onun sosiallaşma

prosesini, onun təlim və tərbiyəsinin gedişində uyğunlaşmasını nəzərdə tutur.

*Sosial-hüquqi vəzifəsi* - dövlətin uşaqlara, onların hüquqlarının müdafiəsinə qayğını nəzərdə tutur.

*Sosial-bərpaedici vəzifəsi* – əlil, fiziki və psixi cəhətdən qüsuru olan uşaqlarla təlim-tərbiyə işidir.

Sosial pedaqogikanın tədqiqi məsələləri aşağıdakılardır:

1. Uşağın (yeniyetmənin) şüurunda xeyirxahlıq və ədalət, yaxınlarına məhəbbət, bütün canlılara, yaradıcılara hörmət, qarşılıqlı anlama anlayışını tərbiyə etmək.

2. Böhrandan müstəqil surətdə çıxmaq yollarını tapmaq, ətraf insanlarla ünsiyyət saxlamaq, həyatın məqsədi və mənasını müəyyən etmək.

3. Ətraf aləmi, onun təkrarsızlığını, fiziki və mənəvi xüsusiyyətlərini dərk etmək, cəmiyyətdə öz hüquq və vəzifələrini inkişaf etdirmək.

4. Ləyaqət hissini, müstəqilliyi, özünə inamı inkişaf etdirmək.

5. Uşağa (yeniyetməyə) insanlarla, kiçik və böyük qruplarda, həmyaşıdlar birliyində, ailədə, əməkdə, məktəbdə ünsiyyət bacarığı və arzusunu aşılamaqdır. Bu zaman sosial pedaqoqun tərbiyə etdiyi uşaqların yaş dövrünə xas olan xüsusiyyətlərini bilməsi çox vacibdir. İnsanlarla, şəxsiyyətlə cəmiyyət arasında baş verən münaqişələri, ictimai münasibətlərin mənəvi və hüquqi normalarını, uşağı əhatə edən ətraf mühit nəzərə alınmaqla həll etməyi öyrətməlidir.

Sosial pedaqogikanın bu və ya digər qəbildən olan tətbiqi məsələlərini belə də izah etmək olar: xeyirxahlıq etməyi, öz həyatını qurmağı, dərketmə maraqlarını inkişaf etdirməyi, öz fərdiyyətçiliyini, imkan və qabiliyyətlərini təşkil etməkdə kömək etməyi öyrədir.

Sosial pedaqogikanın bir tədris fənni kimi vəzifəsi gələcək müəllimlərə (və ya təşkilatçı və insan birliklərinə rəhbər kimi işləyəcək hər kəsə) sosial pedaqoji gerçəkliyin mənzərəsini xarakterizə etməkdir. Bu məsələnin müvəffəqiyyətli həlli tələbələrin sosial pedaqogikanı öyrənməsi prosesində bir sıra məqsədlərin əldə olunması üçün zəruri və lazım olan həcmdə nəzəri biliklərə yiyələnməsini; sosial tərbiyə sahəsində meydana çıxan problemləri görüb və həll etmək bacarığının inkişaf etdirilməsini; subyektlərə və sosial tərbiyəyə münasibətdə humanist sosial göstərişlərin formalaşdırılmasını nəzərdə tutur.

Beləliklə, sosial pedaqogikanın vəzifəsi müstəqil, yaradıcı, insanlarla müsbət münasibətlərə qadir olan, öz səhhətinə, öz vaxtına məsul olan vətəndaş şəxsiyyətini formalaşdırmaqdır.

Bir çox ədəbiyyatlarda «sosial pedaqoq» və «sosial işçi» anlayışları qarışıq salınır. Onların hər birinin məqsədi, obyekti və predmeti mövcuddur.

***Cədvəl 1.***

| | Sosial iş | Sosial pedaqoqika |
|---|---|---|
| Məqsəd | Sosial müdafiə, sosial kömək, sosial dayaq, sosial xidmət və s. | Sosial-pedaqoji qiymət (ekspertiza), sosial inkişaf, sosial tərbiyə, onların təshihi, bərpası, düzəlişi və yenidən tərbiyə |
| Obyekt | Sosial problemi olan və onu müstəqil həll edə bilməyən insan | Sosial-pedaqoji köməyə ehtiyacı olan insan<br>Sosial-pedaqoji roqnozlaşdırma, qiymət (ekspertiza) |
| Predmet | Maddi yardımın göstərilməsi, insanın sosial müdafiəsi, məsləhət prosesi, xüsusi ehtiyacı olan insana sosial xidmət və s. | İnkişaf, tərbiyə, təshih və ya bərpanın və s. sosial-pedaqoji prosesi<br>Sosial-pedaqoji proqnozlaşdırma, qiymət (ekspertiza) üsulları və keçirilmə metodikası |

Bəzi hallarda sosial işçi və sosial pedaqoq anlamı üst-üstə düşə bilir. Bu zaman onlar öz məqsədlərini özlərinə uyğun üsul və vasitələrlə həyata keçirirlər.

**Sosial pedaqogikanın əsas anlayışları**

Sosial pedaqogikanın əsas anlayışları – sosial mühit, sosial tərbiyə, sosial iş, sosial pedaqoji fəaliyyətdir. Əvvəlcə görək *sosial mühit* nədir? Bu ilk növbədə geniş sosial gerçəklik, cəmiyyət, dövlət, daha doğrusu uşağın bilavasitə əhatəsi olub, onun formalaşmasına güclü surətdə təsir göstərir.

*Sosial tərbiyə* – çoxizahlı anlayışdır. Bu gələcək nəsillərə cəmiyyətin qayğısı; cəmiyyətin, kollektivin, digər insanların arxa olması, havadarlığı, ailədə və cəmiyyətdə müəyyən edilmiş mənəvi–əxlaqi münasibətlərin qəbulu və dərk edilməsi; hüquqi və iqtisadi, vətəndaşlıq və məişət münasibətlərinin qəbul edilməsidir. İnsana kömək etmək - onu öz həyatında yeni yol tapmağa, düşdüyü yeni həyat şəraitlərində dəyişməyə bacarmağı öyrətməkdir.

Sosial tərbiyə insana onun təkmilləşdirilməsi məqsədilə kömək etmək, müəyyən həyat şəraitlərində nailiyyət qazanmaq, ictimai münasibətlərdə bələdliyi bacarmaq prosesi deməkdir. İnsanın sosial tərbiyəsi ailədə, məktəbdə, təhsilin bütün mərhələlərində, əməkdə baş verir. Yeniyetmə üçün bura həmçinin küçə də əlavə edilir. Böyüklərin sosial tərbiyəsinin çox geniş yayılmış formalarından biri də ailə klublarıdır. Bu klubların üzvləri çox vaxt təşəbbüskarlar, müəyyən bir işlə, idmanla, incəsənətlə, bədənin möhkəmlənməsi fikrinə və s. aludə olanlardan ibarətdir.

*Sosial iş* termini insana, qrupa, onların sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə göstərilən peşə fəaliyyət kimi izah edilir.

*Sosial-pedaqoji fəaliyyət* – sosial fəaliyyəti özündə birləşdirən sosial iş olub, uşağa (yeniyetməyə) özünün,

psixoloji vəziyyəti təşkil etməyə, məktəbdə, ailədə, cəmiyyətdə normal münasibətlərinin qurulmasına yönəlmiş köməkdir.

### 1.3.Sosial pedaqogika sosial fəlsəfənin bir hissəsi kimi

Sosial fəlsəfə – cəmiyyət və insan problemləri, cəmiyyətdə insanlar arasında münasibətlər haqqında elmdir. İnsan və cəmiyyət, insan və sosial mühit, sosial ədalət və insan müdafiəsi - sosial fəlsəfənin başlıca anlayışlarıdır. Onun vəzifəsi cəmiyyətdə baş verən proseslərin nəzəri cəhətdən əsaslandırmaqdır.

Cəmiyyət və şəxsiyyət – sosial fəlsəfənin başlıca problemidir.

Sosial pedaqogikada – şəxsiyyət tərbiyənin obyekti kimi nəzərdən keçirilir: şəxsiyyət və onun inkişafı, şəxsiyyətin yaş həddi xüsusiyyətləri, təlim və tərbiyə prosesləri, şəxsiyyətin inkişafına mühit və tərbiyənin təsiri və s. məsələləri tədqiq edilir.

Sosiallaşma prosesində şəxsiyyətin inkişafı baş verir. Bu prosesə cəmiyyətin bütün sosial institutları və ictimai davranış normaları təsir göstərir. Sosiallaşma insanın bütün ömrü boyu baş verir. Təkcə cəmiyyət deyil, insan da cəmiyyətə təsir göstərir. Həm fəlsəfə, həm də pedaqogika bu prosesdə şəxsiyyətin necə inkişaf etdiyini, formalaşdığını, şəxsiyyət və ailənin, şəxsiyyət və etnosun, şəxsiyyət və dövlətin qarşılıqlı təsirini öyrənir.

Cəmiyyət insanlar arasındakı münasibətlərin mürəkkəb sistemini əks etdirir. Bunlardan biri - kollektivdə şəxsiyyət problemidir. Bəşər tarixində kollektivçiliyin müxtəlif formaları mövcud olmuşdur.

Sosial pedaqogikanın ümdə məsələlərindən biri də şəxsiyyət və mühitdir.

Müasir şəraitdə sosial fəlsəfə cəmiyyətdə baş verən dəyişiklikləri - yeni iqtisadi, siyasi, ailə, milli və dini münasibətləri öyrənir. Yeni təfəkkür tərzi üçün müasir ailə, onun böhranı, təhsil və məktəb, gənclik və cəmiyyət, şəhər və təbiət, bazar və büdcə, milli münasibətlər daha xarakterikdir. Bu problemlərin mərkəzində–insan, şəxsiyyət dayanır. Müasir sosial fəlsəfənin birinci dərəcəli problemi sosial, iqtisadi, mədəni və təhsil problemlərində yaranan uyğunsuzluqlardur ki, bundan da ilk növbədə insan əziyyət çəkir. İnsan ətraf mühit, cəmiyyət tərəfindən haqsızlığa məruz qalır. O öz üzərində dövlətin və cəmiyyətin, mənəvi və dini maraqların uyğunsuzluğunu, müxtəlif ideologiyaların təzyiqini hiss edir. Bu problem müasir cəmiyyətdə - ünsiyyətin, qarşılıqlı anlaşmanın mənəvi, fiziki və əxlaqi saflığın pozulması ilə müşahidə edilir.

Sosial fəlsəfə ilə sosial pedaqogikanın ümumiliyi nədədir? Sosial fəlsəfə insan və cəmiyyət münasibətlərinin mühüm problemlərini müəyyən edir. Bu problemlərdən bir hissəsini sosial pedaqoqlar öyrənir ki, bunlar da şəxsiyyət və mühit, şəxsiyyət və təhsil, şəxsiyyət və ailə, şəxsiyyət və mənəvi mədəniyyət, şəxsiyyət və ictimai əməyə hazırlıq və onda iştirakdan ibarətdir.

İnsan və təbiət müasir şəraitdə sosial fəlsəfi problemdir. Qlobal ekoloji kataklizmlərdə yaranan sosial problem ekoloji pozuntularla bağlı insanların, uşaqların xəstəliyə düçar olmasıdır. Bu zaman sosial fəlsəfə ətraf aləmdə, ailədə, məktəbdə, milli münaqişələrin kəskinləşdiyi anda şəxsiyyətin formalaşmasına yeni dərketmə tərzilə müraciət edir. Bu anlayışlar sosial pedaqogikaya istiqamətlənir ki, bu zaman tərbiyənin sosial mühitdən asılılığı problemi ortaya çıxır. Sosial pedaqogika şəxsiyyətin formalaşmasına dəyişən mühitin necə təsir etdiyini, böyüməkdə olan gənc nəslin təhsili kimi mühüm sosial

problemin hər bir yeni cəmiyyətdə necə həll edildiyini təhlil edir.

Sosial pedaqogikaya münasibətdə sosial fəlsəfə metodologiyadır, bu da sosial pedaqoq və sosial işçiyə cəmiyyətin sosial problemlərinə bələd olmaqda kömək edir.

Sosial fəlsəfə cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarını əks etdirir. Sosial, məişət, iqtisadi, tibbi, hüquqi problemlərlə yanaşı o, insanın psixoloji və pedaqoji problemlərini, yəni müasir cəmiyyətə yeniyetmələrin necə uyğunlaşdığı, uşağa pedaqoqun necə kömək etdiyini nəzərdən keçirməyə imkan yaradır.

Sosial pedaqogika şəxsiyyət və cəmiyyət problemləri ilə məşğul olaraq cəmiyyətdə insanlar arasındakı münasibətləri tənzimləyir. Sosial pedaqoq müasir ailənin böhranlı anlarında uşağa (yeniyetməyə) cəmiyyətdə özünə yer tapmaqda, həyat şəraitlərinə alışmaqda kömək edir.

Sosial pedaqogika ilk növbədə uşaqlıq həyatının problemlərinə müraciət edir. Uşaqlıq dövrü - cəmiyyətin sosial problemi olmaqla ən az müdafiə olunan sahədir. Belə ki, müasir şəraitdə uşaqlar cəmiyyət böhranının bütün zərbələrini öz üzərlərində hiss edirlər.

Sosial pedaqogika uşaq şəxsiyyətinin tərbiyə edilməsinə, onun mənəvi və əxlaqi keyfiyyətlərinin formalaşmasına, müasir cəmiyyətdə uyğunlaşmasına kömək edir, böhran anlarında ona dayaq olur.

Bu gün sosial pedaqogika – cəmiyyətdə insan haqqında biliklər olub, şəxsiyyətin cəmiyyətdə formalaşması, şəxsiyyətin sosiallaşması, müasir şəraitdə uşaqların üzləşdikləri çətinliklər və onların aradan qaldırılmasından bəhs edir. Sosial pedaqoqun iş təcrübəsi uyğun olaraq uşağa (yeniyetməyə) cəmiyyətdə sosial və mənəvi sa-

bitliyin əldə olunmasında, yeni münasibətlərin yaradılmasında kömək etməkdən ibarətdir.

Ona görə də sosial fəlsəfə kimi sosial pedaqogika da digər elmlərdən – psixologiya, fiziologiya, anatomiya, məntiq, tibb, iqtisadiyyatdan uzaq qala bilməz.

Müasir dövrdə sosial fəlsəfə kimi sosial pedaqogika da konkret işdə iştirak etməyə qabil olan, fəaliyyətdə olan insanın tərbiyə edilməsinə yönəlmişdir. İlk növbədə o, müasir şəraitdə rolu dəyişən ailəyə müraciət edir. O, həyat şəraitinin dəyişməsi və bu şəraitdə insanın cəmiyyətdə fəal mövqe tutmasına, həyatın elmi və dini cəhətdən dərkinə yönəlmişdir. Dini tərbiyə də insana geniş təsir sistemi olub, dərin sosial-tarixi və psixoloji köklərə malikdir.

Belə sosial bələdliyi sosial fəlsəfə müəyyən etsə də, bu dediklərimizdən belə qənaətə gəlmək olar ki, sosial pedaqogika da bu cəhətdən aparıcı mövqedədir. Buradan da belə nəticə çıxır ki, sosial fəlsəfədə insanın sosial varlıq olması başlıca problemdir və buradan da onun problemləri olan tərbiyə, təhsil, təlim də sosial problemlərdir. Sosial pedaqogika öz nəzəriyyə və təcrübəsi əsasına şəxsiyyəti, onun formalaşması və insanın cəmiyyətdə, ətraf mühitdə inkişafını qoyur ki, bu da onların ümumiliyini əks etdirir.

### 1.4. Sosial-pedaqoji prosesin mahiyyəti, məzmunu və əsas tərkib hissələrini ümumi səciyyəsi

«Proses» anlayışı latın sözü olub, *processus* - ötüb getmə, irəli getmə mənasını verir. Bu anlayış elmi ədəbiyyatda vəziyyətlərin ardıcıl növbələşməsi, fasiləsiz hərəkətləri əks etdirən vahid inkişaf mərhələlərinin qanu-

nauyğun şəkildə bir-birinin ardınca gəlməsinin sıx əlaqəsi kimi izah edilir.

Müasir pedaqoji ədəbiyyatda da «proses» anlayışı mövcuddur və bu «pedaqoji proses» kimi öyrənilir. Lakin onun mahiyyətinin birmənalı anlaşılmasına vahid yanaşma tərzi yoxdur. Daha tipik olanlar aşağıdakılardır:

a) Pedaqoji proses elə prosesdir ki, burada müəllimin sosial təcrübəsi, bilikləri şagirdin keyfiyyətinə çevrilir (İ. P.Podlasıy).

b) Pedaqoji proses - məqsədəyönəlmiş, məzmunca dolğun və xüsusi təşkil olunmuş pedaqoji fəaliyyətin təsiri və tərbiyəçilərin aparıcı və istiqamətverici rolu ilə fəal həyat fəaliyyəti nəticəsində onların özünüdəyişməsidir (B.T.Lixaçov).

c) Tədris müəssisələrində, ümumtəhsil və ya texniki peşə məktəblərində, ali və ya orta ixtisas məktəblərində həyata keçirilən bütün təlim, tərbiyə, təhsil və inkişaf məsələləri pedaqoji prosesə aiddir (N.M.Kazımov).

d) Qarşıya qoyulmuş məqsədə çatmaq üçün müəllimlərlə şagirdlərin qarşılıqlı təsirinə pedaqoji proses deyilir (Ə.X.Paşayev, F.A.Rüstəmov).

e) Pedaqoji prosesə tədris müəssisələrində aparılan bütün təlim, tərbiyə, təhsil və inkişaf məsələləri daxildir (L.Qasımova, R.Mahmudova).

«Pedaqoji proses» anlayışı P.F.Kapterev (1849-1922) tərəfindən elmə gətirilmiş, mahiyyəti və məzmunu onun «Pedaqoji proses» (1904) əsərində izah edilmişdir.

Müəllif pedaqoji prosesi şəxsiyyətin daxili qüvvələri hesabına özünü inkişafı əsasında sosial ideala uyğun hərtərəfli təkmilləşməsi kimi başa düşür və bunu daxili və xarici sosial-pedaqoji proses kimi qeyd edir.

Daxili pedaqoji proses:

a) İnsanın inkişafının ümumi mənzərəsini, yəni onun sosial-pedaqoji inkişafının necə baş verməsini;

b) tipik qrupa aid olan insanın inkişafının özünəməxsusluğunu (yəni eşitmə, görmə, psixi inkişafdakı əyintiləri və s.), onun təşəkkülünü və tərbiyəsini;

c) konkret insanın inkişafı, təlimi və tərbiyəsi, onun fərdiyyətçilik keyfiyyətləri, xüsusiyyətləri nəzərə alınmaqla əks etdirir.

Xarici pedaqoji proses isə:

a) insanın bütövlükdə tərbiyəsi prosesi olub (tərbiyənin təshihi, yenidən tərbiyə, düzəliş), xüsusi pedaqoji məsələlərin həllinə yönəlir;

b) müəyyən kateqoriyalı insanların (məs: psixi inkişafda, tərbiyədə və s. pozuntular olan uşaqların) xüsusi tərbiyəsi məsələlərinin həlli prosesini (bu halda tərbiyə fəaliyyətin xüsusi texnoloji prosesini) əks etdirir;

c) konkret insanın tərbiyəsi prosesi olub, müəyyən tərbiyəvi məsələlərin həllini - tərbiyə işinin xüsusi texnologiyasının həyata keçirilməsini tələb edir.

Konkret insana aid olan daxili və xarici pedaqoji proseslər arasında pedaqoji prosesin tamlığı xarakterini əks etdirən sıx əlaqə və qarşılıqlı asılılıq mövcuddur.

Sosial pedaqoji proses - sosial işçi və müştərinin (yəni sosial pedaqoji prosesin yönəldiyi insanın) qarşılıqlı təsiri olub, mühitin xüsusi və ya təbii şəraitlərində pedaqoji vasitələrlə müştərinin sosial probleminin həllinə yönəlir. Ayrıca insana münasibətdə onun məqsədi öz sosial problemini həll etməkdə ona imkan yaradan istiqamətlənmiş təsir, dayaq, təhrik və köməkdir. Sosial-pedaqoji prosesdə həmçinin daxili və xarici təşkiledicilərin qarşılıqlı əlaqə və qarşılıqlı asılılığı təzahür edir.

Beləliklə, sosial pedaqoji proses sosial-pedaqoji təzahürə (insanın sosiallaşması, şəxsiyyətin sosial keyfiyyətləri və s.) uyğun ardıcıl qanunauyğun inkişaf (keyfiyyət dəyişikliyi, daxili proses) və sosial işçinin məqsədəyönəlmiş ardıcıl (sosial pedaqoji fəaliyyəti) təsirləri, mü-

əyyən sosial pedaqoji məqsədə çatmağı təmin edən (xarici proses), onunla şərtləşən müştəri ilə qarşılıqlı münasibəti kimi müəyyən edilir.

Beləliklə, sosial-pedaqoji proses daxili və xarici proseslərin vahidliyi və qarşılıqlı əlaqəsini əks etdirir. Bu halda xarici daxili ilə çox ciddi surətdə razılaşdırılır (onun tələbatları, imkanları, dəyişmə dinamikası) və onun məqsədəuyğun inkişafını təmin edir. O, çox mühüm bir rolu – daxili pedaqoji prosesin imkanlarını daha səmərəli, daha tam həyata keçirə bilir.

Sosial pedaqoji prosesin sistem yaradıcı amili kimi onun məqsədi (sosial ideal) və bu məqsədlə şərtlənən uyğun sosial-pedaqoji fəaliyyəti çıxış edir. Sosial – pedaqoji prosesin əsas vahidi - sosial pedaqoji məsələ və onun həlli üsullarıdır.

**Sosial-pedaqoji prosesin əsas tərkib hissələri**

*Daxili sosial pedaqoji proses.* İstənilən proses onun inkişaf mərhələlərindən ibarətdir. Təcrübə göstərir ki, onun əlaməti uyğun sosial pedaqoji təzahürdə baş verən şəxsiyyətin yaş, keyfiyyət və ya kəmiyyət dəyişikliyidir. Kəmiyyət dəyişikliyi çox vaxt mərhələlər kimi səciyyələndirilir. Mərhələ və dövrlər çox zaman sinonim kimi işlədilir.

Mərhələlər (dövrlər) tərbiyə və inkişaf prosesində nəyin hansı şəraitdə, hansı müddətdə öyrənilməsi ilə müəyyən edilir. Onların hər biri üçün səciyyəvi olan mümkün keyfiyyət dəyişiklikləri bir mərhələni digərindən fərqləndirməyə və onların özünəməxsusluğunu qiymətlə-dirməyə imkan verir.

*Xarici sosial-pedaqoji proses.* Daxili imkanların həyata keçirilməsinin səmərəliliyi çox zaman sosial-pedaqoji proseslə müəyyən edilir. Mahiyyəti etibarilə sosial-pedaqoji proses - sosial pedaqoqun (subyektin) məqsədəyönəlmiş ardıcıl təsirlərini daxili sosial-pedaqoji prosesin

- texnologiyaların həyata keçirilməsində müvəqqəti imkanları bilmək çox vacibdir.

Hər bir sosial-pedaqoji problemin bir neçə texnologiyası ola bilər. Hər bir texnologiya müəyyən kateqoriyadan olan müştərilərə yönəlir. O özündə bu problemin həllində sosial-pedaqoji fəaliyyətin variantının təsvirini, həyata keçirilməsi tövsiyəsini, sosial işçinin şəxsiyyətinə, peşə hazırlığına və fəaliyyətinə mühüm tələbləri əks etdirir.

Müştəridən, onun sosial problemlərindən, sosial işçinin şəxsi təcrübəsindən, mühitin şərtlərindən asılı olaraq müəyyən bir texnologiya seçilir və fərdi metodika ilə sosial işçi tərəfindən həyata keçirilir. Texnologiya bir, onun praktik surətdə həyata keçirilmə metodikası isə çoxdur.

Hər bir xarici sosial-pedaqoji proses üçün mühitin müəyyən şəraitləri mövcuddur. Bunlar onun daha səmərəli surətdə ötüb-getməsini, yüksək nəticənin əldə olunmasını təmin edir.

Daxili sosial-pedaqoji proses onun təkmilləşdirilməsinin uyğun yollarını müəyyən edən aşağıdakı amillərdən asılıdır:

a) müştərinin müvafiq uyğunlaşmaya, bərpaya olan daxili, yəni fərdi imkanlarından;

b) müştərinin öz problemlərini müstəqil həll etməyə stimul yaradan fəallığından - bu amil həmin prosesdə müştərinin özünün müstəsna rolunu əks etdirir;

c) xarici sosial-pedaqoji prosesin təsirliliyindən, yəni bilavasitə daxili ilə qarşılıqlı təsirə və onun tam həyata keçirilməsini təmin etməyə yönəlir;

d) müştərinin yaşadığı və özünü reallaşdırdığı mühitin şərtlərindən asılılığıdır ki, bunlar müştərinin daxili sosial-pedaqoji prosesdə özünü realizə etməsini ya tənzimləyir, ya da məhdudlaşdırır.

Xarici sosial-pedaqoji proses onu təşkil edən mərhələlərdən asılıdır. Onun səmərəliliyinin gücləndirilməsinin əsas yolu – hər bir mərhələnin təsirliyinin artırılması, yəni:

- müştərinin fərdiliyinin diaqnostikası və keyfiyyətinin artırılması;
- müştərinin keyfiyyətli və daha tam sosial-pedaqoji səciyyəsi;
- səmərəli texnologiyanın seçilməsi üçün zəruri olan fəaliyyət prosesinin sosial-pedaqoji modelləşdirilməsini həyata keçirmək bacarığı;
- daha səmərəli texnologiyanın və onun realizə edilməsi üsulunun seçilməsi;
-həyata keçirilmə fəaliyyətinin başa çatmasından sonra müştəriyə uyğunlaşması, özünü realizə etməkdə ona kömək və arxa olmasıdır.

Beləliklə, daxili və xarici sosial-pedaqoji proseslərin daha səmərəli qarşılıqlı təsiri və onların imkanlarının daha tam realizə edilməsi əldə edilir.

## 1.5. Sosial pedaqogikanın mühüm prinsipləri

Sosial pedaqogikada prinsiplər problemi onların nəzəri-metodoloji əsaslarının işlənib hazırlanması ilə bağlıdır. O, sosial-pedaqoji prosesin səmərəliliyinə təsir göstərən əsas nəzəriyyələrin müəyyən edilməsinə imkan yaradır.

Sosial pedaqogikada «prinsip» (lat. sözü pricipium) ilk, əsas tələb anlayışı mənasını verir, istənilən hadisəni və onun mahiyyətini müəyyən edir. Çox zaman prinsip qayda ilə eyniləşdirilir. Prinsip ilkin anlayış kimi ümumi olub, qayda – isə daha xüsusidir. Öz həcminə görə qayda prinsipdən yığcamdır. Qayda prinsipdən irəli gəlir və müəyyən prinsipin xüsusi müddəalarını, konkret vəziyyətlər-

də onun tətbiqi metodikasını əks etdirir. Pedaqogikada qaydalar təsvir formasında olub, tövsiyə xarakteri daşıyır. Prinsip özündə çoxlu sayda qaydaları ehtiva edir, lakin onların məcmuyu prinsipin mahiyyətini aşkar edə bilmir.

Prinsip kimi ilkin başlanğıc, verilmiş təzahürün az və ya çox dərəcədə ümumiliyi başa düşülür. Qayda – müəyyən norma olub, sosial işçinin fəaliyyətinin mütləq xarakterini əks etdirir. Prinsip müəyyən qanunauyğunluğun əksi, onun təzahürünün şərti və ya praktik fəaliyyətinə gündəlik müşahidələrin nəticəsi və onlardan çıxan xülasədir. Bu prinsiplər aşağıdakılardan ibarətdir:

*-sosial pedaqogikanın elmilik prinsipləri.* Onlar ümumi metodoloji xarakterdədir və elmi fənnə məxsusdur. Belə prinsiplər: qanunla eynilik təşkil edən elmin əsas müddəaları; əsasında qanunlar qrupları duran daha ümumi müddəalar; qanunun xüsusi təzahürləri olan - elmilik, obyektivlik, tarixilik, təcrübə ilə əlaqə və s. aiddir;

- sosial pedaqogikanın təcrübi elm kimi prinsipləri, yəni şəxsi sosial-pedaqoji fəaliyyəti və onun təşkilini şərtləndirən prinsiplər. Bu prinsiplər başlanğıc olanı, əsas müddəaları əks etdirirlər. Onların yerinə yetirilməsi sosial-pedaqoji fəaliyyətin yüksək təşkili və səmərəliliyinin təmin edilməsinə səbəb olur. Bu prinsipləri çox zaman sosial-pedaqogikanın prinsipləri ilə eyniləşdirirlər;

- sosial sahə üzrə hazırlanan ixtisasçıların təhsil alması üçün fəaliyyət prinsipləri. Bunlar ali məktəb pedaqogikasının prinsipləridir. Onlar ümumi xarakterdə olub, ali məktəbin qanunauyğunluqlarını əks etdirir. Onların tələblərini yüksək - ali ixtisaslı mütəxəssislərin hazırlanmasında nəzərə almaq çox vacibdir.

Prinsiplər obyektiv xarakter daşıyır. Prinsiplərin bu xüsusiyyəti özünü o zaman doğruldur ki, sosial pedaqoq öz fəaliyyətində onların tələblərini nəzərə alsın. O zaman onlarla yüksək nəticə əldə etmək ehtimalı daha böyük

olur. Mütəxəssis öz şəxsi və ya başqalarının təcrübəsi əsasında müstəqil surətdə bir çox tövsiyələri mənimsəyir. Bu tövsiyələr sosial-pedaqoji fəaliyyətin prinsiplərini əks etdirməklə ona işdə kömək edir. Belə halda həmin tövsiyələr mütəxəssisin praktik fəaliyyətini müəyyən edən qaydalar, normalar formasında çıxış edirlər. Sosial pedaqogikanın prinsiplərinin öyrənilməsi hər bir mütəxəssisə peşəyə yiyələnmə prosesində onun praktik fəaliyyəti üçün zəruri olan tövsiyələri mənimsəməyə im-kan verir.

**Sosial pedaqogikanın mühüm prinsiplərinin ümumi səciyyəsi**

Təcrübi elm kimi sosial pedaqogikanın prinsiplərini nəticəsinə uyğun fəaliyyətə, onun prosesi və əsaslı surətdə təsir göstərən amillərlə şərtlənən qruplara bölmək olar. Onların hər biri də öz növbəsində qanunauyğunluqlardan asılı olaraq uyğun prinsiplər kimi sıraya düzülür. Sosial pedaqogikada bunlara: obyekt, subyekt, mühit və texnoloji amillər aiddir.

**1. Obyekt amili.** Bu amil sosial-pedaqoji fəaliyyətin yönəldiyi şəxsə (qrupa) münasibətdə müəyyən edilir. O, həmişə ünvanlı xarakterdə olur və çox zaman obyektin şəxsiyyətindən, qrupun özünəməxsusluğundan asılı olur. Başqa daha mühüm prinsiplər kimi - təbiətəmüvafiqlik, fərdi asılılıq və humanizm prinsiplərini göstərmək olar.

*Təbiətəmüvafiqlik prinsipi.* İnsan - canlı varlıqdır. O, təbiətin təbii və cəmiyyətin sosial qanunları ilə inkişaf edir. Bu isə o deməkdir ki, konkret insanın inkişaf dinamikası və tərbiyəsi müəyyən şəraitlərdə uyğun istiqamət ala da bilir və ya əksinə.

Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, insana münasibət sosial-təbii varlığa olan münasibət kimi göstərilməlidir. Yəni, insan, onun təbii imkanları nəzərə alınmaqla inkişaf etdirilməli, təkmilləşdirilməlidir. Əks təqdirdə onu yalnız əymək və hətta sındırmaq, məhv etmək olar. Təbiətəmüvafiqlik prinsipi təbiətin inkişafının ümumi qa-

nunlarının, insanın təbii imkanlarıının sosial-pedaqoji iş prosesində dəqiqliklə nəzərə alınmasının zəruri olduğunu diktə edir. Bu tələblərə riayət etməklə hər bir uşağın istiqamətlənmiş, məqsədli və tam inkişafı prosesində fərdi təbii qabiliyyətlərindən daha dolğun istifadə etməyə imkan yaranır. Həmin əsas tələblər aşağıdakılardır:

- insanın inkişafı və tərbiyəsinin qanun və qanunauyğunluqlarını bilmək və onlara uyğun bütün sosial-pedaqoji işi təşkil etmək bacarığı;
- təkcə yaş və cinsi fərdi xüsusiyyətləri deyil, həm də insanın sosial-pedaqoji işinin obyektinin yaxın və uzaq perspektiv imkanlarını öyrənmək və bilmək və onlara uyğun bütün sosial-pedaqoji işi qurmaq bacarığı;
- sosial-pedaqoji iş prosesində qarşıya qoyulmuş məqsədləri uşağın qabiliyyətləri ilə, onların əldə olunması vasitələrini isə uşaqların fərdi imkanları ilə uyğunlaşdırmaq;
- xüsusi ehtiyacı olan uşaqlarla iş zamanı onların fərdi, fərdi-təshihedici inkişafını öyrənmək, onların hər biri üçün fərdi özünütəkmilləşməsinin daha səmərəli şəraitlərini yaratmaq;
- sosial-pedaqoji iş prosesində insanın təkcə inkişaf və tərbiyəsinin təbiətəmüvafiqliyini deyil, həm də qarşıda duran məqsədlərin realizə edilməsində təbiətin özünün imkanlarının da nəzərə alınması çox vacib şərtlərdəndir.

*Fərdi yanaşma prinsipi.* Bu prinsipin əsasında insanın bütün xüsusiyyətləri, imkanları, üstünlükləri və qüsurları ilə qəbul edilməsi durur. İnsan - öz məzmunu, inkişafı, tərbiyəsi və həyat fəaliyyətinin mühitlə qarşılıqlı təsir imkanına malik olan xüsusi fərdi aləmdir. Ona görə də hər bir konkret insanla iş prosesində, onun inkişafda və tərbiyədə fərdi sosial imkanlarının daha tam realizə edilməsini təmin edən xüsusi yanaşma tərzini, sosial-pedaqoji fəaliyyətin üsul və metodikalarını bilmək çox

vacibdir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, sosial-pedaqoji fəaliyyət obyektin fərdiliyinin, onun sosial asılılığının və maraqlarının nəzərə alınmasına yönəlir, bu əsasda qurulur və realizə edilir.

Fərdi yanaşma prinsipinin tələblərinin həyata keçirilməsi aşağıdakı tövsiyələrin nəzərə alınmasını zəruri edir:

-insanı (qrupu) onunla işə başlamazdan əvvəl yaxşı öyrənmək lazımdır. Bu ibtidai (ilkin) diaqnostika olub, sosial pedaqoqa obyektin fərdi xüsusiyyətlərini daha tam anlamağa kömək edir. Bu anda mütəxəssisin şəxsi təcrübəsi, onun ilk görüşdə insanın özünəməxsusluğunu maksimal qiymətləndirmək qabiliyyəti və öz fəaliyyətini fərdilik əsasında qurmağı;

-insanla iş prosesində onun vəziyyətinin və dəyişmə dinamikasının nəzərə alınması çox vacibdir. Obyektin dəyişən vəziyyətinin və fəaliyyətinin tələblərini nəzərə almaqla bu işdə çeviklik nümayiş etdirməyi;

-insanla sosial-pedaqoji iş prosesində onun üçün daha «rahat» şərait yaratmağa səy göstərilməsi xüsusi əhəmiyyət kəsb edir.

*Humanizm prinsipi.* «Humanizm», «humanistlik» (lat sözü humanus -insanlıq) görüşlər sistemi olub, insanın şəxsiyyət kimi dəyərə və sağlamlığa, xoşbəxtliyə, həyatının mühafizəsi və müdafiəsinə, azadlıq hüququna malik olması mənasını verir. Sosial-pedaqogikada bu prinsip insanın sosial əhəmiyyətinin üstünlüyünü, onun hüquqlarının, inkişafı və tərbiyəsinin müdafiəsi üçün şəraitin yaradılmasında, ona özünütəyində, cəmiyyətdə inteqrasiyasında köməklik göstərir.

Sosial pedaqogikanın sadaladığımız prinsiplərinin başlıca tələbləri aşağıdakılardır:

- inkişaf və tərbiyə insanın xeyrinə istiqamətləndirilməli və onun özünü təkmilləşməsinə kömək etməli;

- tərbiyə insanı müəyyən şəraitlərlə üzləşdirərkən bunlar onun fərdi xüsusiyyətlərinə uyğun olub, şəxsiyyətin özünüməhvinə imkan verməməli;

- humanizm ifrat dərəcə himayədarlıq, özbaşnalıqla əvəz edilməməli;

- uşaqla qarşılıqlı təsir prosesində onun özü istədiyi kimi olmaq, öz şəxsi üstünlüyünə hörmət etmək hüququnun qəbul edilməsini təmin etməlidir.

Köməyə ehtiyacı olan insanlarla iş zamanı xüsusi tələblər verilir. Bu tələblərin mahiyyəti ondan ibarətdir ki, uşağa ürəyiyumşaqlıq göstərərkən, onu möhkəm, lakin ən zəruri, yəni onun daha tam və məqsədəyönəlmiş inkişafı, tərbiyəsi və özünü realizəsinə xidmət edən həyat şəraitləri qarşısında qoymaq lazımdır.

**2. Subyekt amili.** Bu amil subyektin sosial-pedaqoji fəaliyyətinin təşkilinin və həyata keçirilməsinin özünəməxsusluğu ilə şərtlənir. Yaranmış vəziyyətdən və onun səmərəliliyinə verilən tələblərdən asılı olaraq konkret sosial-pedaqoji fəaliyyətin kimə həvalə olunmasını müəyyən edərkən bu amili nəzərə almaq çox vacibdir. Subyekt amili bu fəaliyyətin təhlili və qiymətləndirilməsi prosesində də çox zəruridir. Buradan bir sıra mühüm prinsiplər yaranır ki, bunlar: şəxsiyyətdən asılılıq; peşəkarlığın qarşılıqlı əlaqəsi və sosial-pedaqoji fəaliyyətin təsirliliyidir.

*Şəxsiyyətdən asılılıq prinsipi.* Şəxsiyyətə və onun fəaliyyətinə bilavasitə onunla işləyən adamların münasibətlərini məhz mütəxəssis müəyyən edir. Mütəxəssis sosial pedaqoqa, onun sözünə və işinə hörmət və inam təcəssüm etdirir. Sosial pedaqoji iş əsas etibarilə insanın fərdi, özünəməxsus tərzi ilə həyata keçirilir. Bu prosesdə obyekt ilə subyektin mədəniyyətlərinin, iradi səylərinin qarşılıqlı təsiri, emosional özünəməxsusluğu baş verir. Eyni bir insan tərəfindən yerinə yetirilən eyni bir pedaqoji

fəaliyyət başqaları tərəfindən fərqli surətdə və müxtəlif cür qəbul edilir. Fəaliyyəti eyniləşdirmək, təcrübəni əxz etmək olar, lakin onun müəllifi kimi eyni olmaq olmaz. Fəaliyyət mənimsənilərkən ifaçının məlahəti, onun emosionallığı, iradi keyfiyyətləri, davranış mədəniyyəti və nitqinin təsiri və s. çatışmayacaqdır.

Hər bir pedaqoqun yaradıcı fəaliyyəti fərdidir. Praktik fəaliyyətin təcrübəsini lazımi səviyyədə əxz etmək olar, lakin onun səmərəliliyi və nəticəsi fərqli - ya yaxşı, ya da pis ola bilər. Nəticənin yüksək olması təkcə pedaqoqun pedaqoji ustalığı ilə ölçülmür, şəxsiyyətin yaradıcı münasibəti, onun özünəməxsusluğu ilə müəyyən edilir. Təcrübəyə malik olmaq olar, məlahətliliyə, xoş rəftar və münasibətə, fərdi tərzə yiyələnmək olmaz.

*Sosial pedaqoqun peşəkarlığı ilə sosial-pedaqoji fəaliyyətinin qarşılıqlı əlaqəsi prinsipi.* Bu prinsipin əhəmiyyəti açıqlama tələb etmir. Məlumdur ki, mütəxəssisin peşəkarlığı nə qədər yüksək olarsa, o, sosial-pedaqoji fəaliyyətin ixtisaslaşmış şəkildə realizə edilməsini təmin etməyin ən səmərəli variantını seçməyə qadirdir. Bu prinsip sosial işçinin peşə hazırlığı və fəaliyyəti sahəsində toplanmış təcrübəsini nəzərə almağın zəruriliyini tələb edir. Bunu peşə seçimində, gənc mütəxəssis ilə işin təşkilində, proqnozlaşdırılmış nəticənin təmin edilməsində, mütəxəssisin məsuliyyətinin artırılmasında nəzərə almaq lazımdır.

Prinsipin başlıca tələbləri aşağıdakılardan ibarətdir:

- sosial-pedaqoji fəaliyyətin proqnozlaşdırılan məqsədindən, onun həyata keçirilməsi şərtlərindən, obyektin özünəməxsusluğundan asılı olaraq subyekt müəyyən edilməlidir. Təcrübədə bu tələbi heç də həmişə yerinə yetirmək mümkün olmur;

- iş təcrübəsi olmayan mütəxəssisin məqsədin əldə
dilməsi və peşə fəaliyyəti prosesində özünü realizəsi
amanı nəzakətli dayağa ehtiyacı var;

- sosial-pedaqoji işdə təcrübəsi olan mütəxəssislərlə
prosesində peşə fəaliyyətinə məsuliyyətli münasibəti
imullaşdıran fərdi yanaşma çox vacibdir.

**3. Mühit amili.** Bu amil sosial-pedaqoji fəaliyyətə,
ıun obyektinə və subyektinə birbaşa təsir göstərə bilir.
, sosial pedaqoqun iş təcrübəsinin və fəaliyyətinin
sirliliyini ya artırır, ya da zəiflədir. Sosial pedaqogikada
ühitin amillərinin sosial pedaqoji fəaliyyət prosesinə
üsbət təsirindən istifadə etməklə zərərli təsirləri ya
ıytrallaşdırmaq, ya da əsaslı dərəcədə aşağı salmaq
ümkündür. Bu zaman ən mühüm prinsiplər: mədə-
yyətəmüvafiqlik; sosial asılılıq və mühitlə şərtlənmə
insipləri ortaya çıxır.

*Mədəniyyətəmüvafiqlik prinsipi.* İnsan canlı varlıq
araq həyat üçün, fəaliyyət mühitinin konkret şəraitlə-
ıdə –konkret mədəniyyətdə özünü realizə etmək üçün
kişaf edir və formalaşır. Mədəniyyətlə birgə o özünün
ıyat fəaliyyəti üçün xarakterik olan mentaliteti mənim-
yir. Tərbiyənin mədəniyyətəmüvafiqlik prinsipi ilk dəfə
Disterveq tərəfindən irəli sürülmüşdür. A.Disterveq
sanın doğulub yaşayacağı məkan və zamanın nəzərə
nmasının zəruriliyinə diqqət yetirirdi. O qeyd edirdi ki,
san öz dövrünün və onun mədəniyyətinin məhsuludur.

Prinsipin başlıca tələbləri:

- uşağı erkən yaşlarından milli (xalq) mədəniyyətə
şdırmaq;
- tərbiyə fəaliyyətində xalq tərbiyəsinin özünəməx-
sluğundan, xalq müdrikliyinin imkanlarından (dil, ənə-
, adət və s.) istifadə etmək;
- sosial tərbiyəyə doğma dildən - xalq mahnıları, de-
ıləri, folklor nümunələrini ədəbiyyat və incəsənəti fəal

surətdə daxil etməklə başlamaq lazımdır. Digər xalqların mədəniyyətini və dilini doğma dilin və mədəniyyətin əsasında öyrətmək;

- keçmişin mədəni irsini, mədəni nailiyyətləri bölgənin imkanlarından, dünya mədəniyyətinin mənəvi dəyərlərindən fəal surətdə istifadə etməklə öyrənmək.

*Sosial-asılılıq prinsipi.* Bu prinsipin əsasında dövlət quruluşu, siyasəti və fəaliyyətində şəxsiyyətin formalaşması prosesinin həyata keçirilməsinə dövlətin sosial institutlarının təsiri durur. Bu amil özünü:

- sosial-pedaqoji fəaliyyətin təşkilində;
- müəssisənin işinin sosial-pedaqoji ekspertizasında (belə ki, hər bir dövlətdə tərbiyə onun sosial-pedaqoji siyasətinə uyğun şəkildə müəyyən edilir və həyata keçirilir);
- texnologiyanın müəssisənin tələblərinə uyğun şəkildə sosial-pedaqoji ekspertizasında;
- mütəxəssisin təyin edildiyi müvafiq müəssisədəki fəaliyyətinə vəzifəsi nəzərə alınmaqla sosial-pedaqoji qiymətin verilməsində;
- partiyanın, hərəkatın fəaliyyətinin sosial-pedaqoji ekspertizasında özünü göstərir.

*Mühitlə şərtlənməsi prinsipi.* Bu prinsip insanın fərdi sosial inkişafı, tərbiyəsi və həyat fəaliyyətinin bilavasitə mühitdən asılılığını müəyyən edir. Mühit insanın özünü realizə etdiyi yer kimi nəzərdən keçirilir. Mühitin amilləri - insanın qarşılıqlı təsirdə olduğu amillərdir. Bir çox hallarda onlar insanın inkişafı və tərbiyəsinin vasitələri kimi çıxış edirlər. İnsanı əhatə edən sosial amilləri idarə etmək çox vacibdir, çünki bu amillər vasitəsilə onun məqsədəyönəlmiş fərdi inkişafını stimullaşdırmaq olar. Bu da mühitlə şərtlənmə prinsipinin əsasını təşkil edir.

Hər bir amil xüsusi tərbiyəvi təsirə, tərbiyə imkanlarına, özünün xüsusiyyətlərinə malikdir ki, bunları hər bir ixtisasçı dərindən bilməlidir. Mühit amili tərbiyəvi təsir

üçün stimul ola bilər, onu müəyyən məzmunla doldura bilər, onu neytrallaşdıra və hətta ona əks təsir də edə bilər.

Bu prinsipin başlıca tələbləri aşağıdakılardır:

- hər bir tərbiyəvi təsir üçün çox əlverişli, əlverişli və əlverişsiz mühit mövcuddur;
- sosial-pedaqoji fəaliyyətin məqsədi nəzərə alınmaqla, subyekt və obyektin xüsusiyyətləri və mühit amilləri müəyyən edilir ki, bu amillər həmin prosesi stimullaşdıra və tam nailiyyətini təmin edə bilər;
- sosial işçiyə mühitin təsirini proqnozlaşdıra bilməyi və müsbət imkanlardan tam istifadə etməyə səy göstərməyi, eyni zamanda zərərli təsirləri azaltmağı və ya neytrallaşdırmağı bacarmaq vacibdir;
- mühitin amilləri istənilən insana, xüsusilə də inkişaf edən, həssas olanlara çox güclü təsir göstərir ki, peşə fəaliyyəti prosesində belələrinə xüsusi diqqətlə yanaşmağı tələb edir;
- mühitin amilləri uşağın tərbiyəsində çox vaxt vasitə kimi çıxış edir, ona görə də uşaqlarla iş apararkən onun təsirinin xarakterini proqnozlaşdırmağı bacarmaq, ondan sosial-pedaqoji iş prosesində məqsədyönlü istifadə etmək zəruridir.

**4. Texnoloji amil.** Bu amil xarici sosial-pedaqoji fəaliyyətin qanunauyğunluqlarını müəyyənləşdirir. O, texnologiyaların imkanlarını sosial-pedaqoji fəaliyyətdə bilavasitə nəzərə almağı tələb edir. Mahiyyəti etibarilə bu prinsiplər ümumi pedaqogikaya aiddir. Həmin prinsiplərdə müəyyən dərəcədə tərbiyə texnologiyalarının qanunauyğunluqları əks olunur: məqsədəyönəlmişlik, sistematiklik, komplekslilik, şəxsiyyətdə müsbət olan keyfiyyətlərə istinad edilməsi, şüurluluq və fəallıq və s.

Sosial pedaqogikanın bütün prinsipləri arasında sıx qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq mövcuddur. Onlardan

heç biri, ümumiyyətlə heç bir qrupu sosial pedaqoji fəaliyyətin səmərəliliyini müəyyən etmir. Yalnız diqqəti, fəaliyyəti bir və ya bir neçə istiqamətə yönəldir, onun səmərəliliyini təmin edən daha mühüm tələbləri seçib ayırırlar. Sosial-pedaqoji fəaliyyətdə nə qədər çox prinsip nəzərə alınarsa, o qədər yaxşı nəticə əldə edilər.

Prinsiplərin qarşılıqlı əlaqəsi müəyyən sistem təşkil edir. Onlardan bu və ya digərinin nəzərdən qaçırılması, qiymətləndirilməməsi və ya onlara etinasızlıq göstərilməsi sosial-pedaqoji fəaliyyətin nəticələrinin aşağı düşməsinə və ya proqnozlaşdırıla bilməməsinə gətirib çıxara bilər.

### *Suallar və tapşırıqlar*

1. «Pedaqoji proses» anlayışını səciyyələndirin.
2. Pedaqoji prosesin banisi kimi P.F.Kapterevin mövqeyini səciyələndirin.
3. Daxili sosial-pedaqoji prosesin mahiyyətini və quruluşunu açıqlayın.
4. Xarici sosial-pedaqoji prosesin mahiyyətini, quruluşunu (mərhələlərini) açıqlayın.
5. Daxili və xarici sosial-pedaqoji proseslərin qarşılıqlı əlaqəsini izah edin.
6. Sosial-pedaqoji prosesin obyekt və subyektini səciyyələndirin.
7. Sosial-pedaqoji prosesin təkmilləşdirilməsinin mühüm istiqamətlərini göstərin.
8. Sosial pedaqogikanın prinsiplərini səciyyələndirin.
9. Sosial-pedaqogikanın şəxsiyyətin sosiallaşmasına xidmət edən hansı prinsipləri var?
10. Sosial pedaqogikanın şəxsiyyətin formalaşması və inkişafının sosial amili ilə şərtləşən hansı mühüm prinsipləri var?
11. Sosial-pedaqogikanın şəxsiyyət, mühit və tərbiyə ilə şərtləşən hansı mühüm prinsipləri var?

12. Sosial pedaqogikanın prinsiplərinin qarşılıqlı əlaqəsi nədə təzahür edir və onların fənnin məqsədi, vəzifəsi, məzmunu və realizəsi üsullarına təsiri necədir?

13. Praktik fəaliyyət prosesində sosial işçi sosial-pedaqoji iş prinsiplərinin hansı əsas tövsiyələrini hökmən nəzərə almalıdır?

### *Referat üçün mövzular*

1. Daxili sosial pedaqoji proses.
2. Sosial işdə xarici sosail pedaqoji proses.
3. Prinsip (sosial pedaqogikanın prinsiplərindən bir nümunəsi əsasında) və sosial işdə onun tələblərinin yerinə yetirilməsi.
4. Sosial işçinin praktik fəaliyyət prosesində vacib nəzərə almalı olduğu sosial pedaqogikanın prinsiplərinin əsas tövsiyələri.

### *Ədəbiyyat*


1. Андреева Г.М. Социальная педагогика. М., 1988.
2. Василькова Ю.В. Социалисты-утописты об образовании и воспитании.-М., 1989.
3. Галагузова М.А. Профессиональная подготовка социальных педагогов.//Социальный работник, 1992, № 6.
4. Григорьев С.И. Теория и методика социальной Работы.- М., 1991.
5. Комарова М.С. Введение в социологию. М., 1994.
6. Кои И.С. Ребенок и общество. М., 1988.
7. Личиость и факторы ее социализации: семья, коллектив, образование и культура. –Н.Новгород, 1995.
8. Мид М. Культура и мир детства.М., 1988.
9. Мудрик А.В. Введение в социальную педагогику.- М., 1997.
10. Никитин В.А. Понятие и принципы социальиой педагогики. М., 1996.

11. Социальная работа и социальная философия.- М., 1996.
12. Смелзер Н. Социология. М., 1994.
13. Филонов Г.Н.Социальная педагогика: научный статус и прикладные функции //Педагогика, -1994, -№ 6.
14. Шепраньский Я. Элементарные поиятия социологии. М., 1989.

### Azərbaycan dilində

15. Abdulov R. Aktual sosial problemlər və viktimoloji proseslər. //Azərbaycan məktəbi, 2004, №2.
16. Abdulov R. Məktəbdə sosial-pedaqoji işin əsasları. «Adiloğlu», Bakı, 2005.
17. Abdulov R. Sənin sosial fəallığın. Bakı, 2002.
18. Ağayev.Ə.,Talıbov Y., Eminov A., İsayev İ. Pedaqogika. Adiloğlu, Bakı, 2006.
19. Ağayev.Ə. Həyatın astanasında. Bakı, 1983.
20. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiyanın aktual məsələləri. Nəzəriyyə. Metodika. Axtarışlar. Bakı, 1998.
21. Quliyev S.M. Ailə pedaqogikasının ümumi problemləri. Bakı, «Nurlan», 2005.
22. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı, Maarif, 1982.
23. Əlizadə H. Sosial pedaqogikanın aktual problemləri. Bakı, Maarif, 1998.
24. Əlizadə H. Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, 1993.
25. Kazımov N.M., Həşimov Ə. Ş. Pedaqogika. Bakı: Maarif, 1996.
26. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika.Yeni kurs. Bakı: Çaşıoğlu, 2002, 2007.

# FƏSİL 2. ŞƏXSİYYƏT VƏ SOSİAL FORMALAŞMA

## 2.1. İnsanın sosial formalaşması sosiai-pedaqoji hadisə kimi

Şəxsiyyətin sosial formalaşması - təbii fasiləsiz prosesdir. Bu prosesdən insanın necə şəxsiyyət olması, həyatda özünü nə dərəcədə və necə realizə etməsi, həyat fəaliyyəti mühitinə necə təsir göstərməsi çox asılıdr. İnsanın bir çox sosial problemləri müstəqil surətdə həll etmək qabiliyyəti onun sosial inkişafı ilə müəyyən edilir.

İnkişaf - xarici və daxili amillərin təsiri ilə nəyin isə istiqamətlənmiş, qanunauyğun şəkildə dəyişməsidir. Bir sözlə, inkişaf nəticəsində keyfiyyət və kəmiyyət dəyişiklikləri baş verir. Şəxsiyyətin sosial inkişafı isə insanın formalaşması prosesində şəxsiyyətin quruluşunun kəmiyyət və keyfiyyət dəyişməsi, onun sosiallaşması və tərbiyəsidir. Bu inkişaf özündə insan dünyaya göz açandan ta ömrünün sonunadək sosial mühitdə onun üçün xarakterik olan təbii və qanunauyğun təzahürləri əks etdirir.

İnsanın sosial inkişafı fasiləsiz olub, qeyri bərabər xarakterdədir. Onun fasiləsizliyi insanın təbii inkişafı zamanı sosial təcrübənin daim dəyişməsi, saxlanılması və itirilməsi ilə izah edilir. Şəxsiyyətdə sosiallıq keyfiyyətləri zənginləşir, o, nəyi isə qazana və ya itirə bilir, nədə isə mümkün olan müəyyən səviyyəni saxlayır və s. Sosial inkişafın qeyri –bərabərliyi isə ondadır ki, o, düzxətli və daimi xarakterdə deyil. Bu proses bir çox amillərdən, o cümlədən insanın yaşı, temperament tipi, meylliliyi, vəziyyəti, mühitin şəraitləri, özünün fəallığı və s. asılı olaraq dəyişir.

Bəşər cəmiyyətində belə bir qanunauyğunluq mövcuddur: insan doğulur, sonra o, şəxsiyyət olur.

Şəxsiyyət – sosial təzahürdür. O, zamanla sıx bağlı olub, tarixən insana nə xas olmuşsa, onu əks etdirir. Şəxsiyyətin keyfiyyətləri anadangəlmə deyil, irsən keçmir, sosial və mədəni inkişaf nəticəsində yaranır.

Şəxsiyyət olaraq insan həyatda müəyyən şəxsi mövqe qazandıqda, özü üzərində böyüklərin təsirini hiss edərək, sosial təzahürləri, ünsiyyəti dərk edərək buna gəlib çatır.

Şəxsiyyətin formalaşması - insanın cəmiyyətdə təşəkkülü prosesidir. Şəxsiyyət özünü təşkil, özünə nəzarət, özünü qiymətləndirməyə qadirdir. Şəxsiyyət üçün bir sıra: fərdiyyətçilik, ağıllılıq, temperament, xarakter, fəallıq, məqsədəyönəlmişlik , istiqamətlilik və iradəlilik kimi mütləq sosial keyfiyyətlər də xarkterikdir.

*Fərdiyyətçilik* – istənilən insanın nadir keyfiyyəti olub, yalnız onun özünə xasdır.

*Ağıllılıq*- məsul olanın hərəkətlərinin, əməllərinin nəticəsini əvvəlcədən görə bilmək qabiliyyətidir.

*Temperament* – insanın psixoloji fərdi qabiliyyətidir. Temperament emosional oyanıqlıqda, xüsusilə də uşaqlıq dövründə özünü büruzə verir. Yaşa dolduqca emosional təzahürlər intellektual fəaliyyətlə birlikdə insanın xarakterini müəyyən edir.

*Xarakter*- şəxsiyyətin çoxsaylı keyfiyyətlərindən ibarət olan mürəkkəb psixi yaranma kimi temperamentin sosiallaşması nəticəsində formalaşır. Xarakter insanın ətrafdakılara və özünə münasibətdə təzahür edir. Onlar yalnız həmin insana xas olur. Belə ki, təkidlilik, həssaslıq, qabiliyyətlilik, cəsurluq, ədalətlilik yalnız konkret tipik insana xas ola bilər. Onlardan yalnız biri aparıcı olub, digərlərini özünə tabe etdirə bilir.

*Fəallıq*- insanın ətraf aləmlə qarşılıqlı təsirinin meyarıdır. Xarici və daxili fəallıq mövcuddur. Daxili - insan

hər hansı bir işi görməklə özünü realizə edir, xarici - onun üçün maraqlı olmayan bir iş yerinə yetirir.

*Məqsədəyönəlmişlik* – təyin olunmuş məqsədin əldə olunması qabiliyyətidir.

*İstiqamətlilik* – elə meyldir ki, insanın davranışında onun dünyagörüşündə, mənəvi tələbatlarında və işlərində təzahür edir.

*İradəlilik*- şəxsiyyətin məqsədə çatmaq yolunda olan çətinlikləri, maneələri, sədləri dəf edə bilmək bacarığında özünü göstərir.

## 2.2. Şəxsiyyətin inkişafı, formalaşması, sosiallaşması və tərbiyəsi

**Şəxsiyyətin inkişafı** İnsanın inkişafı – mürəkkəb davamedici mütərəqqi prosesin nəticəsidir ki, bu zaman onun bioloji, psixi və sosial keyfiyyətləri dəyişir. Bu dəyişikliklər şəxsiyyətin formalaşması prosesində onun tərbiyəsi və təhsilinin təsiri ilə baş verir. Tərbiyə şəxsiyyətin inkişafına müəyyənedici təsir göstərir. O, insanın fərdi ictimai varlıq kimi təşəkkülünü müəyyən edir.

Uşaq müəyyən istedad və qabiliyyətlərlə dünyaya gəlir, lakin onların necə pöhrələnəcəyi təbiət və mühitdən asılı olur.

*Mühit.* Bu uşağın yaşadığı dünyada, planetdə baş verən hadisələr, iqtisadi, kortəbii hadisələr, ölkədə, cəmiyyətdəki hadisələrdir. Bu şəhərdə, kənddə, ailədə baş verən hadisələrdir. Bu dini təsirlər, küçənin, həmyaşıdların, məktəbin, məktəbdənkənar müəssisələrin, klub və mərkəzlərin təsiridir.

Mühitin təsirinə məruz qalan insan fiziki, əqli və mənəvi cəhətdən dəyişir. Bu prosesdə uşaq şəxsiyyət kimi təşəkkül tapır. Onun orqanizmində, onu əhatə

edənlərin, ailə və həmyaşıdların təsiri ilə şüurunda dəyişikliklər baş verir.

Şəxsiyyət ilk növbədə ünsiyyət və müxtəlif növ fəaliyyətin - əvvəlcə oyun, daha sonra təlim və əməyin nəticəsində inkişaf edir.

Ətrafındakılardan asılı olaraq onun dünyagörüşü inkişaf edir, onun ictimai mahiyyəti dəyişir.

**Şəxsiyyətin formalaşması** Formalaşma - ilk əvvəl bu fiziki və fizioloji keyfiyyət, irsiyyət, təbii imkanlar və qabiliyyət, davranış genetipidir. Burada həmçinin fəallıq, davranış xüsusiyyətləri, ağlın gücü, emosionallıq, yaradıcılıq, səy göstərilməsi, motivlər və qabiliyyətlər də əhəmiyyət kəsb edir.

Mühit və irsiyyət bərabər surətdə şəxsiyyətin formalaşmasına təsir göstərir.

Uşaq üçün mühit nədir? Uşağa ailə, küçə, həyət, məktəb, televizor və s. müxtəlif təsirlər göstərir. Onun inkişafında ən əhəmiyyətli amil – küçədir. Valideyn və tərbiyəçilərdə «küçə» sözü çox zaman şok yaradır. Halbuki gün ərzində uşaq küçədə bir neçə saat ola bilir. Küçədə uşaq ətraf aləmi dərk edir. Uşağın yaşadığı yer onun görüş dairəsini müəyyən edir. Müasir təhsil sistemi uşağın əmək fəaliyyətinə başlaması vaxtını bir qədər uzadır. Əgər 20-ci illərdə 16 yaşda olanların 1/3 hissəsi işləyirdisə, bu gün onlar oxuyurlar. Sosial təcrübəni isə həyətdə qazanırlar. Burada ünsiyyət dairəsi genişdir, burada yeniyetmə özünü təsdiq edə bilir; burada öz «maraqları», «idarəçiləri» və «kompaniyanın döyünən ürəyi» mövcuddur. Küçədə münaqişələr yaranır və oradaca sönür. Böyüklərdən fərqli olaraq küçədə yeniyetmələr öz statuslarını qazanırlar. Onlar öyüd-nəsihətləri dinləməyi xoşlamırlar, çox zaman onlardan qaçırlar.

Şəxsiyyətin formalaşmasında uşağın (yeniyetmənin) özünü realizə etməsinə, özünü tərbiyəyə, özünü təşkilə, özünü «fəda etmək» qabiliyyətinə malik olmasını hökmən nəzərə almaq vacibdir.

**Şəxsiyyətin sosiallaşması**

*Şəxsiyyətin sosial təşəkkülü* – insa şəxsiyyət kimi dərk etməsi prosesidir. Bu tərbiyə, təhsil və özünü tərbiyə prosesində baş verir. Bu zaman insan müstəqil surətdə özü üçün məqsədlər müəyyən edir, onlara çatmağa səy göstərir, şəxsi üstünlük hissini dərk edir, özünün cəmiyyətdə tutduğu yerinə və vəziyyətinə inam yaranır. Şəxsiyyətin təşəkkülü ətraf mühitin, həyatında qarşılaşdığı ədalətin və zülmün dərkidir.

Bir sözlə, şəxsiyyətin sosiallaşması – onun öz doğma dilini və məişətdə davranış qaydalarını, yaradıcılığa qabilliyi, öz xalqının mədəniyyətini dərindən sevib qavramasıdır.

Əlil uşaqlarda, fiziki qüsurları olan, kor, kar, psixi inkişafı ləng gedən uşaqlarda şəxsiyyətin sosiallaşmasının bir sıra çətinlikləri müşahidə edilir.

Sosial pedaqogika bir elm kimi şəxsiyyəti onun sosial keyfiyyətləri baxımından nəzərdən keçirir. Bu zaman şəxsiyyət sosial təzahür kimi təqdim edilir və onun fərdi xüsusiyyətləri: insanın xarakteri və iradəsi, maraqları və tələbatları, onun əqli inkişafının gücü, biliyi, şüuru və özünüdərki, cəmiyyətdəki mövqeyi və dünyagörüşünün xüsusiyyətləri ön plana çəkilir. Eyni zamanda onun ətraf aləmi, ictimai münasibətləri necə qavraması, başqa insanlarla necə rəftar etməsi də nəzərə alınmalıdır.

Müasir kütləvi informasiya vasitələri şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.

Sosiallaşma uşağın fəaliyyətindən, onun əməkdə iştirakından, onun görüş dairəsinin genişlənməsinə ətraf

mühitin etdiyi təsirlərdən, cəmiyyət və dövlətin gənc nəslə göstərdiyi qayğıdan asılıdır.

Şəxsiyyətin təşəkkülündə sosial pedaqoq da çox iş görə bilir. O, uşağın meyl və qabiliyyətlərini, istəklərini aşkar edib, ailəni və ətraf mühiti öyrənib, onun inkişafı üçün şərait yarada bilər. Bu zaman ən başlıcası uşaqla qarşılıqlı anlaşmadır. Sosial pedaqoq onu özünütəhsil yoluna istiqamətləndirir, işə, əməyə, idmana, yaradıcılığa, mədəniyyətə cəlb edə bilir. Bu zaman o, tərbiyənin uyğun yanaşma tərzinin forma və üsullarını axtarıb tapır.

Sosial pedaqoq tez-tez ərköyün uşaqlarla da üzləşir. Bir çox hallarda belə uşaqlar valideynlərin tələbkar olmaması üzündən, uşaqların özbaşına buraxılması və ya uşağın öz iradəsini yeritməkdən irəli gəlir. Valideynlər bir qədər ciddilik göstərdikdə bu uşaqlarda qorxu, təlaş hissi yarada bilir.

Sosial pedaqoq şəxsiyyətin formalaşmasında yaş xüsusiyyətlərini nəzərə almalı, çətin olan yeniyetmənin keçid dövrünü unutmamalıdır. Unutmaq olmaz ki, bu dövrdə ailənin təsiri zəifləyir və dostların, küçənin, kompaniyaların, kütləvi informasiya vasitələrinin təsiri güclənir. Bu yaşda gənc özünə, böyüklərə, tərbiyəçilərə yüksək mənəvi ölçü meyarı ilə yanaşır. Onunla rəftarda əmiranə tonu, qışqırığı xoşlamır, özünün şəxsi ləyaqət hissini, inam gücünü yüksək qiymətləndirir.

Sosial pedaqoqla tərbiyə olunanların münasibətləri o zaman uğurlu qurula bilər ki, o, şəxsiyyətin formalaşmasında fəaliyyət və ünsiyyətin başlıca olması haqqında pedaqoq və psixoloqların tədqiqatlarının elmi nəticələrini yaddan çıxarmasın. Ona görə də sosial pedaqoq öz işini məhz elə bundan başlamalıdır: uşaqlarla, həmyaşıdlarla, böyüklərlə, pedaqoqlarla, tərbiyəçilərlə müxtəlif fəaliyyət növlərini təşkil etməlidir.

S.İ.Gessen şəxsiyyətin sosiallaşması prosesini üç mərhələdə nəzərdən keçirir.

*Birinci mərhələ* – məktəbəqədər dövr, uşağın qeyri-ixtiyari varlığı dövrüdür ki, bu zaman oyun fəaliyyəti üstünlük təşkil edir.

*İkinci mərəhələ* – ətraf aləmin, onun qanun və tələblərinin uşaq tərəfindən fəal dərk olunması dövrüdür. Burada uşağın bu inkişaf mərhələsi hansı məktəbdə baş verməsi, məktəbin cəmiyyətdəki sosial proseslərdən nə dərəcədə xəbərdar olmasından asılıdır, çünki biliklər insanı mədəni aləmə aparıb çıxarır.

*Üçüncü mərhələ* - S.İ.Gessenə görə: uşağın formalaşmasının başa çatdırılması dövrüdür. Bu dövr təhsil, məktəbdənkənar və universitet təhsili prosesi ilə bağlıdır. Şəxsiyyət ətraf təbiəti və cəmiyyəti dərk edərək, özünün «Mən»ini təkmilləşdirir, onun dünyagörüşü formalaşır.

Dünyagörüşünün formalaşmasında uşağı əhatə edən sosial və mədəni mühit, həmçinin onun erkən yaşlardan hər şeyə xüsusi baxışı mühüm rol oynayır.

J.Piajenin fikirlərinin davamçısı kimi çıxış edən S.İ.Gessen uşağın inkişafının qeyri - bərabər olmasını qeyd edir və bu inkişafın altı mərhələsini ayırır:

- 5 yaşadək – intensiv inkişaf mərhələsi;
- 5 yaşdan 7-dək – «ilkin durğunluq» mərhələsi;
- 7 yaşdan 11-dək – yenidən intensiv inkişaf mərhələsi;
- 11 yaşdan 14-dək – «ikinci durğunluq» mərhələsi;
- 14 yaşdan 17 dək – intensiv inkişafın üçüncü mərhələsi;
- 17 yaşdan 21-dək – harmonlaşma və ya zəif inkişaf mərhələsi.

**Sosial tərbiyə** Şəxsiyyətin formalaşması, onun sosiallaşması sosial tərbiyə ilə sıx bağlıdır. Sosial tərbiyə nədir? Bu cəmiyyətin böyüməkdə olan gənc nəslə

qayğısıdır. Tərbiyə insanın cəmiyyətdə qəbul olunmuş norma və qaydalara uyğun davranışını təmin etməli, onu düzgün istiqamətləndirməlidir. Şəxsiyyətin fiziki, psixi və sosial inkişafı üçün ictimai, dövlət və xüsusi tədris-tərbiyə müəssisələri yaradılır. Bu strukturlar sosial cəhətdən qayğıya ehtiyacı olan ailə və uşaqlara onların inkişafında köməyə; uşaqlarda (yeniyetmələrdə) insanlarla və təbiətlə davranmaq bacarığı tərbiyə etməyə; təhsilə meyli; əməkdə və ictimai həyatda mədəni ünsiyyəti aşılamağa; böhranlı anlarında möhkəm dayanmaqda ailə və uşaqlara yol göstərməyə istiqamətlənmişdir.

Bir sözlə, sosial tərbiyə uşağın (yeniyetmənin) təhsili, maarifi, təlimi və özünü təhsili ilə bağlıdır.

Sosial tərbiyəni necə təşkil etmək lazımdır?

Bu prosesdə ilkin vəzifə ailədə, məktəbdə böhran vəziyyətlərində şəxsiyyətə fərdi köməyin göstərilməsindən ibarətdir. Bu zaman uşağın (yeniyetmənin) sağlamlığını, fiziki, psixi və sosial durumunu bərpa etmək çox vacibdir.

Tərbiyəni təşkil edərkən sosial pedaqoq bilməlidir ki, şəxsiyyətin formalaşması prosesində uşağa - təbiət və ana dili; ailədə, məktəbdə, ətraf mühitdə ünsiyyət; onun fəaliyyəti; kütləvi informasiya vasitələri, mədəniyyət, ədəbiyyat; uşağın özünün həyat tərzi, onun səyləri, planları, mikromühitdə yerinə yetirdiyi rolu təsir göstərir.

**Özünütərbiyə** Şəxsiyyətin inkişafı prosesində özünütərbiyənin xüsusi əhəmiyyəti var. Özünütərbiyə - insanın özünü, cismani, ruhi qüvvə və xüsusiyyətlərini, sosial keyfiyyətlərini şüurlu surətdə dəyişməsi prosesidir (L.V.Mardaxayev). Bu proses insanın dəyişməsini, onun fiziki, mənəvi, dini, sosial və yaradıcı tamlığını əhatə edir. Konkret olaraq bu: insana həyatda mane olan problemlərin aşkar edilməsi və aradan qaldırılması yollarını müəyyən etməkdən; həmin məqsədi seçməsi, ona çata bil-

məmək qorxusundan azad olmaqdan; məqsədə çatmaq mümkün olmasına özünü inandırmaq, öz qüvvələrini sınamaqdan; öz əməllərinə, ətrafdakılara, özmünasibətinə dəqiq nəzarət etməkdən ibarətdir.

Özünü tərbiyə təkcə özünü dərk deyil, həm də özünü dəyişməyə səy göstərmək deməkdir. Bu zaman müvəffəqiyyətin əldə olunmasına fəal təsirlər, öz qüvvəsinə möhkəm inam, mərkəzləşmə bacarığı çox vacib şərtlərdəndir.

Bunun üçün sosial tərbiyə prosesini elə qurmaq lazımdır ki, o, müsbət təcrübənin və uyğun davranışın toplanmasına xidmət etsin.

Özünütərbiyəyə, xüsusilə də çətin uşaqlarda, pedaqoji rəhbərlik çevik olmalıdır. Çünki bu zaman onları özünütərbiyənin vacibliyinə inandırmaq lazım gəlir. Uşaq və yeniyetmə öz qüvvə və bacarıqlarına inansa, onun iradəsini, mənəvi hiss və keyfiyyətlərini tədricən formalaşdırmaq mümkündür.

**Yenidəntərbiyə** Yenidəntərbiyə - pedaqoji təsir olub, şəxsiyyətə davranışındakı əyintilər haqqında xəbərdarlıq edilməsi və qarşısının alınmasına istiqamətlənir (Y.M.Orlov). Bu zaman iki anlayış: «yenidəntərbiyə» - şəxsiyyətin bütün strukturunun dəyişməsi və «düzəldilməsi» – ayrı-ayrı çatışmamazlıqların qarşısının alınması nəzərdə tutulur.

Yenidəntərbiyə ictimai əxlaqın tələblərinə cavab verən şəxsiyyəti formalaşdırmaq məqsədini qarşıya qoyur. Yenidəntərbiyə aşağıdakı istiqamətlər üzrə: müsbət keyfiyyətlər bərpa edilir; tərbiyə olunan idmanla və əməklə məşğulluğa cəlb edilir ki, bununla onun cəmiyyətə zidd məşğuliyyətinin yeri doldurulur; müsbət davranışlara stimul yaratmaqla yüksək keyfiyyətlər inkişaf etdirilir; öz hərəkətlərinin tənqidi təhlilinə öyrətməklə həyata keçirilir.

A.V.Mudrik insanın sosiallaşmasına dörd qrup amilin təsirini qeyd edir. Onlar: meqaamil - kosmos, planet, dünya; makroamil - ölkə, etnos, cəmiyyət, dövlət; mezoamil - etnomədəni və yerli şəraitlər, məskunlaşma tipi, kütləvi informasiya vasitələri; mikroamil - sosiallaşma institutları (ailə, məktəbəqədər müəssisələr, məktəb, ali məktəb, əmək kollektivi), dini təşkilatlar, həmyaşıdlar qrupu və submədəniyyəti aid etmək olar.

Sosiallaşma ilə yanaşı desosiallaşma da insan həyatının təzahürdür. Desosiallaşma nədir?

*Desosiallaşma* - (fransız dilində des... sözönü olub, mənası nəyi isə məhv edən, yox edən və sosiallaşma) – insanın hər hansısa səbəbdən və ya onun həyat fəaliyyətinə əlverişsiz amillərin təsiri ilə (məs: uzun müddətli xəstəlik, məzuniyyət, təbii mühitdən ayrı düşmək, başın bərk əzilməsi, özünü təzahür üçün şəraitin olmaması və s.) həyat fəaliyyəti mühitində sosial təcrübənin itirilməsidir.

Desosiallaşmanın mühüm səbəbləri müxtəlif amillərlə şərtlənir. Burada xüsusi yer şəxsi, mühit və tərbiyə amillərinə verilir.

*Şəxsi amillər* insan üçün təbii olan mühitdə onun fəallığını ləngidən, onun üçün adət halını almış fəaliyyətin xarakterini dəyişən, başqa sosial təcrübəni qazanmasına təkan verən imkanları və vəziyyəti ilə xarakterizə edilir. Orqanizmin vəziyyəti müəyyən fəaliyyətdə insanın özünü göstərməyə əhvali-ruhiyyə, arzu və qabiliyyət yaradır. Qeyri-sağlam vəziyyət də insan üçün təbii olan fəaliyyətdə olmağa arzu, maraq və qabiliyyətlər yarada bilir. Belə amillərə başlıca olaraq: şəraitin yeniliyini; kollektiv, qrup, ayrı-ayrı şəxslər tərəfindən ona göstərilən təzyiqi aid etmək olar. Tərbiyəvi amillər tərbiyə fəaliyyətində insanın özünütəzahürünə təsir göstərməklə alınmış nəticə və xüsusiyyətlərlə xarakterizə edilir. Bəzən belə tərbiyəvi

fəaliyyət uşağın imkanlarına uyğun olmayan və ya hər hansı bir şəraitdə müəyyən şəxslərin iştirakı ilə onun təzahürünü ləngidən müəyyən fəallığı formalaşdıra bilər.

Desosiallaşma uşağın sosial inkişafında həm müsbət, həm də mənfi rol oynaya bilər. Müsbət rolu ondan ibarətdir ki, o, insana zərərli sosial təcrübədən yaxa qurtarmağa kömək edir; yeni təcrübə qazanmasına, onun sosial imkanlarının genişlənməsinə imkan yaradır. Bu amildən insanın tərbiyəsində, onunla aparılan islahedici və ya yenidən tərbiyə işində fəal surətdə istifadə edilir. Desosiallaşmanın *zərərli rolu* ondadır ki, insan təbii özünü realizəsi prosesində özü üçün zəruri olan toplamış olduğu müsbət sosial təcrübəni itirir. O, insanın peşə fəaliyyətində, onun üçün əlverişli olan şəraitlərdə özünü təzahür etdirməkdə görünür.

Desosiallaşma ilə yanaşı resosiallaşma da mövcuddur.

*Resosiallaşma* (lat. sözü re... - sözönü olub, təkrar, bərpa edilən hərəkət, əks təsir və sosiallaşma) - insanda itirilmiş sosial dəyərlərin və ünsiyyət, davranış, həyat fəaliyyətinin təcrübəsinin bərpa edilməsidir. Resosiallaşmaya və onun nəticələrinə əsaslı surətdə müxtəlif amillər, o cümlədən şəxsi, mühit və tərbiyəvi amillər də təsir göstərir.

Sosiallaşma, desosiallaşma və resosiallaşma arasında sıx qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq mövcuddur. Bunların insanın tərbiyəsi işində - islah edilməsi və yenidən tərbiyəsi prosesində təsiri çox qiymətlidir.

İnsanın sosiallaşması anadan olandan başlayıb bütün ömrü boyu davam edir. Bu prosesdə o, həyat fəaliyyətinin müxtəlif sahələrində bəşəriyyətin toplamış olduğu sosial tərbiyə təcrübəsini mənimsəyir. Bu da ona həyati əhəmiyyəti olan sosial rolunu yerinə yetirməsinə imkan yaradır.

Rol – insanın həyat fəaliyyəti olmaqla, normalar sistemində davranışını, ünsiyyətini və sosial mövqeyini müəyyən edir. Sosial rol – insan tərəfindən gündəlik həyatın tələbatlarına uyğun vəzifələri yerinə yetirdiyi zaman peşə fəaliyyəti ilə müəyyən statusunun saxlanılmasıdır.

*Sosiallaşmanın müxtəlif növlərinin seçilməsi.* Sosial rollar bu prosesdə mənimsənilir. Onlardan ən başlıcası: cinsi rol, ailə-məktəb, peşə-əmək, submədəniyyət- qrup-şəkilli rollardır.

İnsanın bu və ya digər rolu mənimsəməsi yaşa dolduqca, həyat fəaliyyəti mühitinin təsiri ilə tədricən baş verir. Sosiallaşma prosesində o, müəyyən mərhələ və pillələrdən keçir.

Davam etmə səciyyəsinə görə sosiallaşma mərhələlərini: kortəbii, nisbətən istiqamətləndirilən, sosial cəhətdən nəzarət edilən və özüidarə edilən təşkil edir.

1920-ci illərdə uşaq orqanizmində baş verən anatomik-fizioloji dəyişikliklərə istinadən yaş dövrü mərhələləri müəyyən edildi. 1970-ci illərdə D.B.Elkonin (1904-1984) yaş dövrlərini dəyişən aparıcı fəaliyyət kimi şüurun inkişafına əsaslanaraq: məktəbəqədər yaş dövrü üçün - oyun; kiçik məktəblilər üçün - təlim; yeniyetmələr üçün - şəxsi intim ünsiyyət; gənclər üçün – tədris-peşə fəaliyyətini təklif edir.

1980-ci ildə A.V.Petrovski də şəxsiyyətin inkişafının yaş dövrləri nəzəriyyəsini irəli sürür. Bu da fərd üçün daha üstün olan qruplarla fəaliyyəti zamanı qurduğu münasibət tipini müəyyən edir.

*Sosiallaşmanın mərhələləri* insanın əmək fəaliyyətinə münasibətindən asılı olaraq müxtəlif müəlliflər tərəfindən müxtəlif cür müəyyən edilir: yaş dövrləri əsas götürülməklə (Lovinqer): 1) sosiallığa qədər (çağalıq); 2) im-

pulsiv (erkən uşaqlıq); 3) özünümüdafiə (orta uşaqlıq); 4) komformist (gecikən uşaqlıq - yeniyetməlik); 5) şüurlu (yeniyetməlik -gənclik); 6) muxtariyyətli (gənclik-yetkinlik); 7) inteqrasiyalı (böyük yaşlı); T.Keçan : 0) inkorporativ (qocalıq); 1) impulsiv (2-7 yaş); 2) imperiyalı (7-12 yaş); 3) şəxslərarası (13-19 yaş); 4) institusional (erkən böyüklük); 5) fərdlərarası (böyüklük); əmək fəaliyyətinə münasibət xarakterinə görə: əməyə qədərki (erkən sosiallaşma) - məktəbəqədər və məktəb təlimi mərhələsi; əmək-ali məktəb mərəhələsi, əmək kollektivi mərhələsi; əməkdən sonrakı – təqaüdə çıxma mərhələsi və təqaüddə özünü realizə mərhələsidir.

*İnsanın sosiallaşması aşağıdakı əsas mərhələlərdən ibarətdir:* eyniləşdirmə, fərdiləşdirmə, şəxsləndirmə.

Hər bir insan ayrılıqda fərddir - öz imkanları və xüsusiyyətləri ilə olan bir aləmdir. «Fərd» kateqoriyası (lat.sözü *individuum*- bölünməz) insana nisbətdə elə konkret insanı təcəssüm etdirir ki, bu *Homo sapiens* növü nümayəndəsinin vahid təbii varlığıdır. O, digər insanların ümumi birliyində özünəməxsus fərdiliyin daşıyıcısıdır. Eyniləşdirmə (lat.sözü *identiaicave*- eyniləşdirmək) mənası insanı kim iləsə, nə iləsə eyniləşdirmək deməkdir. Z.Freyd (1856-1939) bu anlayışı uşaq üçün əhəmiyyətli olan davranış nümunələrinin dərki proseslərini səciyyələndirən eyniləşdirmə tiplərini daxil etməklə işlətmişdir.

Sosiallaşma prosesində konkret insanın xüsusiyyətlərinin inkişafı baş verir, onun fərdiyyətçiliyi formalaşır. O, daha çox özünəməxsus, nadir, yeknəsək, təkrarolunmaz xüsusiyyət qazanır. *Fərdiyyətçilik* təkrarsızlıq mənasını verir və həmin fərdə məxsus təbii və sosial özünəməxsusluğun, onun öz qabiliyyətləri və səyləri Aləmindəki, həyat fəaliyyətindəki şəxsi münasibətlərinin təzahürüdür.

Şəxsiyyət - konkret insan olub, şüura malik, sosial inkişaf prosesində yaranan fərdilikdir. Geniş mənada sosial münasibətlərin və şüurlu fəaliyyətin subyekti olan fərd kimi başa düşülür. Dar mənada isə sistemli keyfiyyətlərə malik, ictimai münasibətlərə qoşulan, birgə fəaliyyət və ünsiyyətdə formalaşan şəxsiyyətdir.

*İnsanın sosiallaşmasında irsi və anadangəlmə xüsusiyyətlər, mühitin amilləri, özünüinkişafda, özünütəkmilləşmədə xüsusi rola malikdir.*

İnsan sosiallaşmanın həm obyekti, həm də subyekti kimi çıxış edir. Obyekt kimi ona inkişaf və özünü inkişafda, sosial təcrübənin dərk olunması prosesində əhəmiyyətli rol məxsusdur.

O, dərk olunan və dərk olunmaz xarakterdədir. İnsanın inkişafının ilkin mərhələsində (erkən yaş mərhələsi) şəxsiyyətin sosiallaşmada rolu uşağın özünütəzahürdə təbii fəallığıdır. Şüurun inkişafı ilə insanın gələcək fəaliyyətində, ünsiyyətində, özünütəkmilləşmə üzrə işində istiqamətlənmiş fəallığının əhəmiyyəti artır. Oyun, təlim, ünsiyyət, peşə fəaliyyəti hər bir yaş dövründə şəxsiyyətin özünütəzahürünü şərtləndirən amillərdir.

*İnsan həyatının müxtəlif mərhələlərində yaş dövrlərinin sosiallaşması xüsusiyyətləri.* Hər bir yaş dövrü öz imkan və xüsusiyyətlərinə malikdir. Bu imkanların tam təmini üzrə mütəxəssislərin fəaliyyəti sosial pedaqogikanın müstəqil predmetidir. Müxtəlif kateqoriyalı insanların yaş həddindən asılı olaraq onların sosial inkişafının təmin edilməsi üzrə aparılan sosial-pedaqoji işin xüsusiyyəti xüsusi bölmədə: yuvenoqogika, androqogika və heron-toqogikada öz əksini tapmışdır.

*Yuvenoqogika* (lat.sözü *Junior* – kiçik və *agoge* – rəhbərlik, tərbiyə) - pedaqogika elminin sahəsi olub, gəncliyin təlim və tərbiyəsinin nəzəri və praktik problemlərini əhatə edir. Bu sahə erkən yeniyetməlik illərində

uşağın özünü inkişafı problemlərini: gənc yeniyetmələrin vətəndaşlıq, əqli, mənəvi, əxlaqi, əmək, seksual və s. cəhətdən formalaşması xüsusiyyətlərini öyrənir.

Məktəbəqədər yaş dövründə uşağın sosiallaşması üçün səciyyəvi olan problem - ona eyniləşdirilmədə kömək etməkdir. Məktəbyaşlı uşağın, yeniyetmənin sosiallaşmasının pedaqoji aspektləri aşağıdakılardır: təlim, tərbiyə, inkişaf və peşəyönümüdür. Peşə təlimi mərhələsində (ibtidai, orta və ali) onun xüsusiyyətləri – mühitə uyğunlaşma; peşə hazırlığı; əmək fəaliyyəti vərdişlərinin qazanılması, peşə fəaliyyəti perspektivində təsdiq olunmasıdır.

*Androqogika* (lat.sözü *aner,* yiyəlik halda - *andros* – böyük, yaşlı insan və agoge – rəhbərlik, tərbiyə deməkdir) – pedaqoji elmin sahəsi olub, böyüklərin təlim və tərbiyəsinin nəzəri və praktik problemlərini əhatə edir. İnsanın əmək fəaliyyəti mərhələsində sosiallaşmasının pedaqoji aspektlərini: böyük yaşlı insanların təlim və tərbiyəsinin zəruriliyi və xüsusiyyətlərini öyrənir. Onun mühüm problemləri aşağıdakılardır: böyüklərin fasiləsiz təhsilinin, peşə, peşədən sonrakı hazırlığı, böyük yaşlı insanın yenidən hazırlığı; insanın yeni şəraitlərə uyğunlaşması (təlim sistemi, əmək kollektivi, peşə fəaliyyəti); peşə ustalığının artırılması; ümummədəni; mənəvi-əxlaqi inkişafı; onun özünütəsdiqi; ailə funksiyasının həyata keçirilməsi (ailənin formalaşması, ailə münasibətlərinin möhkəmlənməsi, uşaqların tərbiyəsi, cavan ailəyə kömək və arxa olmaq və s); əməkdən sonrakı fəaliyyətə hazırlıq kimi problemlərdir.

Böyük yaşlı insanın sosiallaşmasında özünü inkişafının, özünü təsdiqin və özünü realizə etmənin xüsusi rolu var.

*Herontoqogika* (lat. sözü *gerontos* –qoca, ahıl, *agoge* -rəhbərlik tərbiyə) – pedaqoji elmin sahəsi olub, ahıl yaşlı insanlarla qarşılıqlı münasibətlərin nəzəri və praktik

problemlərini əhatə edir. Müxtəlif kateqoriyalı yaşlı insanlarla aparılan sosial-pedaqoji işdə fərqləndirmə çox vacib şərtdir.

### 2.3. Dövlət (cəmiyyət), sosial institutlar və şəxsiyyət mövqeyindən sosial tərbiyə

«Sosial» anlayışı (lat. sözü *socialis – ictimai*) insanların cəmiyyətdəki ictimai münasibətləri mənasını verir. Mahiyyət etibarilə *sosial tərbiyə* - məqsədəyönəlmiş tərbiyəvi fəaliyyət olub, cəmiyyətdə insanların həyatı və fəaliyyəti ilə bağlıdır. Onu cəmiyyət (dövlət); sosial institutlar (ailə, təhsil müəssisələri, sosial müəssisələr, təşkilatlar) mövqeyindən, insanın özünün sosial amili kimi nəzərdən keçirmək lazımdır.

*İctimai tərbiyə, insanın istənilən cəmiyyət üçün tərbiyə edilməsi.*

**Dövlət mövqeyindən sosial tərbiyə** Bu istiqaməti dövlət- ictimai kimi adlandırmaq daha düzgündür, çünki onun həyata keçirilməsində aparıcı rol dövlətə və məktəbə məxsusdur. Bu ictimai həyatın və dövlətin özünün təkmilləşdirilməsi vasitəsidir. Böyüməkdə olan gənc nəslin tərbiyə sistemini yaxşılaşdırdıqda o da müvafiq olaraq cəmiyyətin dəyişməsini təmin edir. Cəmiyyət çalışır ki, uşaqlar öz valideynlərindən fərqli mədəniyyətin inkişafının daha yüksək zirvəsinə qalxsınlar. Hər bir təzə nəsil əvvəlkindən daha yaxşı olmalıdır.

Sosial (ictimai) tərbiyədə aparıcı rol məktəbə məxsusdur. Məktəb öz üzərinə sosial tərbiyə vəzifələrini götürərək təkcə təhsilli insanlar, işbacaran işçilər deyil, həm də ictimai işə qadir olan vətəndaşlar yetişdirir.

*İnsanın sosial ideala uyğun formalaşması.* Burada cəmiyyətin yeni insan nəsli ilə müvafiq cəmiyyət forma-

laşması nəzərdə tutulur. Bu növ sosial tərbiyənin əsasında uşağın istiqamətlənmiş sosial qüvvələrinin inkişafı, sosial ideal modeli üzrə keyfiyyətcə yeni insanın formalaşması, beləliklə cəmiyyətin dəyişdirilməsi durur.

Hələ XVIII əsrdə J.J.Russo öz əsərlərində ətraf mühitin təsiri olmadan yeni «insan» yetişdirilməsi ideyasını səsləndirdi. J.J.Russonun «yeni cins» insanlar formalaşdırılması nəzəriyyəsinin qüsuru uşağın toplamış olduğu şəxsi təcrübəsini sosial təcrübə ilə birləşdirə bilməməsidir. O, məhdud sosial tərbiyəni təklif edirdi.

1920-ci illərdən başlayaraq sosial tərbiyə vasitəsilə yeni tip insan – yeni cəmiyyət qurucuları formalaşdırılması məsələsi ortaya qoyulurdu. Belə tərbiyə sinfi, partiyalı xarakterdə olub, onun idealı hərtərəfli harmonik inkişaf etmiş insan idi. O, həm böyüməkdə olan gənc nəslin istiqamətlənmiş tərbiyəsini, həm müəyyən tip insanın yaranması, həm də böyüklərin yenidən tərbiyəsini (ailə üzvləri, əmək və şagird kollektivlərinə və s.) nəzərdə tuturdu. Sosial tərbiyənin sovet cəmiyyətində həyata keçirilməsi üçün müvafiq institut və akademiyalar fəaliyyətə başladı. Dövlət institutları vasitəsilə müxtəlif kateqoriyalı insanların formalaşmasına fəal təsir təmin edilirdi.

Başqa ölkələrin xalqlarına müəyyən mənəvi dəyərlərin, ideallarin, həyat tərzinin məcburən qəbul etdirilməsi və təbliği də tarixən mövcud olmuşdur. Belə məcburilik kütləvi informasiya vasitələri, qeyri-dövlət müəssisələri, təşkilatları vasitəsilə və həmin idealları, dəyər və həyat tərzini qəbul etmiş ayrı-ayrı şəxslər və emissarlar tərəfindən həyata keçirilmiş və keçirilir. Bu münasibətlərin kökləri orta əsrlərə gedib çıxır. O zamankı dinin təbliği ilə, islamın və xristianlığın təbliği ilə məşğul olan emissarların fəaliyyəti genişlənərək həyata keçirilirdi. Bu təkcə sözlə yox, çox zaman silah gücü ilə edilirdi. Bu məqsədlə müxtəlif birliklər, cəmiyyətlər yaradılırdı.

Müasir şəraitdə bu iş öz əksini kütləvi informasiya vasitələrində, müxtəlif emissarlar vasitəsilə, ictimai hərəkat və təşkilatlar vasitəsilə təbliğ edilən Amerika həyat tərzində, yabançı ideal və dəyərlərdə, dünyanın müxtəlif ölkələrinin dini təlimlərində tapır. Buna misal olaraq respublikamızda fəaliyyət göstərən «Soros» Açıq tipli cəmiyyətin, müxtəlif dini cərəyanların (təriqətlərin) apardığı işləri misal göstərmək olar. Onlar bir çox hallarda insanların şüuruna, davranışına, səhhətinə, həyat tərzinə, maddi durumuna pozücü təsirlər göstərirlər. Bir çox inkişaf etmiş ölkələrdə belə təşkilatların fəaliyyətinə qadağalar qoyulmuşdur.

**Sosial institutlar mövqeyindən sosial tərbiyə**

Dövlət (cəmiyyət) böyüməkdə olan gənc nəsildə şəxsiyyət formalaşmasına, tərbiyənin sosial vəzifələrinə tələblər müəyyən edir. Bu tələblər bilavasitə tərbiyəçilərə, sosial institutlara və insanın özünə verilir. Məhz onlar şəxsiyyətin formalaşmasının sosial məsələlərini həll edirlər. Hər bir sosial institut sosial-tərbiyə sahəsində cəmiyyətin tərbiyəvi fəaliyyətini xarakterizə edir. O, ümumi, xüsusi və spesifik sosial-tərbiyə məsələlərini həll edir. Sosial institutlar mövqeyindən sosial-tərbiyədə aşağıdakı istiqamətlər seçilir:

- rəsmi dövlət tərəfindən şərtləndirilən normativ tərbiyə. Hər bir institut cəmiyyətdə bərqərar olmuş dövlətin qanunları, normaları, qaydaları və ənənələrini əlində rəhbər tutur, insanları bu cəmiyyətdəki həyat üçün hazırlayır. O, sosial-tərbiyə məsələlərini öz üsul və vasitələri ilə həll edir;
- sosial statusla müəyyən edilən, müəssisənin, təşkilatın, hərəkatın təyinatı üzrə sosial şərtlənmiş tərbiyə. Bu tərbiyə tərbiyə olunanda şəxsiyyəti digərlərindən fərqləndirən, onu sosial özünəməxsusluqla tamamlayan, peşə məsələlərini mühüm sosial keyfiyyətlərlə həll etməyə

imkan verən mentalitetin formalaşmasına yönəldilir. Məs: müəllim, həkim, sosial pedaqoq, sosial işçi, hərbi qulluqçu və s. Burada söhbət insanların müəyyən sosial statusu, sosial yönümünün formalaşmasından gedir.

- xüsusi (spesifik) sosial tərbiyə. Bu tərbiyə məhz həmin mühitə (ailəyə, təşkilata, müəssisəyə) məxsusdur. Belə tipə müəyyən sosial ideal, model üzrə tərbiyə, uyğun sosial tip şəxsiyyətin formalaşmasına aiddir. Belə tərbiyə mənəvi-psixoloji iqlim, qayda, prinsiplər, yaradılmış ənənələr, tərbiyə fəaliyyəti təcrübəsi, tərbiyə prosesini təmin edən nüfuzlu şəxsiyyətlərlə formalaşan insanın sosial qabilliyini müəyyən edən və s. şərtlənir.

Ailədə belə tip sosial-tərbiyəni müəyyən sosial ideal üzrə valideyn tərbiyəsi kimi adlandırmaq olar. Hər bir valideyn öz uşağının tərbiyəsi məqsədləri barədə düşünür. Onlar bunu müxtəlif cür həll edir, çox zaman dar xudpəsəndlik çərçivəsində, oğul və ya qızının yaşayacağı gələcəyi öz-özündə təsvir etməklə, orada günəş şüaları altında isti sığınacaq axtarmaqla özünün bütün qüvvələrini elə tərbiyəyə yönəldir ki, uşağı orada özünə bir yer tapa bilsin.

Lakin bu gələcək onlar tərəfindən müxtəlif cür qurulur, məs: oğulu elə tərbiyə etmək lazımdır ki, o, «gələcəkdə parlasın», mühəndis, alim və s. olsun.

Ailənin, müəssisənin özünəməxsus mühiti bəzən şəxsiyyətin sosial cəhətdən zərərli formalaşmasına səbəb olur ki, bunun nəticəsində o, küçənin, zərərli insanların tərbiyə obyektinə çevrilir. Bu halda xüsusi dövlət müəssisələrinin fəaliyyəti küçə və ailə tərbiyəsi nəticələrinin yenidən tərbiyəsinə (təshihinə) yönəldilir.

Sxem 2


Başqa ölkələr, hərəkatlar
Dövlət
Cəmiyyət
Vətəndaş tərbiyəsi
Yeni insanın formalaşması
İctimai tərbiyə, sosial cəhətdən fəal şəxsiyyətin formalaşdırılması
Həyat tərzinin formalaşması
Sosial institutlar (ailə, müəssisələr və s.
İctimai tərbiyə
Sosial yönümlü tərbiyə
Sosial ideal əsasında tərbiyə
Xüsusi sosial tərbiyə
Sosial tərbiyənin (yenidən tərbiyə, təshih) dəyişdirilməsi
Uşaq, yeniyetmə
Sosial özünü tərbiyə
Özünü təkmilləşdirmə

İstiqamətlənmiş sosial tərbiyə fəaliyyəti xüsusi ehtiyacı olan uşaq və yeniyetmələrə aiddir. Burada insanın şəxsi-sosial problemləri, onun həyat fəaliyyəti mühitinin imkanları, uyğun sosial tələbatları nəzərdə tutulur. Hər bir konkret halda öz sosial tərbiyəvi məqsədləri və onların əldə edilməsi üsulları meydana çıxır.

Sxemdə göstərilənlər sosial tərbiyənin müxtəlif tiplərini (istiqamətlərini) xarakterizə edir. Başqa sözlə, sosial tərbiyə onun istiqamətinin kim tərəfindən müəyyən edilərək həll olunduğundan asılı olaraq mühüm istiqamətli kompleks tərbiyə fəaliyyətini özündə əks etdirir.

## 2.4. İnsanın sosial inkişafının mənbələri və hərəkətverici qüvvələri

Dünyaya göz açdığı andan insan inkişaf edir, formalaşır, şəxsiyyətə çevrilir. Sosial inkişaf üçün o, əhəmiyyətli dərəcədə potensiala və onun həyata keçirilməsi mexanizmlərinə malikdir.

Uşağın fərdi imkanları mühüm mənbələr və onların hərəkətverici qüvvələri ilə müəyyən edilir. Bunlar da öz növbəsində insanın sosial inkişafı və tərbiyəsininin şərti kimi çıxış edir.

*Mənbələr* - insanın sosial inkişafı üçün qida verən və əsas olanlardır. Onlar iki cürdür: *daxili* – yeni doğulanlara xasdır və *xarici* – bunlar əsasında insanın daxili sosial asılılığının realizə edilməsi baş verir.

*a) İnsanın inkişafının daxili mənbələri.* Sosial inkişafın daxili mənbələrinə aşağıdakılar aiddir: insan dünyaya göz açarkən aldığı və həyat fəaliyyəti prosesində qazandığı qabiliyyət və imkanların potensialıdır. Hər bir uşaqda sosial inkişaf üçün fərdi potensial əhəmiyyətli dərəcədə olur. Uyğun şəraitdə inkişaf edərək insan şəxsi planda o səviyyəni əldə edir ki, ona potensial olaraq meyllidir, ona qadirdir. Problem konkret uşağın bütövlükdə, bu və ya digər şəraitlərdə (evdə, uşaq bağçasında,

məktəbdə) sosial inkişafının hansı səviyyəyədək çatmasındadır.

*İnsanın inkişafında bioloji, fizioloji, psixoloji və sosial amillərin qarşılıqlı əlaqəsi və bir-birindən asılılığı.* İnsanın bioloji, fizioloji və ya psixi inkişafındakı ləngimələr sosial inkişafda da özünü göstərir və ya əksinə. Məlumdur ki, mauqlilər çox yaşamır. Başqa sözlə, erkən yaş dövründə fəal sosial inkişafı üçün imkan olmadıqda insanın həyat dövrü öz həmyaşıdları ilə müqayisədə qısa olur. Sosial planda gecikmələr uşağın psixi inkişafına da xüsusi təsir göstərir. Buna valideyn himayəsindən məhrum olmuş, uşaq evlərində, internat məktəblərdə tərbiyə almış uşaqların, şəxsiyyətlərin formalaşmasının nəticələri sübutdur. Buradan da belə nəticəyə gəlmək olur ki, insanın psixi və sosial inkişafı bir-birilə sıx əlaqəlidir.

*Hiss üzvləri, onların inkişaf səviyyəsi.* Hiss üzvlərinin köməyi ilə uşaq həyat fəaliyyəti mühitini dərk edir. Bu zaman o, zənginləşir və formalaşır. Uşağın ətraf aləmi dərk etməsinin özünəməxsusluğunu xarakterik olaraq onun inkişafı, hərəkətləri və davranışının uyğunluğu ilə müəyyən etmək lazımdır. Hiss üzvlərinin formalaşma quruluşundakı çatışmamazlıqlar uşaq üçün həyat fəaliyyəti mühiti ilə qarşılıqlı təsirdə, onun öyrənilməsində müəyyən çətinliklər yaradır. Bu zaman onun mühiti qavraması fərdi xarakterdə olub, onun hiss üzvlərinin səviyyəsi və xüsusiyyətləri ilə şərtlənir. Məs: kor uşağa rənglər, işıq anlaşılmazdır. Lakin səslərin ahəngi, istilik və s. duyumu daha güclüdür. Bu amil uşaqda öz həmyaşıdlarından fərqli xüsusi qayğı ilə sosial inkişafını, onun təzahürlərini müəyyən edir. Hiss üzvləri öz inki-şafında çox dinamikdir. Erkən yaşdan onlar məqsədyönlü inkişaf edərsə, yüksək səviyyəyə çatar və ya əksinə. Bu və ya digər üzvün potensialının realizə edilməməsi onun fəaliyyətinin sönməsinə gətirib çıxara bilir.

*Anadangəlmə reflekslər.* Məhz bu reflekslər uşağın həyat fəaliyyətinə dayaq olub, sosial inkişaf və tərbiyə prosesində özünü təzahürə, öz fərdi imkan və tələbatlarını realizə etməyə ona imkan verir.

*b) Uşağın inkişafının xarici mənbələri.* İnsanın sosial inkişafı və tərbiyəsində stimul yaradanlara onu əhatə edən hər nə varsa, nə ilə bilavasitə və bilvasitə qarşılıqlı təsirdədirsə onu aid etmək olar. Mikrosəviyyədə – bu konkret qruplardır ki, burada şəxsiyyət norma və dəyərlər sistemini mənimsəyir və bu qruplar sosial təcrübənin özünəməxsus ötürücüsü kimi çıxış edirlər: ailə, məktəb, əmək kollektivləri, qeyri-formal qrup və birləşmələr, ayrı-ayrı şəxslər. Bu mərhələdə bütün əşyalar - oyuncaqlar, oyunlar, mebellər, əşyalar və s. mühüm əhəmiyyət kəsb edirlər ki, onlarla uşaq həm qarşılıqlı təsirdə olur, həm də onlar vasitəsilə ətraf mühiti dərk edirlər.

Mezosəviyyədə – bunlar kütləvi informasiya və ünsiyyət vasitələri, mətbuat, radio, televiziya, incəsənət, ədəbiyyat və s.-dir. Onlar bir çox hallarda uşağın maraqlarını, onun mənəvi dəyər və ideallarını, dünyanı və ətrafda baş verən hadisələrin ümumi halda necə qavramasını müəyyən edir.

**İnsanın sosial inkişafının hərəkətverici qüvvələri**

*Hərəkətverici qüvvələr* - mühüm amillərdən biri olub, insanın sosial inkişafı, tərbiyəsi və təliminin potensial mənbələrinin realizə edilməsini təmin edir. Onlar *daxili* və *xarici* olmaqla iki yerə bölünür.

*Daxili hərəkətverici qüvvələr* – uşağın şəxsi potensialının realizə edilməsini təmin edir ki, bunlar yalnız insana xas olur və sosiallaşma prosesində onlara dərk olunan və dərkolunmaz biopsixi mexanizmlər aiddir.

*İnsanın inkişafının dərkolunmaz mexanizmləri:* onlar insanda anadan gəlmə olan fizioloji və psixi imkanlarla şərtlənir. Bu mexanizmlərin səciyyəvi xüsusiyyəti ondan

ibarətdir ki, onlar şüuraltı səviyyədə fəaliyyət göstərir və insanın psixoloji və sosial inkişafına əhəmiyyətli təsir göstərir. Onların rolu erkən yaşlarda daha güclüdür. Bu dövrdə müxtəlif sahələrdə onun inkişaf dinamikası, realizə olunma perspektivləri əhəmiyyətlidir. Yaşa dolduqca onların əhəmiyyəti dəyişir, lakin insanın ömrünün sonunadək itmir.

İnsanın dərkolunmaz mexanizmlərinin fəaliyyətini təmin edən hərəkətverici qüvvələrə aşağıdakılar aiddir:

1. Erkən yaş dövründə uşaq ən çox o adamlara meyl göstərir ki, onlarda özünün daha çox tələbatı və müdafiəsini hiss etsin – bu anadır ki, körpəyə daha çox diqqət yetirir. Bu isə zaman ötdükcə arta və ya azala bilər.

Azalma müəyyən əşyaya zərərli təsirin nəticəsində baş verir. Məs: uşaq ananın nəzərindən qaçaraq istilik sobasına doğru getdikdə ona toxunur, özünü yandırır və qorxur. Gələcəkdə şüuraltıda qorxu reaksiyası və sobadan qorxma hissi yadda qalır.

2. Uşağın emosional yoluxması ( *empatiya* - yunan sözü *en* - sözönü, mənası - daxildə yerləşən, nəinsə sərhəddində və *pathos* –hiss, həyəcan - başqasının psixoloji vəziyyətinə yanaşmaq deməkdir. Bu uşaqda çox erkən yaranır. Körpənin birinci ayında müşahidə olunur ki, körpəyə yaxınlaşan ananı (və ya onu əvəz edəni) körpə gülərüzlə qarşılayır. Tədricən ananın (və ya onu əvəz edənin) emosional hissləri onun orqanizminə ötürülür.

3. Uşağın fəallıq və məqsədəyölmişlikdən emosional asılılığı. Körpənin diqqətə və qayğıya ehtiyacı var ki, bu da onun emosional asılılığını saxlamağa və möhkəmlətməyə kömək edir. Belə fikir də hökm sürür ki, uşağa hədsiz qayğı da pis nəticə verir. Belə uşaqlarla həm ətrafdakılar, həm sosial əhatə, həm tərbiyəçilər, həm həmyaşıdları və həm özü də əziyyət çəkmiş olur.

4. Yamsılama. Uşağa, digər başqa canlılar kimi yamsılama xasdır. Onunla uşaq dərk etmədən ilkin sosial təcrübəni: nəyə isə münasibət, hərəkət, davranış normaları və s. mənimsəyir. Hər gün onunla ünsiyyətdə olanları - ananı (və ya onu əvəz edən şəxsi), bacını (qardaşı), nənəni yamsılamaqla uşaq onların davranış tərzini, intonasiyasını, yerişini, xarakterlərinin özünəməxsusluğunu mənimsəyir. Oğlanlar bir çox hallarda öz atalarını, qızlar analarını yamsılamağa cəhd edirlər. Bağça uşaqlarını, ibtidai sinif şagirdlərini müşahidə etdikdə buna tam əmin olmaq olur. Çox zaman ibtidai sinif müəllimləri valideynləri uşaqların davranış tərzi, nitqi ilə tanıya bilir. Onların uşaqları xarici təzahürləri ilə öz valideynlərini tam xatırladırlar. Yamsılama uşağın inkişaf mexanizminin mühüm mühərriki kimi çıxış edir. O, çox tez-tez ana və ya atasının etdiyi fəaliyyətə qoşulur: özü müstəqil geyinməyə, döşəməni silməyə, qabları, paltarları yumağa və s. etməyə çalışır. Belə fəaliyyət uşağın inkişafında əhəmiyyətli potensial rola malikdir.

5. Təlqinetmə - erkən yaşlarda uşağın hərəkət və davranışında, onun müxtəlif hadisələrə münasibətində, nəyə isə reaksiya verməsində və s. əhəmiyyətli bir idarəçidir. Ən üstün təlqinedici qüvvə uşaq üçün nüfuzu olanlardır. Erkən yaşlarda - daim onun yanında olan anadır (onu əvəz edəndir). İllər ötdükcə bu «avtoritet» dəyişir və əvəz olunur. Oğlanlar üçün ata və ya böyük qardaş; qızlar üçün – ana və ya böyük bacı olur. Birincilər üçün isə çox zaman ibtidai sinif müəllimi olur.

Təlqinlik hissi insanda bütün ömrü boyu qalır. Onun gücü müəyyən hədd daxilində arta və ya azala bilər. Hissə qapılan insanların sosial inkişafında onun təsiri xüsusi əhəmiyyətə malikdir.

6. Sosial ünsiyyətə tələbat insanda anadangəlmə yaranır və ondan həzz almağa yönəlir. Məhz ailədə

bunun üçün böyük imkanlar mövcuddur. Ana körpəsi ilə ilk gündən ünsiyyət yaratmaqla onda bu tələbatın inkişafını tənzimləyir.

Təsadüfi deyildir ki, doğulandan sonra körpəni annaya tez-tez vermək tövsiyə edilir ki, o öz körpəsini əlinə alıb özünə sıxsın. Bununla ananın uşağı ilə ünsiyyətinə qarşılıqlı fizioloji və sosial tələbatı güclənir. Bu tələbatın realizə edilməməsi uşağın sosial inkişafında özünü göstərir. Bu amilin təsirini valideyn himayəsindən məhrum olmuş uşaqların nümunəsində görmək olar.

7. Ünsiyyətə tələbat kimi hər şeyə maraq göstərmək, hər şeyi bilmək istəyi də insanın sosial inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu tələbatlar sıx qarşılıqlı əlaqəli olub, bir-biri ilə bağlıdır. Hər şeyə mAraq – yeni olan hər nə varsa onu dərk etməkdir. Uşaq üçün onu əhatə edən hər şey yenidir. İllər ötdükcə bu hiss ötüb keçmir. O, daha böyük özünəməxsusluq qazanır. Uşaqda marağın lazım olan həcminin qane edilməməsi onun sönməsinə gətirib çıxarır ki, bu da uşağın sosial inkişafında özünü göstərir.

8. Fəallıq uşağa doğulan andan xasdır və hər gün, hər ay o, yeni məzmun və istiqamət alır. O, sosial özünü inkişafın intensivliyini şərtləndirir, fəallığın təzahür sahəsi onun istiqamətliliyidir. Fəallıq uşağın ümumi davranış dinamikasında təzahür edir, bütövlükdə onun orqanizminin formalaşmasına xidmət edir.

Mütəxəssis rəyləri sübut edir ki, uşağı möhkəm bələmək, onu bürümək onun fəallığını ləngidir. Onun inkişafına mane olur. Dərkolunmaz mexanizmlərə insan üçün xarakterik olan digər hadisələri də aid etmək olur. Toplum halında onlar insanın sosial inkşafının tamlığına xidmət edir.

*Dərkolunan mexanizmlər* insanın sosial inkişafının dərkolunmaz mexanizmləri ilə sıx bağlıdır. Onlar insanın

yaş həddi nəzərə alınmaqla şüurunun artan rolu ilə bağlı olub, onun sonrakı inkişafı, tərbiyəsi və təlimi ilə şərtlənir. Dərkolunan mexanizmlər həmçinin insanın fəal psixoloji və sosial inkişafına təsir edir. İnsan yaşa dolduqca özünü təkmilləşdirmədə onların rolu artır.

Dərkolunan mexanizmlərə aşağıdakıları aid etmək olar.

1.İnsanın şüuru ilə bağlı olanlar:

a) İnsan şüurunun inkişafı. Bu prosesin ilkin mərhələsində şüurun inkişafı dərkolunmaz mexanizm vəzifəsini yerinə yetirir. Bu dövrdə dərkolunmaz «özüfəallıq» özünə yer tapır. Yaş ötdükcə şüurun inkişafı dərkolunan hərəkət və əməllərdən çox asılı olur. Fikri fəaliyyət insanın şüurunun gələcək inkişafına çox kömək edir.

b) Emosional qavrama hissi insanın elə qüvvəsidir ki, onun fərdi imkanlarını, iradi səylərini fəallaşdırır, istiqamətlənmiş sosial inkişafına xidmət edərək ona emosional həzz verir.

c) İradə, iradi fəallıq insanın sosial inkişafı və tərbiyəsinin dərkolunan mexanizmlərinin mühüm hərəkətverici qüvvələrindəndir. Uşağın işığa, təzə nəyə isə meyl etməsi, öz səviyyəsində təbii tələbat kimi, şüuraltı kimi təzahür edir. Tədricən bunlar onun özüinkişafını tənzimləyən iradi əsasların, dərkolunan mənbələrin yaranmasına xidmət edir. İllər ötdükcə insanda iradi keyfiyyətlərin bütöv bir toplumu yaranır ki, bunlar da onun istiqamətlənmiş özüinkişafının fərdi imkanlarını təmin edir. Bu keyfiyyətlərin toplumu, onların inkişafı, təzahürü və insan şəxsiyyətinin özüinkişafına təsiri xüsusilə fərdidir.

2. Şüurun inkişafı ilə bağlı olan dərkolunan mexanizmlər aşağıdakılardır:

a) İnkişafa (sosial inkişafa) xüsusi meyllilik. Bu çoxəsrlik insan təkamülünün, onun şüurunun inkişafının

nəticəsidir. Belə meyllilik üstün qüvvə olub, ünsiyyətin ən minimal şəraitlərində uşağın sosial inkişafına kömək edir.

b) İnsan şüurunun inkişaf səviyyəsi sosial perspektivin əsasıdır. İnsan həyatı boyu öz inkişafında, əvvəllər sosial inkişafda aldıqlarını atır, yeniləri üçün sürət toplayır. Günbəgün, ilbəil uşaq müəyyən keyfiyyət səviyyələri əldə edir.

3. İntellektual tələbat, arzu, maraq, səy, məqsəd və ideallar. Bütün bunlar insanın sosial inkişafa intellektual meylliliyini müəyyən edir. O, yaş ötdükcə formalaşır və insanı intellektual axtarış, sosial özünüinkişaf, özünütəkmilləşməyə səyini yönəldir. İntelktual meyllilik hər bir insanda fərdidir, özünəməxsusdur. O, daimi olmayıb, yaş ötdükcə dəyişir, insanın əqli və fiziki fəaliyyətə və müvafiq inkişafa meylliyi bundan asılı olur.

4. Özünütənqid, özünüidarə. Özünə belə münasibət insana xas olub, illər boyu özünüdərkin inkişafı ilə formalaşır. İnsan heç də etdiyi hər şeyə, nəyi necə etməyə və onun özünün və fəaliyyətinin necə qiymətləndiriləcəyinə biganə qalmayır. Özünütənqid uşağa özünütəkmilləşmədə qazandığı nəticələrin əldə olunmasında öz qabiliyyətini qiymətləndirməyə kömək edir.

Dərkolunan mexanizmlərə insana xas olan digər təzahürləri də aid etmək olar.

İnsanın sosial inkişafının bütün daxili hərəkətverici quvvələri (dərkolunan və dərkolunmaz mexanizmləri) arasında möhkəm qarşılıqlı əlaqə, asılılıq və qarşılıqlı tamamlama mövcuddur. Onların bu özünəməxsusluğu nəzərə alınmazsa, insanın daha düzgün istiqamətli və intensiv fərdi və fərdi təshihedici inkişafı və tərbiyəsini təmin etmək mümkündür. Eyni zamanda xarici mənbələrin və hərəkətverici qüvvələrin də qarşılıqlı əlaqəsinin insanın sosial inkişafı və tərbiyəsində rolu danılmazdır.

*Uşağın potensialının realizə edilməsini təmin edən xarici hərəkətverici qüvvələr.* Xarici hərəkətverici qüvvələr- insanın sosial inkişafı və tərbiyəsinin daxili hərəkətverici qüvvələrini tənzimləyir, fəallaşdırır və ya ləngidir. Onların insanın sosial inkişafında xüsusi yeri var. Onların köməyi ilə bütün sosial inkişaf və tərbiyə prosesini istiqamətləndirmək, idarə etmək mümükündür. Bunlara:

a) Erkən yaş dövründə uşağa mühitin təsiri; uşağa qulluq; həyat fəaliyyəti və tərbiyə mühiti; uşağın həyatının ilk illərində düşdüyü və onun inkişafına əsaslı təsir göstərən kollektiv və qruplar; uşaq üçün fikri və ya fəaliyyəti mühüm əhəmiyyətə malik olan ayrı-ayrı şəxsiyyətlər; xüsusi tərbiyəni aid etmək olar.

Uşağa qulluq valideynlər tərəfindən və ya onları əvəz edən ayrı-ayrı şəxslər tərəfindən uşağın həyat fəaliyyəti şəraitinin daha optimal təmin edilməsi məqsədilə həyata keçirilir. Mahiyyət etibarilə bu uşağın həyat şəraiti, yəni - onun yatdığı, oynadığı otaq, onun sanitar-gigiyenik şəraiti; qidalanması; gün rejimi; fiziki tapşırıqlar; möhkəmləndirilməsi; gəzintilər və s.-dən ibarətdir. Düzgün qurulmuş həyat şəraiti, tərzi uşağın sağlam böyüməsinə, inkişafına kömək edir.

*Həyat fəaliyyəti və tərbiyəsi mühitinə*: ailə, dövlət müəssisələri (uşaq evi, internat və s.), təhsil müəssisələri, o cümlədən xüsusi müəssisələr (uşaq bağçası, məktəb, ali məktəb), küçə aiddir. Hər bir mühit amili üçün tipik şəraitlər səciyyəvidir. Bu şəraitlər uşağın sosial inkişafı və tərbiyəsinə əsaslı təsirə malikdir.

Ailə elə mühitdir ki, burada uşaq şəxsiyyəti formalaşır. Ondakı hər şey uşağa təsir göstərir: mikromühit, qarşılıqlı münasibətlər, ailə üzvlərinin uşağa münasibəti, maddi durum və s. Ailə uşağa qulluqda özünəməxsusluğunu müəyyən edir, hər zaman və hər şeydə onu

yamsılamaq üçün nümunə olur, ilkin sosial ünsiyyətə olan tələbatın realizə olunmasında, maraqların qane edilməsində və hər şeyi bilməkdə ona kömək edir.

*Mühit kollektivləri, qruplar.* Söhbət o qruplardan gedir ki, bura uşaq öz inkişafı prosesində düşür və uşağa onlar əsaslı surətdə təsir göstərir. Bunlara: uşaq bağçası qrupu, məktəb, əmək kollektivləri, bilavasitə qarşılıqlı təsirdə olan həmyaşıdlar qrupu, qeyri-formal qruplar və birləşmələr aiddir. Bu qruplarda uşağa: qrupda yaranmış mikromühit, uşağın şəxsi təşəbbüsü, ictimai fikir, qarşılıqlı kömək və arxa, əhvali-ruhiyyə və s. təsir göstərir. Belə qruplar uşaq üçün həm əlverişli ola bilir, onun özünütəzahürünü stimullaşdırır, yəni bitərəf qalaraq, fərq qoymadan, özü istədiyi kimi; həm də aqressiv, şəxsiyyəti sıxan və ona özünü, öz imkanlarını realizə etməyə imkan verməyən də ola bilir.

*Fikri və ya fəaliyyəti uşaq üçün böyük əhəmiyyət kəsb edən ayrı-ayrı şəxsiyyətlər.* Hər bir insanın həyatında elə şəxslər olur ki, onun özünütəzahüründə, fəallığında, yaradıcı özünütəkmilləşdirmədə ona böyük təsir göstərə bilir. Bu ya valideynlərdən biri, böyük qardaş (və ya bacı), nənə (baba), qohum, müəllim, tərbiyəçi, həm də kino və ya kitab qəhrəmanı, yoldaş (böyük yoldaş) və s. ola bilir. Uşağa belə şəxsin təsiri müxtəlif - müsbət və ya mənfi ola bilər. Məhz bu fakt uşağı kimlərin əhatə etdiyi və ona necə təsir göstərdiyini bir daha sübut edir.

*Tərbiyə* - tərbiyəçilərin fəaliyyəti (valideynlərin, onları əvəz edənlərin, məktəbəqədər müəssisələrin tərbiyəçilərinin, müəllimlərinin) olub, uşaqda müəyyən keyfiyyət, xüsusiyyət, cəmiyyətdə qəbul olunmuş sosial norma və qaydalar, ona uyğun davranış adətləri, uyğun həyat tərzinin formalaşmasına yönəlir.

Son nəticədə tərbiyə mahiyyətcə uşağın fərdiliyini nəzərə almağa, ətraf mühitlə hesablaşmağa, uşağın in-

kişafı və tərbiyəsi prosesinin idarə olunmasında ondan istifadə edilməsinə yönəlir.

Təcrübə sübut edir ki, uşağın inkişafı prosesində onun sosial formalaşmasındakı əyintilərə səbəb tərbiyə prosesində yol verilmiş elə səhvlərdir ki, onlara ailədə, tərbiyə müəssisəsində yol verilir. Tərbiyə nəticələrinin düzəldilməsi çox çətin olub müvafiq səyləri tələb edir.

*Mühit* - mezosəviyyədə bilavasitə və bilvasitə uşağa kütləvi ünsiyyət vasitələri - mətbuat, radio, televizor, incəsənət, ədəbiyyat və s. İlə təsir göstərir.

İlk növbədə kompyüter və televizoru xüsusi qeyd etmək lazımdır ki, onlar həm uşağı, həm də onun inkişaf prosesini zənginləşdirə bilər. Və ya əksinə bunlar onun şəxsiyyətinə mənfi təsir edər, bərkiməmiş şüura təsir edərək qorxu hissi yarada bilər, mənfi emosional təzahürlər oyada bilər, qəddar, vəhşi hərəkətlərə və s. təkan verə bilər.

Bu dəlil onu tələb edir ki, uşaqda televizora maraq oyatdıqda ona hansının uşaq verilişi, hansının valideynlər üçün olduğunu başa salmaq vacibdir. Qadağalar uşağa pis təsir göstərir, burada çox böyük həssaslıq və mədəni, tərbiyəvi qarşılıqlı təsir zəruridir.

Kompyüter isə özünün məlumatvericilik imkanları ilə, uşağın onunla qarşılıqlı təsirdə olması ilə əsaslı tərbiyəedici təsirə malikdir. Kompyüter insanın texnika ilə elə təmasına imkan yaradır ki, burada uşaq təkcə məlumat almır, həm də onun fəal iştirakçısı olur. Uşağın kompyüterlə nəzarət olunmayan və mütəmadi, uzunmüddətli qarşılıqlı təsiri çox ciddi zərərli təsirə malikdir ki, bu da ondan zaman müddəti həddində istifadəni tələb edir.

Kompyüter zərərli təsirlə yanaşı, həm də özünün müsbət, xeyirli imkanlarından müxtəlif istiqamətlərdə istifadəsi üçün geniş şərait də yaradır: müasir elektron

texnikası ilə davranma vərdişlərinə yiyələnməyə; məhdud imkanlı insanların ətraf mühitlə bilavasitə təmasını yaratmaqla geniş və hərtərəfli məlumatı toplamaq; məlumatverici və inkişafetdirici məlumatların vasitəsilə uşağın istiqamətlənmiş inkişafına; xüsusi proqramlardan istifadə ilə müəyyən patoloji təzahürlərin aradan qaldırılmasına imkan yaradan xüsusi bərpasının həyata keçirilməsinə; uşaqla peşəyönümü işini aparan kompyüter texnologiyası biliyini tələb edən gələcək iş fəaliyyətinə hazırlayır.

İnsanın sosial inkişafının bütün daxili və xarici qüvvələri arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Onlar bu prosesdə bir-birini qarşılıqlı surətdə tamamlayır. Uşağın bir istiqamətdə inkişafının onun digər istiqamətdə inkişafına təkan verməsi səciyyəvidir.

## 2.5. İnsanın sosiallaşmasında meqaamillərin, makroamillərin, mezoamillərin və mikroamillərin rolu

İnsanın sosiallaşmasında bir çox amillərin rolu mühümdür. Bunlar qruplaşdırılaraq meqaamillər, makroamillər, mezoamillər və mikroamillər kimi nəzərdən keçirilir (A.Mudrik). Hər bir qrupun özünəməxsusluğunu izah etmək üçün bu qrupa daxil olan amilləri təxminən belə təsvir etmək olar: **meqamiilər** - kosmos, planet, dünya; **makroamillər** – ölkə, etnos, cəmiyyət, dövlət; **mezoamillər** – region, şəhər, kənd, qəsəbə, kütləvi kommunikasiya vasitələri; **mikroamillər** - ailə, qonşuluq, həmyaşıdlar qrupu, tərbiyə təşkilatları.

***Kosmos*** (və ya Kainat) və onun Yer planetindəki insanlara təsiri problemləri ta qədimdən mütəfəkkirlərin diqqətini özünə çəkmişdir. Lakin təbiət elmləri nümayəndələrinin böyük əksəriyyəti hələ bu günədək insan həyatının kosmik təsirlərdən asılılığı ideyasına şübhə ilə

yanaşırlar. Tarix boyu yaranmış müxtəlif təlim və nəzəriyyələrin müəllifləri və ardıcılları kainatın insan cəmiyyətinin və hər bir insanın həyatına güclü təsir mənbəyi olduğunu israr etmişlər.

Yeni biliklərin toplumu kosmosu məzmunca sosiallaşmanın meqaamili kimi səciyyələndirməyə imkan verir. Şübhə yoxdur ki, yaxın gələcəkdə insanın xarakterinin və həyat yolunun kosmik təsirlərdən asılılığı aşkar ediləcək və bu da insanın tərbiyəsinə fərdi yanaşmanın təbii əsaslarından biri olacaqdır.

***Planet*** – astronomik anlayış olub, göy cismi, formaca şara, kürəyə oxşar, günəşdən işıq və istilik alan və elliptik orbitlə onun ətrafında fırlanan mənasını verir. Ən böyük planetlərdən birində – Yerdə tarixi inkişaf prosesində insanların müxtəlif formalı sosial həyatı yaranmışdır.

*Dünya – sosial-siyasi anlam olub, bizim planetdə mövcud olan insan birliyi məcmusu mənasını verir.*

Planet və dünya üzvi olaraq bir-biri ilə qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdır. Dünya – digər planetlərdən fərqli olaraq Yer planetində təbii-iqlim şəraitlərində yaranmış və inkişaf etmişdir. Öz inkişafı prosesində dünya daim planetin vəziyyətinə təsir göstərmişdir. XX yüzillikdə bu təsir daha da qabarıq, qlobal planetar-dünyəvi proses və problemləri yaradaraq: ekoloji (ətraf mühitin və s. çirklənməsi), iqtisadi (ölkə və kontinentlərin inkişaf səviyyəsi arasında olan uyğunsuzluğun artması), demoqrafik (əhalinin hər hansı bir ölkədə nəzarət olunmayan əhali artımı və digər ölkələrdə onların sayının azalması), hərbi-siyasi (regional münaqişələrin sayının və təhlükəsinin artması, nüvə silahının yayılması, siyasi sabitsizlik) kimi özünü büruzə vermişdir.

Bu və ya digər problem və proseslər böyüməkdə olan gənc nəslin sosiallaşmasına birbaşa və bilavasitə təsir göstərir.

İnsanın sosiallaşmasında makroamillərdən ölkə, cəmiyyət və dövlətin də rolu böyükdür.

√***Ölkə*** – coğrafi fenomendir. Bu, *coğrafi vəziyyətinə, təbii şəraitinə görə ayrılmış, müəyyən sərhədləri olan ərazidir.*√ O, dövlət suverenliyinə malik olur. Başqa ölkənin rəhbərliyi altında və bir ölkənin ərazisində bir neçə dövlət ola bilir (parçalanmış Almaniya, Çin, Azərbaycan, Koreya).

Bu və ya digər ölkənin coğrafi və təbii-iqlim şəraiti müxtəlif olub, sakinlərə və onların həyat fəaliyyətinə, əhalinin artımı və sıxlığına birbaşa və bilavasitə təsir göstərir. Coğrafi və iqlim şəraiti ölkənin sakinlərini nəsildən-nəslə mövcud çətinliklərin qarşısının alınması və ya əməyinin yüngülləşdirilməsinə, həm də ölkənin təsərrüfatının inkişafına məcbur edir.

Coğrafi-iqlim şəraitləri ölkənin sakinlərinin sağlamlığına, bir çox xəstəliklərin yayılmasına, nəhayət, onun sakinlərinin etnik xüsusiyyətlərinin yaranmasına təsir göstərir. Ən əlverişli coğrafi iqlim Azərbaycan torpağındadır. Burada Yer üzünün 11 iqlimindən 9-u mövcud olub, insanın yaşaması üçün ən əlverişli şəraitlər var.

İllustrativ olaraq doğma diyarımızı nəzərdən keçirək. Subtropik zona – Lənkəran, Astara, Masallı; Aran zona-Mil, Muğan, Şirvan zonası, Dağlıq zona – Şuşa, Laçın, Kəlbəcər, Dağətəyi -Tovuz, Gəncə. Gədəbəy və s. Bütün bunlar müxtəlif coğrafi iqlimlərə malik ərazilər olub, sakinlərinin yaşayışı üçün müxtəlif cəhətdən əlverişli şərait yaradır.

Beləliklə, təbii-iqlim şəraiti ilk əvvəl ölkənin tarixi inkişafını müəyyən edir, lakin burada coğrafi mühit və sosial-iqtisadi proseslər arasındakı asılılıqdan, ölkənin

mədəni inkişafından, həm də insanın sosiallaşmasından bir mənalı danışmaq olmaz.

√***Etnos*** *(və ya millət) – tarixən yaranmış, möhkəm, ümumi mentalitet, milli şüur və xarakter, daimi mədəni xüsusiyyətlər, həmçinin özünün yeganəliyinə mənsub olan insanların məcmusudur.*

İnsanların etnik mənsubiyyətindən asılı olan psixikanın və davranışın xüsusiyyətləri iki - *bioloji və sosial-mədəni* tərtiblərdən əmələ gəlir.

Psixologiyada ayrı-ayrı insanların və bütün xalqların bioloji tərtibi bir sıra şəraitlərin təsiri ilə yaranmışdır. Min illər boyu millətlər öz etnik ərazilərində formalaşmışlar. Əsrlərlə insanlar müəyyən iqlimə uyğunlaşmış, hər bir təbii zona üçün təsərrüfatçılığın özünəməxsus tipini, öz həyat ritmini yaratmışdır.

Etnik mənsubiyyətin bioloji tərtibinin qəbul edilməsi, bir irqin və ya xalqın digərindən üstünlüyü (rasizm, şovinizm, faşizm kimi səslənən) ilə müşaiyət olunmayan etnik fərqlərin dərin əsaslarını göstərir. Həyatda insanların psixika və davranışının sosial-mədəni tərtibi əhəmiyyətli rol oynayır.

Müasir modernləşmiş ölkələrdə insanın milli mənsubluğu mühüm, bəzən başlıca olaraq birtərəfli - dili, doğma dili, başqa sözlə, bu dilin arxasında dayanan mədəniyyəti ilə müəyyən edilir. Digər tərəfdən insanın özü, onun ailəsi özünü müəyyən millətə və uyğun olaraq yaxın ətrafdakılar da onun bu millətə aidliyini dərk edir, qəbul edirlər.

Uyğun olaraq, məsələn, azərbaycanlı – odur ki, özünü Azərbaycanın tarixi və mədəniyyəti ilə eyniləşdirir, bununla bərabər ölkə, onun sosial həyatının bütün formaları son hesabda Azərbaycan mədəniyyətinə və millətin tarixi və dəyərlər sisteminə istiqamətlənmiş olur.

Başqa sözlə, etnos, millət – tarixi-sosial-mədəni hadisə, yaranma və təzahürdür. İnsanın həyatı boyu sosiallaşmasının amili kimi etnosun rolunu bir tərəfdən inkar etmək, digər tərəfdən – mütləqləşdirmək də olmaz. Bu və ya digər etnosda sosiallaşma özünəməxsus xüsusiyyətlərə malikdir.

İnsanın sosiallaşmasına etnomədəni şəraitin təsirini mahiyyət etibarilə mentalitet adlandırmaq qəbul edilmişdir. *Mentalitet – dərkolunmaz səviyyədə olan kollektiv təsəvvürlərin toplumu olub, böyük qrup insanların etnosuna mənsub olan, müəyyən təbii-iqlim və tarixi-mədəni şəraitlərdə formalaşan dərin mənəvi xüsusiyyətdir.*

Etnosun mentaliteti onun nümayəndələrinə xas olan, ətraf aləmi affektli, praqmatik səviyyələrdə görmək və qəbul etmək üsullarını müəyyən edir. Bununla əlaqədar mentalitet etnosun nümayəndələrinə xas ətraf aləmdə təsir göstərmək üsullarında özünü büruzə verir.

Beləliklə, tədqiqatlar göstərir ki, Şimaldakı özünəməxsus təbii-iqlim şəraitində, Cek Londonun adlandırdığı kimi «ağ sükutda» formalaşıb yaşayan xalqlarda səsin qavranılmasının xüsusi ənənəsi, özünəməxsus etnik səs idealı ilə nəzərə çarpır ki, bu da öz növbəsində şimal etnosu nümayəndələrində yaranan emosional təzahür və davranış səviyyəsi xüsusiyyətlərinə təsir göstərir (A.Mudrik).

Başqa bir misal. Müxtəlif millətlərin nümayəndələrinə xas olan mədəni göstəricilərdə, mentalitetin təzahürünə diqqət yetirək. XX əsrin 80-cı illərinin sonunda beş Avropa ölkələrində aparılmaş tədqiqatlar çox maraqlı vəziyyəti aşkara çıxardı. İngilislər arasında incəsənətə biganıə olanların sayı «ciddi elmlər» - fizika və kimyanın tərəfdarlarının sayından daha çoxdur. Bu istiqamətdə almanlar da ingilislərə yaxındırlar. Lakin fransız, italyan, ispanlar (roman qrupu xalqları) arasında in-

cəsənətə yüksək qiymət verənlər fizika və kimyaya üstünlük verənlərdən daha çoxdur (A.Mudrik).

Beləliklə, etnosun mentaliteti onun mədəniyyətinin sabit xüsusiyyətlərində təzahür edərək, onun nümayəndələrinin başlıca olaraq dərin əsaslarla dərketməsini və həyata münasibətini müəyyən edir. Etnosun mentalitetinin insanın sosiallaşmasının bütün sahələrinə, xüsusilə ailənin sosiallaşmasına təsiri böyükdür. Bunu aşağıdakı nümunədə açıq-aydın görə bilərik. Azərbaycanda, Özbəkistanda və bir sıra türk dilli xalqarda Rusiya və Pribaltikadan fərqli olaraq, daha çox valideyn ailəsi gənclər üçün, xüsusilə uşaqların tərbiyəsi üçün nümunədir. Ailə-nigah qaydalarında fərq daha böyükdür. Azərbaycanlılarda, özbəklərdə 80%-ə qədəri ailə-nigahda valideynlərin razılığını, boşanmanın isə uşaqlar olduqda mümkünsüzlüyünü hesab edirlər. 80%-ə qədər estoniyalı isə valideynlərin razılığını qeyri-əsas, 50%-i isə ailədə uşaqlar olduqda boşanmanı mümkün hesab edirlər.

Etnosun mentalitetinin təsiri şəxslərarası münasibətlər sahəsində də özünü qabarıq surətdə göstərir. Belə ki, etnik normalar əksər hallarda kiçiklərlə böyüklərin ünsiyyət tərzini, yaş həddi fərqini, ümumiyyətlə onların bir-birini anlaması və xüsusən də ünsiyyətdə tərəfmüqabilliyi xüsusiyyətini müəyyən edir. Yaponiyada müxtəlif yaş həddində olan insanların ünsiyyəti zamanı böyük şəxs əməli olaraq özünə monoloq növlü ünsiyyət formasını və bunu adi hal – danışana diqqət kimi qəbul edir.

***Cəmiyyət*** *- əsasən – sosioloji-siyasi anlayış olub, ölkədə insanlar arasında bərqərar olmuş sosial münasibətlər toplumunu xərəkterizə edir. Tərkibini ailə, sosial, yaş, peşə və digər nominal* (yalnız adı olan) *və real qruplar, o cümlədən dövlət təşkil edir.*

Cəmiyyət, cinsi-yaş və sosial, iqtisadi, ideoloji və mədəni quruluşları özündə əks etdirən, yəni insanların

həyat fəaliyyətinin müəyyən sosial tənzimlənmə üsullarına malik tam orqanizmdir.

Cəmiyyətin sosial quruluşunu müasir Azərbaycan cəmiyyəti əsasında nəzərdən keçirək. Müasir Azərbaycan cəmiyyəti sosial fərqləndirməyə görə çoxsaylı və tərkiblinə görə qeyri-sabit, dəyişgən peşə qruplarından ibarətdir. Şərti olaraq onları bir neçə sosial təbəqələrdə birləşdirmək olar (onların əmlak vəziyyətindən, əmlakın idarə olunmasındakı və müxtəlif səviyyəli idarə quruluşlarındakı iştirakına – yuxarı – siyasi və iqtisadi eliti (yüksək mədəniyyət səviyyəli təbəqəsi) özündə birləşdirən: yuxarı, orta – iri müəssisələrin sahibləri və menecerləri; orta-xırda sahibkarlar, menecerlər, sosial sahələrin inzibati işçiləri, idarəetmə apparatlarının orta dəstəsi, güc strukturuna malik idarə və müəssisə işçiləri; əsaslı – kütləvi ziyalılar, iqtisadi sahədə kütləvi peşə işçiləri; aşağı - dövlət müəssisələrinin qeyri ixtisaslı işçiləri, təqaüdçülərdir.

Kortəbii sosiallaşma və insanın özünüdəyişməsinə sosial quruluş o dərəcədə təsir göstərir ki, hər bir sosial təbəqə və ayrı-ayrı sosial-peşə qrupları burada özünəməxsus həyat tərzini yaşayır.

Hər bir sosial təbəqənin həyat tərzi ona aid olan uşaq, yeniyetmə, gənclərin sosiallaşmasına özünəməxsus tərzdə təsir göstərir.

Cəmiyyətin ***iqtisadi inkişaf səviyyəsi*** böyüməkdə olan nəsillərin sosiallaşmasına təsir edərək, onun üzvlərinin həyat səviyyəsini təyin edə bilir.

*Həyat tərzi – insanların maddi və mədəni tələbatlarının ödənilməsi dərəcəsini səciyyələndirən anlayışdır ki,* insanın rifah və xidmətlərin istifadəsindəki kəmiyyət və keyfiyyətində, qidadan başlayaraq yaşayış, geyim, istifadəsi uzun müddətli olan əşyalar, hərəkət vasitələri, hətta

ən çətin «yüksələn tələbatlarında», mənəvi, estetik və başqa bu kimi istəklərində özünü əks etdirir.

İqtisadi inkişaf insanın kortəbii sosiallaşması və özünüdəyişməsinə təkcə müxtəlif peşə və sosial qruplar və təbəqələrin deyil, həmçinin konkret insanların həyat səviyyəsini müəyyən edərək təsir etmir, həm də onun kəmiyyəti hesabına (iqtisadi artım, iqtisadi vəziyyətin durğunluğu, onun pisləşməsi) onların arzularına, əhvali-ruhiyyəsinə və davranışına təsir göstərir. Bu atmosfer çox zaman həm cəmiyyətin konkret üzvlərinin, həm də bütöv qrup əhalinin aktual və perspektiv səylərini, ya öz vəziyyətini yaxşılaşdırmaq cəhdlərinin fəallığını tənzimləyir, ya da frustasiya (bədbinlik) və onun davamı, fəsadı olan antisosial davranışını (təcavüz, vəhşilik, özünüməhvetmə – sərxoşluq, narkomaniya və s.) müəyyən edir.

Cəmiyyət iqtisadi cəhətdən nə qədər çox inkişaf etmiş olarsa, sosiallaşma prosesində insanın inkişafı üçün daha əlverişli imkanlar yaranır. Əyani olaraq bunları söyləmək olar. «Uşağın qiyməti» anadan olandan ta 25 yaşadək 1985-ci ildə ABŞ-da 500 min dollar, İsveçdə - 700 min dollar, SSRİ-də - 40 min manat (rubl) idi. Bu xərclər qidanın keyfiyyətini, tibbi, təhsil, yaşayış–məişət və mədəni sahədə, yəni adı çəkilən hər bir ölkənin böyüməkdə olan nəsillərin inkişafı üçün imkanların dərəcələrini müəyyən edir.

Cəmiyyətin iqtisadi inkişafının səviyyəsinə uyğun insanın yetkin yaşda sosiallaşması şəraitləri, ailə səadətinin və əyləncəli davranışın maddi əsası olan, özünün əmək fəaliyyətində realizə etməsi imkanları və stimulları müəyyən edilərək yaranır. İqtisadiyyat yaşlıların mümkün həyat səviyyəsini müəyyən edir.

Müasir şəraitdə Azərbaycanda sosiallaşmanın məzmunu əsaslı surətdə cəmiyyətdə baş verən siyasi-ideoloji və sosial siyasi proseslərlə əlaqədar olaraq dəyişilmiş,

totalitar ideologiyanın əvəzində çox mütəhərrik olan plüralizm (müxtəliflik) gəlmişdir.

İdeoloji plüralizm kortəbii sosiallaşmanın və insanın özünüdəyişməsinin çox cəhətli yeni vəziyyətini yaratmışdır. Plüralizm, insanın öz mənəvi və ideoloji göstəricilərinin şüurlu və məsuliyyətli seçimini nəzərdə tutur. Seçimin çətinliyi, sosial təcrübənin azlığı, əhalinin geniş təbəqələrində tarixən formalaşmış seçim edə bilməmək hissi seçim etməkdən imtina etməyə, çəkinməyə gətirib çıxarır.

Azadlıq təkcə insanın yolunda olan maneələri deyil, həm də onun «dayaqları»nı yox edir. Bu isə cəmiyyətin keçid dövründə qeyri-müəyyən vəziyyəti yaradır. Qeyri-müəyyənlik isə hər bir canlıda əsaslı mənfi emosional vəziyyətin üçündən birini –ya depresiya, ya qorxu, ya da təcavüz yarada bilir.

Dəyişən cəmiyyət tərbiyə qarşısında real və uyğun vəzifələri qoymaq iqtidarında deyil, ya o bərqərar olmuş tərbiyə üsuluna və özünün inkişafının möhkəm ssenarisinə malik deyil, ya da öz dəyərlərini və onların tabeliyini yalnız müəyyən etməyə, yeni ideoloji göstərişləri axtarıb tapmağa çalışır. O, yalnız «başqa» insanı tərbiyə etməyi və bunu «başqa cür» etməyi bacarır.

Dəyişən cəmiyyətdə tərbiyə qarşısında əməli surətdə cəmiyyətlə birgə «insanda nəyi inkişaf etdirmək?», daha doğrusu, «onu hansı istiqamətdə inkişaf etdirmək?» sualına cavab axtarmaq vəzifəsi dayanır.

Belə vəziyyət tərbiyənin sosial institut kimi cəmiyyətdəki fəaliyyətinə əsaslı təsir göstərir.

***Dövlət*** – siyasi-hüquqi anlayışdır. *O, cəmiyyətin siyasi sisteminin həlqəsi olub, hakimlik, hökmranlıq vəzifələrinə malikdir. O özündə cəmiyyətin idarə olunmasını həyata keçirən qarşılıqlı əlaqəli müəssisə və təşkilatların* (dövlət aparatı, rəhbər və maliyyə orqanları, rəh-

kəmə və s.) *toplumunu əks etdirir.* Dövlətə kortəbii sosiallaşma amili kimi baxmaq olar, çünki ona səciyyəvi olan siyasət, ideologiya, iqtisadiyyat və sosial təcrübə onun vətəndaşlarının həyatı, inkişafı və özünü realizəsi üçün müəyyən şəraitlər yaradır. Uşaq, yeniyetmələr, gənclər, yaşlılar az və ya çox dərəcədə bu şəraitlərdə fəaliyyət göstərərək, ixtiyari və qeyri-ixtiyari olaraq, dövlət tərəfindən qəbul edilmiş və sosial təcrübədə reallaşan norma və dəyərləri mənimsəyirlər. Məlum olduğu kimi, bu norma və dəyərlər heç vaxt tam olaraq uyğun gəlmir, dövlətin müəyyən tarixi dövrlərində bir-birinə əks də ola bilirlər ki, bu da müəyyən şəkildə insanın sosiallaşma prosesində özünüdəyişməsinə təsir göstərə bilir.

Dövlət bu və ya digər cins-yaş, sosial-peşə, milli-mədəni qruplara aid olan öz vətəndaşlarının nisbətən istiqamətlənmiş sosiallaşmasını həyata keçirir. Əhalinin bu və ya digər qrupunun nisbətən istiqamətlənmiş sosiallaşması dövlət tərəfindən obyektiv surətdə məsələlərin həllində və öz vəzifələrini yerinə yetirməsi prosesində həyata keçirilir.

Beləliklə, dövlət yaş hədlərini: məcburi təhsilin başlanğıcı (və onun davamı), yetkinlik, nigaha qoşulma, avtomobil sürmək üçün hüququn alınması, orduya çağırış (və onun davamı), əmək fəaliyyətinə başlanması, təqaüdə çıxma dövrünü müəyyən edir. Dövlət qanuni şəkildə etnik və dini mədəniyyətləri tənzimləyir və bəzi hallarda maliyyələşdirir (və ya əksinə, müvəqqəti dayandırır, məhdudlaşdırır və hətta qadağan edir).

Bir sözlə, dövlət tərəfindən həyata keçirilən əhalinin böyük qrupuna yönələn nisbətən istiqamətlənmiş sosiallaşma, konkret insanlara həyat yolunun seçilməsində, onların inkişafı və özünürealizə etməsində müəyyən şərait yaradır.

Dövlət öz vətəndaşlarının az və ya çox dərəcədə sosial cəhətdən nəzarət olunan səmərəli sosiallaşmasını həyata keçirir ki, bunun üçün müəyyən yaş hədlərini tərbiyə etmək vəzifəsi daşıyan təşkilatlar və şərait yaradaraq, hətta vəzifələrinə aid olmayan təşkilatları da bu və ya digər ölçüdə tərbiyə ilə məşğul olmağa məcbur edir.

Tərbiyə XIX əsrin ortalarından başlayaraq dövlətin ən mühüm vəzifələrindən birinə çevrilmişdir. Dövlət tərbiyəni, sosial sifarişə uyğun, ictimai və dövlət quruluşu ilə müəyyənləşdirilən insanın səmərəli formalaşdırılması üçün təkmilləşdirir. Bunun üçün o, tərbiyə sahəsində müəyyən siyasət hazırlayır və dövlətin tərbiyə sistemini formalaşdırır.

*İnsanın sosiallaşmasında* **mezoamillərin də** rolu böyükdür. Bunlardan ən əhəmiyyətlisi region, kənd, şəhər və qəsəbədir.

**Region** – *ölkənin bir hissəsi olmaqla, iqtisadi, siyasi və mənəvi həyat ümumiliyinə, ümumi tarixi keçmişə, mədəni və sosial özünəməxsusluğa malik tam sosial-iqtisadi sistemi təmsil edir.* Region - insanın sosiallaşması, həyat tərzi normalarının formalaşması, qorunub saxlanması və ötürülməsi, təbii və mədəni zənginliklərinin qorunması və inkişafı (və ya əksinə) baş verən məkandır.

Hər bir ölkə obyektiv olaraq, təbii-coğrafi, subyektiv olaraq öz sakinlərinin şüurunda ərazi – yer fərqinin toplumu kimi əks olunur. Azərbaycanda (Qərb-Şərq, Mərkəzi, Aran, dağətəyi, dağlıq və s.) onlar daha genişdir. Lakin müxtəlif sənədlərdə və adi həyat şəraitində region olaraq kiçik sahələri – inzibati vahidlərlə – vilayət, bölgə, respublika adlandırılır.

Sosiallaşmaya regional şəraitlərin təsiri müxtəlif olub, regionun xarici xüsusiyyəti ilə müəyyən edilir. *Regionun təbii-coğrafi xüsusiyyətləri* (landşaftı, iqlimi, faydalı qazıntıları və s.) onun urbanizasiya dərəcəsini, iq-

tisadiyyatının xarakterini, əhalinin sayı və sabitlik ölçüsünü müəyyən edərək, sakinlərin sosiallaşmasının müxtəlif sahələrinə onlar vasitəsilə təsir göstərirlər. İqlim insana, onun səhhəti, iş qabiliyyətinə, psixi vəziyyətinə, ömür müddətinin davamlılığına birbaşa təsir göstərir.

*Regionun sosial-coğrafi xüsusiyyətləri* – əhalinin sıxlığı, yerləşmə xarakteri (urbanizasiya ölçüsü), sakinlərinin ənənəvi məşğuliyyəti, həm də digər regionlardan yaxınlığı və uzaqlığı və regionun daxilində və başqa regionlara məlumat vasitələrini özündə əks etdirir. Bu xüsusiyyətlər sosiallaşmaya dolayı təsir edir ki, onlardan həyat tərzi, səfərbərlik, əhalinin informasiya mənbələri asılı olur, bu da uşaqların, yeniyetmələrin, gənclərin inkişafında müəyyən dərəcədə özünü göstərir.

*İqlim və iqtisadiyyat* regionun urbanizasiyası dərəcəsi və xarakterini müəyyən edir. Məs: Azərbaycanın rayonlarının mərkəzində şəhər əhalisi üstünlük təşkil edir. Azərbaycan ərazisində bir-birindən aralıda yerləşən böyük və kiçik şəhərlərdə şəhər sakinləri toplanmışdır. Bakı ətrafında yerləşən böyük və kiçik şəhərlərdə əhalinin böyük əksəriyyəti yaşayır. Regionun urbanizasiya dərəcəsi onun sakinlərinin sosial və mədəni inkişafı və özünü realizəsi üçün şəraitin yaranmasına təsir göstərir, müxtəlif istiqamətlərdə (sosial, ərazi, peşə və s.) sakinlərinin səfərbərliyini müəyyən edir.

*Regionun sosial-iqtisadi xüsusiyyətləri* – onun ərazisindəki istehsalın, regionun inkişaf perspektivlərinin, sakinlərin peşə tərkibi və onların həyat səviyyəsinin, digər regionlarla (bəzən də başqa ölkələrlə) iqtisadi əlaqələri tipləri və xarakteridir.

Regionun iqtisadi xarakteri: məs: Daşkəsəndə başlıca olaraq təbii ehtiyatların işlənməsi, elmi müəssisələrin, respublikamızın müxtəlif zonalarında sənaye və kənd təsərrüfatı istehsalının uzlaşdırılması və s. əhalinin sosial-

peşə tərkibinə təsir göstərir, peşə imkanlarını müəyyən edir, onun sakinlərinin həyat səviyyəsində özünü göstərir.

Regionların iqtisadi inkişafının qeyri-bərabərliyi onun sakinlərinin həyat səviyyəsinin ümumi göstəricilərində əks olunur. Ötən əsrin 90-cı illərində aparılan islahatlardan sonra Azərbaycanda iqtisadiyyatın iflic vəziyyətinə düşməsi əhalinin müflisləşməsinə, yeni sahibkarlığın yaradılması ilə dirçələn iqtisadiyyat isə əhalinin orta aylıq gəlirinin müəyyən dərəcədə artımına səbəb oldu.

*Regionun sosial-demoqrafik xüsusiyyətləri* – bu əhalinin milli tərkibi, onun cins-yaş strukturu, ailə tipləri (tam-natamam, bir uşaqlı-çoxuşaqlı və s.), miqrasiya prosesləridir. Bütün bu səciyyələr böyüməkdə olan nəsillərin sosiallaşmasında çox mühüm rol oynayır. Regionlar əhalinin *etnik tərkibinə* görə fərqlənirlər. Birində monoetnik tərkib üstünlük təşkil edir. Digərlərində iki-üç etnos nisbətən bərabər şəkildə (məs: Zakatalada inqloylar, udinlər, avarlar, yerli əhali, məshəti türkləri və s.). Başqa regionlarda etnik «kokteyl» (Quba, Xaçmaz, Balakən zonalarında) əmələ gəlmişdir.

Əhalinin *stabillik dərəcəsi də mühümdür.* Bakı ətrafı ərazidə digər regionlardan gəlmiş əhali hesabına artım hiss olunur, digər tərəfdən «köçəri quşlar» tipinin, elan olunmamış müharibə nəticəsində ermənilər işğal etdiyi ərazilərdən olan müvəqqəti məskunlaşmış qaçqın, köçkün insanlar hesabına formalaşmışdır ki, bu da onların mədəni-tarixi ənənələrdən ayrı düşməsinə səbəb olmuşdur. Bakı şəhərinin özünün və ətraf kəndlərində əhalinin müəyyən hissəsinin sabitliyi də konservativ rola malikdir.

Bir çox regionlarda, xüsusilə Rusiya, İran və Türkiyə ilə sərhəd olan ərazilərdə kriminal keçmişi və (və ya) indisi olan sakinlərin sayı yüksəlmişdir.

Regionun demoqrafik xarakteristikası uşaq, yeniyetmə, gənclərin dəyərlərə yiyələnməsi və həyat tərzinə,

bütövlükdə şəxsiyyətlərarası, həmçinin yaş həddi arası, cinslərarası, etnikarası münasibətlərə, regionun sosial-psixoloji vəziyyəti sahəsindəki göstəricilərinə əhəmiyyətli təsir göstərir.

*Tarixi və mədəni regional fərqlər* əhaliyə xas mənəvi, həyat tərzi, adət və əlamətlərdə, ənənələrdə, xalq bayramlarında və oyunlarda, folklorda, arxitekturada və yaşayışın «görünüşündə» özünü göstərir. Əhalinin özünəməxsus nitqi – xüsusi ləhcə və sözlərdən, bəzi danışıqdakı dialektlərə qədər, bir-birindən əsaslı fərqlənir (məs: talış, ləzgi, inqloy, yəhudi, Bakı kəndlərində balaxanı və suraxanı dili və s.).

İndi isə regionun tərbiyəyə təsirini nəzərdən keçirək. Regionun sosial cəhətdən nisbətən nəzarət edilən sosillaşmaya – tərbiyəyə təsiri, Respublikamızın hakimiyyət subyektlərinin siyasəti istiqamətində həyata keçirilir.

Tərbiyə sahəsində regional siyasət bir tərəfdən, mədəniyyətəmüvafiqlik prinsipinə uyğun dövlət siyasətinin bu sahədə regionun şəraitlərinə uyğunlaşmasını əks etdirir. Digər tərəfdən, bu normativ sənədlərin işlənilməsini, ehtiyatların ayrılmasını, dövlət və ictimai təşkilatların cəlb edilməsini, tərbiyəvi təşəbbüslərin müdafiə olunmasını nəzərdə tutur ki, birlikdə onlar inkişaf və böyüməkdə olan nəsillərin mənəvi dəyərlərə bələdliyi üçün insanın müsbət maraqlarına və regional birliklərin tələbatlarına uyğun, zəruri və əlverişli şəraitlər yaratmalıdır.

Tərbiyə sahəsində dövlət və regional siyasəti realizə edərək, onun strategiya və taktikasını müəyyən edilməsində tərbiyənin mədəniyyətəmüvafiqlik prinsipinin istifadəsinə diqqət yetirir, tərbiyənin məzmun, forma, üsullarına regionun mədəni, tarixən mövcud ənənələri elementlərini daxil edir. Regionun əhalisinin müxtəlif təşkilat və sosial peşə qruplarını böyüməkdə olan nəsillərlə işi

üçün marağın nizamlanması üsullarını tapır ki, bu da bütün ehtyatların səfərbərliyə alınmasına xidmət edir.

Regionun böyüməkdə olan nəsillərinin, o cümlədən sosiallaşmanın əlverişsiz şəraitlərinin real və potensial qurbanına çevrilmiş ayrı-ayrı kateqoriyalı uşaq, yeniyetmə və gənclərin təhlükəsizliyi və firavanlığının təmin edilməsi üçün müəyyən tədbirlər işləyib hazırlayır.

**Kənd həyat tərzinin** də sosiallaşmaya təsiri böyükdür. Çox zaman bu kənd məskunluğunda insanın davranışına sosial nəzarətin çox güclü olması ilə bağlı olur. Sakinlərin azlığı, onlar arasındakı əlaqələrin sıxlığı, hamı haqqında hamının hər şeyi bilməsi insan həyatının hər epizodunu ətrafdakılar tərəfindən müzakirə obyektinə çevirə bilir.

Bir çox kənd yerlərində sosial nəzarət məzmunca özünəməxsus sosial-psixoloji atmosferlə müəyyən edilir. Bu gün kənd üçün sakinlərin yaşadığı torpağın sahibi olması hisslərindən uzaqlaşması, sərxoşluq və alkoqolizm səciyyəvidir.

Kənd sakinlərinin sosiallaşmasında mühüm rolu daim artmaqda olan şəhərin kəndə təsiri oynayır. Bu təsir şəhərə xas olan, lakin kənd həyatı üçün yabançı olan müəyyən həyat dəyərlərinin kənd sakinləri üçün etalona çevrilməsidir.

**Şəhər həyat** tərzinin də sosiallaşmada təsiri danılmazdır. Şəhər – böyük sayda sakinlərin bir yerə yığılması və müəyyən ərazidə əhalinin yüksək sıxlığı; həyat fəaliyyətinin çox yüksək müxtəlifliyi (həm əmək, həm istehsaldan kənar sahələrdə); əhalinin fərqlənən sosial peşə və etnik mədəniyyəti ilə səciyyələnir. Şəhərlər bir sıra ölçülərə görə bir-birindən fərqlənirlər.

Böyüklüyünə görə: kiçik (50 minədək sakini); orta (350-400 min sakini), böyük (1 mln. qədər), nəhənglər (1 mln. artıq).

*Üstünlük təşkil etdikləri funksiyalara görə:* sənaye (Əli-Bayramlı, Daşkəsən), inzibati sənaye (Sumqayıt, Gəncə); inkişaf etmiş liman və mədəni və inzibati sahələrə (Bakı, Lənkəran) və ixtisaslaşdırılmış (Mingəçevir); kurort (Naftalan, Quba, Xaçmaz, Zakatala); «elm şəhəri» (Bakı, Naxçıvan).

*Regional mənsubluğuna görə*: Lənkəran – cənubda, Bakı – şərqdə, Gəncə - mərkəzi-qərbdə, Şuşa – cənubi-qərbdə.

*Yaranma tarixinə görə:* qədim (500 ildən artıq) – Şuşa, Ordubad, Gəncə; köhnə – Şamaxı, Şəki; yeni–(100 ildən az olmayan) – Sumqayıt, Əli-Bayramlı, Daşkəsən.

*Əhalinin tərkibinə görə:* (əhalinin yaş-cins, sosial-peşə və etnik qruplarının nisbətinə): «gənc» (Sumqayıt), «qədim» (Bərdə); böyük dərəcədə sosial təbəqələşmə (Bakı) və zəif təbəqələşmə (Cəlilabad, Cəbrayıl, Zəngilan), monoetnik (Lerik), 2-3 etnik qruplara (Xaçmaz, Masallı, Balakən); çox etnik (Bakı, Sumqayıt, Zakatala, Quba).

*Əhalinin stabilliyinə görə -* yerli şəhər əhalisi ilə kənd yerlərindən miqrasiya etmişlərin nisbətinə görə (Sumqayıt, Bərdə, Saatlı, Sabirabad, Biləsuvar).

Şəhər (orta, böyük, nəhəng) bir sıra səciyyələrə malikdir ki, sakinlərinin, xüsusilə böyüməkdə olan gənc nəslin sosiallaşması üçün özünəməxsus şəraitlər yaradır.

Şəhəri həm də tarixən yaradılmış *şəhər həyat tərzi* xarakterizə edir. Bu həyat tərzi aşağıdakı mühüm əlamətləri:

- şəxsiyyətlərarası ünsiyyətdə anonimliyi, işçi, qısa müddətli, xüsusi və səthi əlaqələrin, eyni zamanda emosional bağlılıqda yüksək seçiciliyin üstünlük təşkil etməsini;

- sakinlərin çox da böyük əhəmiyyəti olmayan ərazi ümumiliyini, bir qayda olaraq funksional şərtlənmiş qon-

şuluq əlaqələrini (uşaq və qocalara baxmaq üçün ailələrin kooperasiyasını, «nəqliyyat əlaqələrini») və s;

- həyat tərzinin, mədəni stereotiplərin, dəyərlərə bələdliyinin müxtəlifliyini;

- şəhərlinin qeyri-davamlı statusunu, böyük sosial səfərbərliyini;

- insanın davranışına zəif sosial nəzarəti və özünənəzarətin əhəmiyyətli rolunun davamı kimi müxtəlif sosial əlaqələri özündə əks etdirir.

Yuxarıda adı çəkilən səciyyələr şəhəri insanın sosiallaşmasının güclü amilinə çevirir, uşaq, yeniyetmə, gənclər tərəfindən seçimin və səfərbərliyin həyata keçirilməsi üçün şərait yaradır.

***Qəsəbə*** də Azərbaycan respublikası üçün səciyyəvi olan məskunlaşma tipi olaraq öz sakinlərinin sosiallaşmasında xüsusi rol oynayır.

*Qəsəbə - insanların mütləq və ya nisbi ərazi məhdudluğunda yerləşmə olub: a) kənd həyat tərzindən uzaqlaşmış; b) şəhər həyat tərzinə kök salmamış; v) kiçik şəhərin sakinlərinə xas tarixi ənənələrinin dayaqlarından məhrum olan formasıdır (A.Mudrik).*

Belə ümumi müəyyənləşmə bir neçə tip qəsəbəni əhatə edir:

- fəhlə – hasil və ya emal edən müəssisələrin, həm də böyük dəmiryol stansiyalarının yaxınlığında (Bakixanov, Balaxanı, Keşlə və s.);

- «qaynar nöqtələr»dən, ekoloji cəhətdən çirklənmiş zonalardan gələnlər hesabına (Sahilyanı, Mehdiabad, Lökbatan və s.);

- məcburi köçürülmə – müharibə zamanı qaçqın düşmüş, zorla öz torpaqlarından qovulmuş, keçmiş sovetlər respublikalarından qovulmuş (Biləsuvar, Bərdə və s. rayonlarda yaraılmış məcburi qaçqın qəsəbələri);

- köçürmə, su basmış ərazilərdən köçürülmüş kənd əhalisinin, bağlı zona əmələ gətirmiş ərazilərdən köçürülmüşlər hesabına (Qaraçuxur, Pirküşkül, Həzi Aslanov və s. );

- şəhərətrafı qəsəbələr, sakinlərinin çox hissəsi şəhərdə işləyən (Bülbülə, Corat, Masazır, Mərəzə Ramana və s.);

- böyük şəhər daxilində, müəyyən bir zavodun və ya miqrantların ilk nəsillərinin hesabına əmələ gələn qəsəbələrdir (Qara şəhər, Montin və s).

Tipoloji müxtəlifliyinə və uyğun fərqlərə görə qəsəbələr, adətən həyat tərzi və sosial-psixoloji atmosferinə görə bir çox ümumiliyə malikdir ki, bu da onlara insanın sosiallaşmasının özünəməxsus amili kimi baxmağa imkan verir.

İki cazibə qütbü - şəhər və kənd, qəsəbə həyat tərzinin ortaq səciyyəsini müəyyən edərək, sakinlərinin davranışının dominantını diktə edir. Burada ortaq məxrəcə gətirilmiş davranış, həyat tərzi, insan xarakterləri mövcud olur.

Qəsəbədə həyat normaları özünəməxsus xüsusiyyətlərə malikdir. Burada kənddən fərqli olaraq hər bir insanın, ailənin və eyni zamanda hər kəsin ciddi xüsusiləşməsi, əgər söhbət şəxsi nailiyyətdən, rahatlıqdan gedərsə, digərlərinin fikri ilə hesablaşmamaq kimi həyat açıqlığı mümkündür. Eyni zamanda hər kəsin həyatı mühitdən o dərəcədə asılıdır ki, özünü ona qarşı qoymaq əməli olaraq mümkün deyildir. Ona görə də gənclər az düşüncəli, dərin emosional dostluq əlaqələrinə az meyllidirlər. Yeniyetmələr üçün ən mühümü –«sürüdə» əriyib getmək, öz «kiçik adalarını» tapmaqdır. Mədəniyyətin ümumi səviyyəsi və ünsiyyətin məzmunlu səviyyəsi bir qayda olaraq ümummədəni xarakterdə olub, zahirən bəsit informasiya xarakterindədir.

Bir çox qəsəbələr üçün sakinlərin qeyri-əxlaqi və əkssosial davranışı tipikdir. Hətta onlar şifahi surətdə tənqid edilsələr də, sosial təcrübədə qeyri-formal şəkildə təkcə rədd edilmir, həm də qəbul olunmurlar. Deyilənlərdən heç də o nəticəni çıxarmaq olmaz ki, qəsəbələr yalnız təsvir edən kimidir, buna baxmayaraq orada həyat tərzi onun sakinlərinin taleyi üçün labüddür. İnsan sosiallaşmanın təkcə obyekt və qurbanı deyil, həm də subyektidir. Ona görə də, qəsəbə insanın özünəməxsus orta üslubudur (nə kəndli, nə də şəhərli), qəsəbələrdə müsbət mənada sosiallaşmış şəxsiyyətlər böyümüş və böyüməkdədir.

Son dövrlərdə **sosial tərbiyənin bələdiyyə sistemi də** xüsusi əhəmiyyət kəsb etməkdədir.

Suveren Azərbaycan Respublikasının dövlət quruluşunda son illərdə baş verən islahatlar hakimiyyətin bələdiyyə orqanlarının formalaşmasına böyük yer vermişdir. İctimai-siyasi və təsərrüfat-iqtisadi həyatın bütün sahələrində mərkəzləşmiş planlaşdırma vəzifələrindən ardıcıl olaraq imtina, qəbul olunmuş qərarların ağırlığının regionlar və bələdiyyə yaradılmalarına keçirilməsi hakimiyyətin bələdiyyə orqanlarının onun universal reseptlərindən fərqli yerli siyasətin formalaşmasına öz xüsusi münasibətlərinin işlənilməsinə yönəltməyi tələb edir.

Bələdiyyə orqanlarının mühüm vəzifələrindən biri tərbiyənin bələdiyyə sistemini yaratmasıdır ki, bu da böyüməkdə olan nəsillərin, həm də böyüklərin konkret sosial şəraitlərdə müsbət sosiallaşmasını təmin edir.

*Sosial tərbiyənin bələdiyyə sistemi bələdiyyə yaranmalarında (şəhər, şəhərin rayonu, kənd rayonu) onun sakinlərinin müsbət inkişafı və mənəvi-dəyərlərə bələdliyi şərtlərinin planlı şəkildə yaradılan toplumunu əks etdirir.*

Tərbiyənin bələdiyyə sisteminin əsasında tərbiyə sahəsində dövlət və regional siyasət durur ki, buna dövlət

tərbiyə sisteminin nisbətən muxtariyyətli oxşar- alt sistemi kimi baxmaq olar.

Sosial tərbiyənin bələdiyyə sistemi az və ya çox dərəcədə uşaqların, yeniyetmə və gənclərin sosiallaşmasına müsbət təsir göstərir ki, bu da hakimiyyətin bələdiyyə orqanları tərəfindən onun nə qədər şüurlu və məqsədəyönəlmiş surətdə yaradılması və inkişafı etdirilməsi və bu prosesdə yerli əhalinin nə dərəcədə iştirak etməsindən asılıdır.

Sosial tərbiyənin bələdiyyə sisteminin səmərəli fəaliyyəti və inkişafı onunla müəyyən edilir ki, yerli hakimiyyət orqanları ardıcıl və ixtisaslı şəkildə şəhərin, rayonun müsbət və zərərli sosiallaşmasında qabiliyyyət və tərbiyəedici imkanlarını necə öyrənir və onun əsasında sosial-pedaqoji cəhətdən nəzərdə tutulan uyğun məqsədləri nə dərəcədə həyata keçirir, qoyulmuş məqsədlərin nailiyyətini necə proqramlaşdırır və təşkil edir, onun təhlilliərinə və onun nəticələrinə uyğun tərbiyə sisteminin təshihini aparır. Şəhərin, rayonun sosiallaşmasında müsbət və zərərli qabiliyyət və imkanların öyrənilməsi ilkin diaqnostika və davamlı müşahidələri (monitorinqləri) nəzərdə tutur.

## 2.6. Kütləvi kommunikasiya vasitələri və onların sosial qrup və şəxsiyyətə təsiri imkanları

***Kütləvi kommunikasiya vasitələri (KKV)*** *– texniki vasitələrlə* (mətbuat, radio, kinematoqraf, televiziya, kompyüter xətləri) *məlumatın* (bilik, mənəvi dəyərlər, əxlaqi və hüquqi normalar) *kəmiyyətcə daha çox əhatəsi olan, geniş auditoriyalara yayılmasnıı təmin edir.*

Min il əvvəl insanlar dörd kommunikasiya vasitəsinə – şifahi nitq, musiqi, boyakarlıq və yazıya malik idi. Sonra inkişaf tempinə uyğun kommunikasiya vasitələrinin

çoxalması prosesi baş verdi. XV əsrdə kitab, XVII əsrdə – qəzet və jurnallar çap edildi. XIX əsrdə yeni inqilabi mərhələ – radio, telefon, kino, qrammofon yazıları kəşf olundu. XX əsrdə «çoxalma» tempi sel kimi artdı – televiziya, maqnitofon yazıları, video, kopyüter, internet xətləri, operativ poliqrafiya (kseroks və s.), kosmik əlaqə geniş yayıldı. Lakin XX əsrin sonunda yayılmış olanları sıxışdırmaqla birinci yeri elektron kütləvi kommunikasiya vasitələri tutdu.

KKV-nin sonrakı inkişaf səviyyəsini yüksək postsənayeli cəmiyyətlərdə görmək olar ki, burada KKV-nin tamamilə yeni strukturu formalaşır. ABŞ-da hər bir ailəyə 500 kanal təqdim edə bilən televizor yaradılır ki, o da tamaşaçılarla telestansiyalar və öz aralarında qarşılıqlı əlaqə yaratmağa imkan verir. Bu televiziya verilişləri interaktiv (yəni qarşılıqlı təsir televiziya verilişləri) adını almışdır.

***Sosiallaşma amili kimi*** KKV-ini nəzərdən keçirərkən, unutmaq olmaz ki, onların məlumat axınına təsir obyekti təkcə ayrıca fərd deyil, həmçinin bu və ya digər konkret KKV-nin auditoriiyasını təşkil edən böyük qrup insanların - bir qəzetin abunəçiləri, müəyyən radiostansiyaların dinləyiciləri, bu və ya digər telekanalların tamaşaçıları, bu və ya digər kompyüter xətlərinin istifadəçilərinin şüuru və davranışıdır. Bununla əlaqədar olaraq, KKV-ni sosiallaşmanın hansı amillər qrupuna aid olması sualına birmənalı cavab tapmaq çətindir.

Öz proqramlarını bütün dünyaya yayan SNN kimi telekompaniyalara meqaamil kimi baxmaq olar (A.Mudrik).

Türkiyə kanallarından bir neçəsini - həm Azərbaycanda, həm də bir çox keçmiş sovet respublikalarında; ANS, İctimai və Lider kanallarını- həm respublika, həm də bir çox xarici ölkələrdə yayımlananları; respublikamızdakı

*bir* çox qəzetləri, yəni auditoriyası demək olar ki, bütün respublika əhalisi olanları makroamillərə aid etmək olar. Kabel televiziyalı yerli studiyaların, çoxsaylı kənd və rayon radio studiya və qəzetlərin sürətlə «çoxalması» video və kompyüterlərin ailəyə «gəlişi» və s. - bütün bunlara KKV-yə sosiallaşmanın mikroamilləri kimi baxmağa imkan verir.

KKV-yə sosiallaşmanın başlıca olaraq mezoamili kimi baxmağa kütləvi sorğular imkan verir ki, bu da seçilmiş informasiya vasitəsinin istifadə səviyyəsinin yüksəlməsindən xəbər verir. Televiziyaya baxış, qəzet oxunması və radioya qulaq asmaq daha dərindən seçilən sahələrə çevrilir. Belə ki, əhalinin əsas kütləsini ilk növbədə gündəlik həyat hadisələri maraqlandırdığından, bu seçim çox hallarda məlumatın verildiyi regional KKV ilə başa çatdırılır.

KKV-nin *əyləncəli rolu* istirahət və əyləncə ilə sıx bağlıdır. Yeniyetmə və gənclər üçün o özünəməxsus çalar qəbul edir. Böyük əksəriyyət uşaqlar üçün telebaxış, musiqi yazılarının dinlənilməsi, kompyüterlə iş, bəziləri üçün də oxu şəxslərarası əlaqələrin azlığının özünəməxsus kompensasiyasına (əvəzinə), həmyaşıdlarla ünsiyyətdə anlaşılmazlıq yarandıqda yayım vasitəsinə çevrilir. Uşaq, yeniyetmə, gənc evdə tək olarkən həmişə maqnitofon, televizor, video, kompyüter yandırır ki, tənhalıq hissini qovsun. Bu üsulla o, valideynləri arasındakı söz-söhbətdən, onu bezdirmiş mövzulardan və s.-dən uzaqlaşa bilir.

KKV *insanın inkişafında* böyük rol oynayır. Bəzən bu nöqteyi-nəzər də söz-söhbətdən uzaq olmur. Kommunikasiyanın yeni növünün yaranması başlıca olaraq, insana xeyri və ziyanı haqqında qalmaqala səbəb olur. Belə ki, hələ qədim zamanlarda Platon biliklərin «kənar işarələrlə» mənimsənilməsinə imkan verən yazının yaran-

masını insanların yaradıcı qabiliyyətlərinin yoxsullaşması ilə əlaqələndirirdi, yəni bunun nəticəsində insanlar «çox bilən kimi görünsələr də, çoxusu nadan qalacaq» və «müdrik olmaq əvəzinə müdriksizləşəcəklər».

Kino, radio, sonralar televiziya və videonu həmişə oxuya, bədii qiraətə marağın azalmasında günahkar hesab etmişlər. Bu həqiqətən belə olmuş və belədir, lakin başa düşülməlidir ki, radionu dinləyən, kinofilm və televerilişlərə baxan insanların böyük kütləsidir ki, onlar heç də oxucu olmaya bilər. Tədqiqatlar göstərir ki, KKV – nin insana təsiri heç də birmənalı deyil, bütövlükdə müsbət haldır. Beləliklə, Amerika alimləri Şram, Layl və Parker 1961-ci ildə belə nəticəyə gəlirlər ki, telebaxış uşağın inkişafını demək olar ki, bir il sürətləndirir, xüsusilə bu uşaq məktəbə gedənə yaxın dövrdə –ona düşünməyi öyrədir, biliklər verir, dünyagörüşünü genişləndirir. Fransada aparılmış tədqiqatlar göstərir ki, telebaxış aztəhsilli əhali təbəqəsinin təsəvvür və dünyagörüşünə əhəmiyyətli dərəcədə müəsbət təsir göstərir.

Böyüməkdə olan nəsillərin kortəbii sosiallaşmasında kompyüter şəbəkəsi xüsusi rol oynayır. Kompyüterlə iş bir tərəfdən əlaqələrin genişlənməsinə, sosiomədəni dəyərlərin mübadiləsinə imkan verir, simvolik təcrübənin yeni formalarının yaranması və realizə edilməsinə, təxəyyül proseslərinin inkişafına, xarici dillərin öyrənilməsinin tezləşdirilməsinə və digər başqa müsbət səmərələrin əldə olunmasına gətirib çıxarır. Digər tərəfdən o, kompyüter xəttindən «asılılıq sindromu»na, maraqların məhdudlaşmasına, reallıqdan uzaqlaşmasına, kompyüter oyunları içərisində itib-batmaq, sosial izolyasiya (təcridolunma), emosional reaksiyaların zəifləməsi kimi və digər başqa zərərli təsirlərə gətirib çıxara bilər.

KKV, sosial institutlardan biri olmaqla, bu və ya digər dərəcədə dövlətin və ayrı-ayrı sosial qrupların sifa-

rişi ilə bütövlükdə əhaliyə, ya da ayrı-ayrı yaş həddi və sosial təbəqələrə müəyyən təsiri yerinə yetirir. Bu da KKV-ni sosiallaşmaya bu və ya digər dərəcədə istənilən təsiri göstərən hesab etməyə imkan verir.

Bu təsirin iki istiqamətdə özünü büruzə verir.

Birincisi, KKV bütün yaş həddində insanların geniş sahəli sosial normaları qəbul etməsinə və onların iqtisadiyyat, siyasət, ideologiya, hüquq və s. sahələrdə dəyərlərə bələdliyinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

İkincisi, KKV əməli olaraq, əhalinin müxtəlif təbəqələrinin qeyri-formal təhsil, maarif sistemini əks etdirir. Məlumat və maarif mənbəyi kimi KKV-dən yaşlı insanlar daha çox istifadə edirlər. Lakin bütün istifadəçilər ictimai və siyasi həyatın bütün sahələri üzrə çox müxtəlif, bir-birinə zidd, sistemləşdirilməmiş məlumatlar alırlar.

Tədqiqatlar göstərir ki, insanın istifadə etdiyi KKV-nin yığımı (TV proqramları, radio, konkret qəzetlər və s.) onun üçün xüsusi informasiya dünyası yaradır. O, hətta eyni bir şəhərin sakinlərində əsaslı surətdə fərqli ola bilir. Rus tədqiqatçısı L.İ.Vasilyenkonun əldə etdiyi məlumatlara görə XX əsrin 70-ci illərinin ortalarınadək Tartu şəhərində eston və rus məktəbliləri, müxtəlif mənbələrdən istifadə etsələr də, çox fərqli informasiya dünyasına malik idilər ki, onların çoxusunda dəyərlərə bələdlik və həyat tərzlərinin müəyyən edilməsində fikir ayrılığı var idi (A.Mudrik).

Sosiallaşma prosesində KKV təsiri ilə insanın özünü dəyişməsi müxtəlif istiqamətlərdə gedərək, həm müsbət, həm də mənfi yönüm ala bilir. Son zamanlarda KKV-nin insanın özünü realizə etməsi sahəsinə çevrilməsi fikri güclənməkdədir, oxucuların qəzet və jurnallara yazılması kimi kütləvi işə dinləyici və tamaşaçıların radio və televiziya verilişlərində birbaşa iştirakını da bura əlavə etmək

olar. Elektron sistemlərin inkişafı kommunikasiya və özünürealizənin çox yeni növünü – insanın bu və ya digər səbəblərə görə onu maraqlandıran tərəfmüqabilləri ilə qarşılıqlı münasibətini qurmaq imkanı yaratmışdır ki, bu da ona həmfikir tapmaqla və onunla ünsiyyət qurmaqla özünü «göstərməyə» imkan yaradır. Belə ki, bu gün İnternet xəttinə alimdən tutmuş kinofanatlaradək milyonlarla abunəçilər qoşulmuşlar. Onlar arasında ekoloqlar, fanatlar və elektron mühitdə yaranan digər yeni təbəqələr var.

Bundan əlavə, kompyüterin mümkün reallığında olan insanda belə təəssürat yaranır ki, o, onun özü tərəfindən yaradılan hadisələrdə bilavasitə və əsas iştirakçıdır. Bu özünü realizə və özünü təsdiq üçün hədsiz yeni imkanlar yaradır ki, uşaq, yeniyetmə, gənclərdə bu və ya digər özünüdəyişmələrə gətirib çıxara bilir.

Tərbiyə sosial cəhətdən nisbətən nəzarət edilən sosiallaşma kimi uzun müddət KKV-nin nəşriyyat növündən istifadə etmişdir.

XX əsrin ortalarında təlim prosesində kino, başlıcası isə televiziyanın imkanlarından istifadə edilməyə başlandı. Tərbiyə sistemi son dövrlərədək öz qarşısında böyüməkdə olan nəsilləri bütün KKV ilə qarşılıqlı təsirinə hazırlamağı öz qarşısına məqsəd qoyur. Müasir şəraitdə insanın onların daşıdığı şüurlu və digər potensialdan istifadə etmək bacarığına malik olması böyük əhəmiyyətə malikdir. Bununla əlaqədar sosial tərbiyədə xüsusi istiqamətlənmiş mediatəhsil yaranır ki, onu da rus elmində səciyyəsini A.V.Şarikov vermişdir.

**Mediatəhsil** (latın sözündən *media* –vasitə) *–tərbiyə olunanlar tərəfindən kütləvi kommunikasiyanın qanunayğunluqlarının öyrənilməsidir.* Onun vəzifələri: böyüməkdə olan nəsilləri müasir informasiya şəraitlərinə, informasiyanın qəbuluna (insana onu anlamağa öyrətmək

- məlumatları «kodlaşdırmaq», onların keyfiyyətini tənqidi qiymətləndirmək), onun psixikaya təsiri fəsadlarını dərk etmək, texniki vasitələrin köməyi ilə imzasız kommunikasiya formaları əsasında ünsiyyət üsullarına yiyələnməyə hazırlamaqdır.

Mediatəhsil məktəblərində təhsil ənənəvi fənlər çərsivəsində (ana dili, təsviri incəsənət, tarix, sosial elmlər, ekologiya və s.), xüsusi fənlərin salınması ilə həyata keçirilir. Müxtəlif ölkələrdə bu müxtəlif cür adlanır, lakin eyni məzmuna malikdir. Onu çox zaman «Kommunikasiya haqqında anlayış», «Məlumatın verilməsinin işarəli sistem və üsulları anlayışı», «Kütləvi kommunikasiya və onun qanunauyğunluqları», «Kütləvi kommunikasiya vasitələri və onların xüsusiyyətləri», «Reklam» və s. kimi adlandırırlar. Son zamanlarda mediatəhsilə kompyüter savadı təlimi də qoşulmuşdur.

Mediatəhsil sisteminin yaradılması – uzunmüddətli və baha başa gələn prosesdir. Lakin bu gün əldə olan imkanlar bu məsələlərin həllinə, ilk növbədə məktəbdə başlamağa imkan verir.

### *Suallar*

1. Kosmosu dərkolunmaz reallıq olmaqla sosiallaşmanın meqaamili kimi izah edin.
2. Böyüməkdə olan nəsillərin sosiallaşmasının qlobal prosesləri və problemləri hansılardır və onlar necə təzahür edir?
3. Ölkəni hansı xüsusiyyətlərinə görə sosiallaşmanın makroamilinə aid etmək olar.
4. Etnosun mentaliteti nədir və onun insanın sosiallaşmasına təsirini izah edin.

5. Azərbaycan cəmiyyətində baş verən sosial prosesləri və onlarla əlaqədar olan dəyişiklikləri xarakterizə edin.

6. Respublikamızdakı bu günki reallıqlar nəsillərarası münasibətlərə necə təsir göstərir?

7. Tərbiyəni sosial institut kimi səciyyələndirin.

8. Müasir mərhələdə respublikamızda mövcud olan dövlət tərbiyə sistemini və onun problemlərini xarakterizə edin.

9. Yaşadığınız regionu sosiallaşmanın mexanizmi kimi səciyyələndirin.

10. Regional siyasətin tərbiyə sahəsində mühüm məsələləri hansılardır?

11. KKV–nin insanın həyatına və inkişafına təsiri fikirlərini izah edin.

12. Müxtəlif tipli tərbiyə müəssisələrində media təşkili üsullarını səciyyələndirin.

**Mövzunun dərindən öyrənilməsi üçün**

1. Kosmos və insan onun zərrəciyi kimi.
2. Qlobal münaqişələr və onların kəskinləşməsi və həlli perspektivləri.
3. Sosiallaşma prosesində milli dilin rolu.
4. Cəmiyyətin sosial quruluşu və yerli şəraitdə onun xüsusiyyətləri.
5. Sosiallaşma prosesində cəmiyyət və dövlətin qarşılıqlı əlaqəsi.
6. Region, kənd, şəhər, qəsəbənin məskunlaşma tipi kimi cəmiyyətin həyatında və insanın sosiallaşmasında onların rolu.
7. Konkret məskunlaşma tipində sosiallaşmanın xüsusiyyətlərinin səciyyəsi.

8. KKV məhsullarının şəhər əhalisi tərəfindən işlədilməsinin tədqiqi.

### *Müstəqil iş üçün ədəbiyyat siyahısı*


1. Галагузова Ю., Сорвачева Г., Штинова Г. Социальная педагогика. Практика. М., 2003.

2. Комарова М.С. Введение в социологию. М., 1994.

3. Кон И.С. Психология ранней юности. М. 1989.

4. Кон И.С. Ребенок и общество.М., 1988.

5. Левичева В.Ф. Молодежный Вавилон. М., 1989.

6. Мардахаев Л. Методика и технология работы социального педагога. М., 1999.

7. Мудрик А.В. Социальная педагогика. М., 2002.

8. Смелзер Н. Социология. М., 1994.

9. Технология социальной работы.М., 2003.

10. Филонов Г. Социальная педагогика. М., 1995.

11. Чижевский А.Л.Физические факторы исторического процесса. Калуга, 1994.

12. Шариков А.В. Ребенок и его информационное окружение. М., 1992.

13. Шариков А.В. Медиа – образование, Российская педагогическая энциклопедия. М., 1993, т.1.


### *Azərbaycan dilində*


14. Abdulov R. Aktual sosial problemlər və viktimoloji proseslər. //Azərbaycan məktəbi, 2004, №2.

15. Abdulov R. Məktəbdə sosial-pedaqoji işin əsasları. «Adiloğlu», Bakı, 2005.

16. Abdulov R. Sənin sosial fəallığın. Bakı, 2002.

17. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyət formalaşması problemi. Bakı, Avropa, 2005.

18. Ağayev.Ə. Həyatın astanasında. Bakı, 1983.

19. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiyanın aktual məsələləri. Nəzəriyyə. Metodika. Axtarışlar. Bakı, 1998.

20. Quliyev S.M. Ailə pedaqogikasının ümumi problemləri. Bakı, «Nurlan», 2005.

21. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı, Maarif, 1982.

22. Quliyev S.M. Tərbiyə işinin metodikası. Bakı, Maarif, 1991.

23. Əlizadə H. Sosial pedaqogikanın aktual problemləri. Bakı, Maarif, 1998.

24. Əlizadə H. Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, 1993.

# FƏSİL 3. MÜHİT VƏ ŞƏXSİYYƏTİN SOSİALLAŞMASI

## 3.1. Ailə şəxsiyyətin tərbiyəsi və inkişafının sosiomədəni mühiti kimi

Hər bir sosial pedaqoq və işçinin fəaliyyətinin obyekti uşaq şəxsiyyətidir. Uşaq ailədə dünyaya göz açır, ilk gündən birgəyaşayış normalarını mənimsəyir, öz ailəsindən yaxşını və pisi, ümumiyyətlə o ailəyə xas olan hər şeyi götürür, böyüdükdə ailəsində də valideyn ailəsində gördüklərini təkrar edir, böyüyür, sosiallaşır. Ailədə uşağın ətraf aləmə münasibəti tənzimlənir, o, mənəviyyat, mədəni davranış normaları təcrübəsi qazanır.

Ailə cəmiyyətin sosial özəyidir. O, hər bir insanın həyatında xüsusi yer tutur.

Dövlətin vəziyyəti ailənin vəziyyətindən asılıdır. Ailədə valideynlər və uşaqlar arasında mənəvi bağılılıq var (S.Quliyev). Ailənin mənəvi mədəniyyəti cəmiyyətin mənəvi mədəniyyətini əks etdirir. Ailənin iqtisadi durumu da cəmiyyətin iqtisadi durumunu müəyyən edir.

Sosial vəzifə yerinə yetirməklə ailə öz mədəni, sosial və mənəvi səviyyəsinə uyğun şəxsiyyət formalaşdırır. Ailənin yaşayış şəraiti və tərzi, gigiyenası, həyat xüsusiyyətləri və əyləncəsi - bir sözlə hər şeyi dövlətin sosial siyasətindən irəli gəlir.

Ailədə sosiallaşma ailənin tərkibindən asılıdır. Bu gün artıq böyük ailələr, nənə, baba, dayı, əmi, bibi, xalalarla birgə yaşayan ailələr yoxdur.

Şəxsiyyətin ailədə sosiallaşması ailə daxilindəki münasibətlərdən, valideynlərinin nüfuzu və rəhbərliyindən asılıdır.

Müasir ailəyə cəmiyyətdəki bütün dəyişikliklər; biliyin texnologiyasının və məlumatların toplanması və sistemin

yenidən qurulması, siyasi və iqtisadi sistemin böhranı kimi ən iri dəyişikliklər də təsir göstərir.

Klassik formula ailəni - sosial institut kimi, insanların nigah birliyi, məişət ümumiliyi və qarşılıqlı məsuliyyətlə müəyyən edir.

*Nigah* - kişi ilə qadın arasındakı münasibətlərin tarixən dəyişən sosial formasıdır. Nigah cinsi həyatı tənzimləyir və onların ər-arvad münasibətlərini, qohumluq hüquqlarını və vəzifələrini, ailə qurmaq, uşaqların dünyaya gəlməsi və tərbiyəsi məqsədini müəyyən edir.

Nigah bağlanarkən nigah sazişi tərtib edilir ki, bu da ərlə arvadın qanunvericilik çərçivəsində əmlak münasibətlərini qanuniləşdirir. Nigaha girmək üçün hər iki tərəfin razılığı olmalıdır.

Respublikamızda mövcud nigahın xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- Tək nigahlılıq, hər bir vətəndaş yalnız bir nigahda ola bilər;
- Mövcud boşanma sərbəstliyi dövlətin nəzarətindədir;
- Uşaqların tərbiyəsindəki vəzifələri;
- Ailə üzvlərinin maddi və mənəvi müdafiəsi;
- Ana və uşağın dövlət tərəfindən mühafizəsi;

Ailə sosial isntitut kimi bir sıra mərhələlərdən keçir. Bunlar:

- nigaha girmə;
- ilk uşağın dünyaya göz açması;
- son uşağın dünyaya göz açması;
- «boş yuva» - son uşağın ailədən ayrılması;
- ərlə arvaddan birinin ölümü ilə nəticələnən ailə sonluğu. Hər bir insan üçün iki ailə mövcuddur: biri özünün boya-başa çatdığı, digəri özünün yaratdığı və yaşadığı ailə. Ailə – insanın yaşamaq üçün yaratdığı intim mühitdir. Ailə üzvləri qan qohumluğu ilə bir-biri ilə bağlı olub, həm sağ,

həm də dünyasını dəyişmiş yaxın və uzaq, məlum olan və olmayanları birləşdirir.

Ailə – cəmiyyət vahidi olub, normal cəmiyyət inkişafı prosesində daim diqqət tələb edir. Ailənin mövcudluğu şərtlərindən biri ailədəki qarşılıqlı münasibətlərdir: uşaqlar necə dünyaya gəlir və tərbiyə edilir, təsərrüfat necə qurulur, ailənin bütün üzvlərinin maraqları necə öyrənilir; anlaşma, hörmət, dayaq qarşılıqlı münasibətlər necə müəyyən edilir; qohumların səhhəti, onların xarakteri və davranışları necə öyrənilir.

Ailədəki qarşılıqlı münasibətlər ünsiyyət ənənələrindən, cəmiyyətin iqtisadi və sosial vəziyyətindən, ailənin cəmiyyətdən asılılığı, ərlə arvadın ailə təsərrüfatını necə aparmasından, ictimai istehsaldan, ailə tipindən, çoxuşaqlı ailə, uşaqsız ailə, kimin hökmranlıq etməsindən, şəxsi keyfiyyətlərdən, qohumların xarakterindən asılıdır.

Ailənin inkişafı bir neçə mərhələdən keçir.

*Birinci mərhələ* – ailənin ilkin yaranması, çox hallarda gənclər böyük ailədən ayrılıb başqa yerə köçürlər.

*İkinci mərhələ* - uşağın dünyaya gəlməsi ilə ailə iki nəsildən ibarət olur.

*Üçüncü mərhələ* – ailə üç nəsildən ibarətdir, böyük uşaqlar da öz ailələri ilə yaşayırlar. Valideynlər öz uşaqlarının qohumları, dostları ilə münasibətə girir, onların qohumlarına çevrilir. Bu mərhələdə ailə ya dağılır, ya da genişlənir.

*Dördüncü mərhələdə* - hamı yerindədir, uşaqlar öz ailələrini qurmuş, valideynlər isə təqaüdə çıxır. Bu zaman ailə əməkdaşlığı möhkəmlənir, uşaqlar öz valideynlərinə dayaq olur.

*Beşinci mərhələ* - ailə üzvlərinin qayğıya ehtiyacı olan dövrüdür. Qayğı çəkmək orta nəslə düşür, çünki

onların səhhəti boşanmış qızlarının uşağına baxmağa imkan verir, qocalara sığınacaq verə bilir, oxumağa gedənlərə kömək edə bilir, işsizlərə qayğı göstərə bilirlər.

Yaşa dolmuş və ya xəstə valideynlərə qayğı –ailənin bu mərhələsinin ən mühüm vəzifəsidir. Burada ən çox stres və münasibətlərdə gərginlik hökm sürür. Yaşlı nəslin ölümü ilə ailədə rollar dəyişir, digər nəslə ötürülür.

*Altıncı mərhələ* – ailə dövriyyəsinin son tamamlayıcı həlqəsidir. Ailənin təzə başçısının yaranması ilə yeni ailə yaranır, ilk özək davam edir, çünki ailədə nəsillərin qırılmaz əlaqəsi mövcud olaraq qalır.

Ailə kollektivçiliyi anlayışı da mövcuddur ki, bu da ailə daxili münasibətlərdən asılıdır, burada ailə qarşıdurması, ərlə arvadın qarşılıqlı ittihamı yoxdur, ailəni və hər bir üzvünün qayğı və məsuliyyəti mövcuddur, uşaqlar böyüklərə kömək edir, əmək böyüklər üçün həyati tələbatdır, burada vicdanlılıq, əməksevərlik qiymətləndirilir, ailə büdcəsi problemləri birlikdə həll edilir. Münaqişələr tez bir zamanda həll edilir. Belə ailənin yaradılması – böyüklərin əməyidir, ailədəki böyüklərin təsiridir ki, uşaqlar münasibətlər ənənələrinə və normalarına riayət edirlər.

Ailə daxili münasibətlərə valideynlərin istehsalatdakı nailiyyətləri, onların ictimai həyatdakı rolu və statusu təsir göstərir.

**Ailənin vəzifələri** Ailənin ən başlıca vəzifəsi reproduktivlikdir, əhalinin bioloji cəhətdən təkrar istehsalıdır. Bu başlıca vəzifədir (A.Q.Xarçev), lakin bundan başqa da bir çox sosial vəzifələr mövcuddur. Bunlar:

- *tərbiyəedici* – gənc nəslin sosiallaşması;
- *təsərrüfat - məişət* - ailənin fiziki durumunun saxlanması, uşaq və yaşlılara qayğı;

- *sosial nəzarət* - ailə üzvlərinin cəmiyyətdəki, müxtəlif sahələrdə davranışındakı məsuliyyəti, ərlə arvad, valideyn və uşaqlar, böyük və kiçik nəsil arasındakı borc hissi;

- *mənəvi ünsiyyət* – ailənin hər bir üzvünün mənəvi zənginləşməsi;

- *sosial statusu*- ailə üzvlərinin cəmiyyətdə müəyyən sosial vəziyyət qazanması;

- *istirahət etmək* - səmərəli istirahətin təşkili, ailənin hər bir üzvünün maraqlarının qarşılıqlı zənginliyinin inkişaf etdirilməsi; ailənin hər üzvünün psixoloji müdafiəsinin həyata keçirilməsi, şəxsiyyətin hissi sabitliyinin təşkili, psixoloji terapiya (Y.Vasilkova,T.Vasilkova).

*Ailənin sosial vəzifəsi.* Şəxsiyyətin sosial müdafiəsinə qalxmış, istənilən dövlətdə bu iş ailənin müdafiəsi vasitəsilə həll oluna bilər. Ailə cəmiyyətin mühüm sosial özəyi kimi nəsillərin tərbiyəsini, idrak, əmək fəaliyyətini tənzimləyir.

Ailənin statusu ata və ananın davranışından, onların uşağın tərbiyəsindəki rolundan asılı olur. Ailə uşağı cəmiyyətə çıxarır, məhz ailədə uşaq sosial tərbiyə alır, şəxsiyyət olur. Ailədə onun sağlamlığı möhkəmlənir, onun imkan və qabiliyyətləri inkişaf etdirilir, onun təhsili, əqli inkişafı, vətəndaş tərbiyəsi qayğısına qalırlar, onun taleyi və gələcəyi həll edilir.

Ailədə uşaq zəhmətə alışır, peşə seçir, gənclər ailə həyatına hazırlanır, öz ailələrinin ənənəlirini davam etdirirlər.

## 3.2. Müasir ailə və onun problemləri

Ailə - bir «evdir» ki, insanları birləşdirir, burada insani münasibətlərin, şəxsiyyətin ilkin sosiallaşmasının əsası qoyulur.

**Ailədaxili münasibətlər** Qohum olan insanlar ailədə daim münasibətlər prosesində olur və bu münasibətlərin vəziyyəti ailənin hər bir üzvünün temperament və xasiyyətindən asılıdır. Ailə birliyi o zaman möhkəm olur ki, burada maraqlar, zövqlər və tələbatlar ümumiliyi olsun. Ailənin normal olması təkcə hər iki valideyn və uşağın olması deyil, burada hökm sürən münasibətlərin səmimi, təmiz, məhəbbətlə dolu və qarşılıqlı anlaşma ilə olmasıdır.

Valideynlərin uşaqlara biganəliyi onlarda tənhalıq hissi yaradır və uşaqlar kənarda özlərinə sirdaş axtarırlar, bəziləri isə mütaliyə edir, tikiş tikir, idmanla məşğul olur, dostlar axtarırlar.

Ailədə, onun üzvləri arasında rollar mövcuddur. Ailə rolu – insanın cəmiyyətdəki ən mühüm rollarındandır. Bu ər-arvadlıq, valideynlik (ana, ata), uşaq rolları (qız, oğlan, bacı, qardaş), nəsillərdir (nənə, baba).

Ailədə rollar münasibəti, bu və ya digər rolun yerinə yetirilməsi və ya yetirilməməsi münaqişələrə gətirib çıxarır. Bu çox zaman ailədə nəsillərin çoxluğundan yaranır ki, orta nəsil olan ərlə arvad həm uşaq, həm ər-arvad, həm də valideyn olurlar (L.Mardaxayev).

Münaqişələr o zaman yaranır ki, rollardan biri özündə zidd olan tələbləri əks etdirir. Məsələn, əgər qadın ailədə həm ana, həm həyat yoldaşı, həm evin xanımı, həm uşaqların tərbiyəçisi olub, həm yaşlı valideynlərə baxır, eyni zamanda ərlə birlikdə ailəni maddi cəhətdən təmin edir. Münaqişə o zaman daha da dərinləşir ki, qadın sosial və ya peşə sahəsində daha yüksək statusa

malik olur. Burada həyat yoldaşları öz rollarını dəyişməyə məcburdurlar. Münaqişələr cavan qadının ya uşaq dünyaya gətirmək istəməməsi, ya da ev təsərrüfatını idarə edə bilməməsi ucbatından yaranır.

Ailə münasibətlərində ana və ata anlayışları da mövcuddur. Ata – övladla ata arasındakı qan qohumluğudur. İnsan bioloji varlıq kimi təkcə anasından deyil, atadan da asılıdır. Uşağın ata ilə anasına oxşarlığı mövcuddur: saçının rəngi, gözləri, bədən quruluşu, bədən üzvlərinin vəzifələri və s.

Qabiliyyətlərin əsası, imkanlar genetik olaraq yaranır. İrsi olaraq xəstəliklər, ata və ananın adətləri, spirtli içkilərə, narkotiklərə, meyllilik uşağa keçir. İnsanın nigaha girməsinin başlıca səbəbləri onun: «ata olmaq istəyi», «uşaq böyütmək», «elə insanla hyatda yanaşı olmaqi istəyirəm ki, mənə həmişə dayaq olsun» istəyidir.

Qadın öz ərini səmimi, hörmətcil, qayğıkeş, cəsarətli, ağıllı bir insan görmək istəyir. Kişilər də öz növbəsində öz həyat yoldaşlarını səmimi, incə, ağıllı, qayğıkeş, gözəl və qamətli görmək istəyir.

Lakin ailə qurduqda narazılıqlar yaranır. Kişi də, qadın da narazı ola bilər. Hər şey qurulmuş ailə «model»indən asılı olur, əgər toydan sonra bu «model» dağılarsa, boşanma baş verir.

Statistik məlumatlara görə boşananlardan 27%-i təkrar nigaha girir və onların 56%-i xoşbəxt ola bilir.

Tədqiqatçılar sübut edir ki, 85% kişiləri ailə həyatına heç kim hazırlamır, 15%-i evdə az da olsa, 59% qadınları heç kim hazırlamır, 34%-ni «valideynləri» az da olsa hazırlayır, 7%-ni –məktəb hazırlayır.

Qadınların (60%) və kişilərin (77%) əksəriyyəti münaqişələrin qaçılmaz olduğunu bildirirlər. Münaqişələrin səbəbi - ərlə arvadın ailə həyatına hazır olmaması,

onların bu sahədə müəyyən tərbiyə almamasıdır (Y.Tixomirova).

Boşanmaların təşəbbüskarı çox zaman qadınlar olur. Nəzərə alsaq ki, kişilərdən fərqli olaraq qadınlar həm cəmiyyətdə, həm ailədə böyük «yük» daşıyır, boşanmadan sonra onun işi daha da çətinləşir, o, tək qalır, maddi durumu pisləşir, uşaqların tərbiyəsi vəzifəsi təkcə onun üzərinə düşür.

Xoşbəxt ailənin sirri nədədir? İlk növbədə əgər ərlə arvadda ümumi olan çox şeyin, ilk əvvəl isə ailənin qurulması haqqında ümumi prinsiplərin; ikincisi – ailədə sayı ikidən az olmayan uşaqların, uşaqların dostlarının və ailənin dostlarnını mövcudluğundadır.

**Ailə tipləri** Ailə tiplərini araşdırmaq üçün ən geniş yayılmış, bir neçə nəsildən ibarət müasir ailəyə müraciət edək. Bu ailədə həm uşaqlar, həm də ata və ana xəttilə babalar və nənələr birlikdə yaşayır. Lakin indi bir çox hallarda uşaqlar bir ailənin qohumluq münasibətlərini, məsuliyyət hissi və nəsillərin həmrəyliyini saxlayaraq ayrı yaşayır.

Həm də bir neçə nəslin nümayəndəsi yaşayan ailələr də mövcuddur ki, bu da uşaqların hər hansı uğursuzluqdan sonra evə dönməsidir. Ailənin sonbeşiyi olan uşaqlar ailədə öz valideynləri ilə yaşamağa məcburdurlar, həm özlərinin mənzil problemlərini həll edə bilmir, həm də bu bizim xalqın mentalitetindən irəli gəlir. Belə ailə bir neçə nəslin qan qohumluğu ilə xarakterizə edilir ki, ayrı yaşamaq olsa da ailəyə bağlılıq, birlik hissi onlarda güclüdür (H.Əlizadə).

Müasir şəraitdə ən geniş yayılmış *nuklear* ailə tipidir ki, bu ər, arvad, uşaqlardan, 3-4 nəfər ailə üzvü olan tərkibdə olur. Bu ailədə uşağın tərbiyəsi və təlimini məktəb və məktəbəqədər müəssisələr öz üzərinə götürür. Onlar ailəni əvəz etməklə şəxsiyyətin sosiallaşması

problemini həll edirlər. Bu ailədə ailə üzvlərinin rolları dəyişir. Belə ki, müasir şəraitdə qadının cəmiyyətdə rolu artmışdır.

*Cavan ailə* – bu ərlə arvaddan ibarət olub, uşaqlı və ya uşaqsız, ilk nigah olub, 5 il müddətinə davam edən, ərlə arvadın yaşı 30-u keçməyən ailədir. Son illərdə belə ailələr artır, ailə quranların yaş həddi 21-24-ə çatır.

Bir çox belə ailələr valideynləri ilə yaşayırlar, çünki onların maddi və mənzil çətinliyi mövcuddur. Bu tələbə ailəsidir ki, onların problemləri ilə sosial pedaqoq məşğul olur.

**Natamam ailə** - bu bir valideynli ailə olub, son illərdə sayı artmaqdadır. Belə ailələrdə valideyn anadır, nadir hallarda ata olur. Amerika tədqiqatçıları aşkar etmişdir ki, 2,8% ailələrdə ata övladı tək böyüdür. Belə ailə boşanma nəticəsində yaranır, valideynlərdən birinin ölümü ilə və ya nigahdan kənar doğulan uşaq olduqda əmələ gəlir. Belə ailələrin dövlət qayğısına ehtiyacı var. Yetkinlik yaşına çatmamış qızlar öz uşaqlarını yoxsulluq içində böyüdür.

**Nigahdan kənar ailə** nigahdan kənar uşaq dünyaya gələrkən yaranır ki, maddi çətinlikdən başqa cəmiyyətin də kəskin münasibəti ilə üzləşir. Ona görə də ana uşağa erkən yaşlarından hər şeyi başa salmalıdır. Ata belə uşağın tərbiyəsində iştirak etmir, çox zaman buna ana razılıq vermir.

**Təkrar nigahdan yaranan ailə** - bu hər iki valideynin olduğu ailədir, lakin burada ümumi uşaqlarla yanaşı əvvəlki nigahdan olan uşaqlar da var. Hərdən onlar bir yerdə, bəzən atanın əvvəlki uşaqları ilə, bəzən də ananın əvvəlki nigahdan olan uşaqları ilə yaşayırlar.

Belə nigahlar XIX əsrdə çox az idi, lakin XX əsrdə, xüsusilə də Böyük Vətən, Qarabağ müharibəsindən sonra və son dövrlərdə onlar geniş yayıldı. Belə ailələrin: atalığın əmlakına varis çıxmaq, ögey ana ilə uşaqların

münasibəti, onların qarşılıqlı anlaşması kimi problemləri mövcuddur.

Belə ailələrdə əvvəlki nigahın səhvlərinə yol verməmək üçün valideynlər bir-birinə daha möhkəm bağlıdır. Belə ailədə həyəcanı ilk nigahdan olan valideynlərdən birinin ölümü yaradır. Uşaqlar itkini çox pis keçirir, yeni ata və ya ana ilə münasibətləri korlanır.

Həyəcanlı anları doğma atanın və ya ananın qohumları, nənə və babanın görüşləri yaradır. Belə vəziyyətlər sosial pedaqoqun köməyini tələb edir.

Belə ailələrlə iş üçün psixoloji, klinik, təhsilverici və sosial proqramlar lazımdır. Unutmaq olmaz ki, belə ailədə hər bir üzvün yeni həyata, yeni münasibətlərə uyğunlaşması prosesi gedir. Bu zaman ailənin hər bir üzvünün problemlərinə diqqət və qayğı tələb olunur.

Belə ailənin valideynləri ilə iş aparan sosial işçidən vaxtı, yeri və pulu, qəbul olunmuş uşaqlara xərcləri və onlarla münasibətlərə diqqət yetirməyi tələb edilir.

Qəbul olunmuş uşaqlar xüsusi diqqət tələb edir ki, bu da onların maddi və mənəvi vəziyyəti nəzərə alınmaqla onlarla xüsusi proqram üzrə həm təhsil, həm də tərbiyə işi aparılmasından ibarətdir.

Ailədə valideynlərdən birinin itirilməsi ailədə uşaqların yetim qalmasına səbəb olur. Ailə dərdi onun üzvlərini birləşdirir, bir-birinə qayğını artırır. Yaxınlarına qayğı uşaqda müsbət keyfiyyətlərin tərbiyə olunmasına təsir göstərir. Çox zaman itirilmiş valideynin xatirəsi anılır, əziz tutulur.

**Ailə zorakılığı** Müasir ailədə qəddarlıq təzə problem deyildir. Bu sosial təzahür olub, emosional, fiziki və seksual təcavüzdür.

Qəddarlıq çox zaman ailənin yaşlı üzvlərinə qarşı törədilir: onların atılması, ailədən ayrılması, pis qidalanması, baxımsız qalmalarıdır.

Ərlə arvad arasındakı qəddarlıq ərin arvadını döyməsində özünü göstərir. Statistika göstərir ki, ailədə ölüm çox zaman qadının qurban getməsi ilə nəticələnir.

Ər-arvad qəddarlığı 20-30 yaş həddi arasında, aşağı səviyyəli təhsil və gəliri olan, fəhlə ailələrində, hətta ali təhsilli ailələrdə də baş verir.

Tədqiqatçılar sübut edir ki, qəddarlığın qurbanı çox zaman ərdə olmayan qadınlara qarşı nigahsız yaşadıqları insan tərəfindən törədilir. Bir çox qurbanlar əqli və fiziki qüsura malik, ailədən asılı olanlardır. Onlar özlərini qida, dərman, şəxsi gigiyena, ambulator kömək ilə təmin edə bilmirlər. Çox zaman bunlar 75-dən yuxarı yaşı olan, yatağa məhkum olanlardır.

Əksər hallarda zorakılığa qadınlar 40-50, kişilər 40-60 yaşlarda yol verirlər.

Ailə zorakılığı sosial amillərlə, ailədə stresin yaşanması, spirtli içkilərin və ya narkotiklərin qəbulu ilə yaranır. Fiziki təsirlərə çıxış yolu tapılmadıqda, ər sərxoşluq etdikdə və ya narkotik maddələr qəbul etdikdə yol verilir. Ailə zorakılığının səbəbləri haqqında müxtəlif fikirlər var. İnsan təbiətinin mürəkkəbliyindən irəli gəldiyindən onun yeganə səbəbini aşkar etmək çox çətindir. Feministlərin fikrincə qadınlara qarşı zorakılıq halları qadınlar kişilərdən asılı olana qədər davam edəcək.

**Din və ailə** İslam dininin qəbulu ilə Azərbaycanda ailə tərbiyəsi cəmiyyətin sosial problemlərindən birinə çevrilir.

«Qurani-Kərim»də ailənin müqəddəsliyi, anaya, qadına, valideynlərə, böyüklərə hörmət ən başlıca fikirdir. Uşağın dünyaya gəlməsi, onun düzgün tərbiyəsi ailənin ən ümdə vəzifəsidir. Uşağın valideynlərinə hörmət etməsi, cavab qaytarmaması, onların üzünə ağ olmaması valideynlərini həmişə uca tutması, sağlığında və dünyalarını dəyişdikdə də onları yad etməsi, bacı, qardaş, nənə,

baba səmimiyyəti, xəstə və əlil insanlara yardım edilməsi və s. ailə tərbiyəsinin başlıca vəzifələrindəndir.

Bir çox valideynlər öz uşağının tərbiyəsindən o qədər razı olurlar ki, ondakı naqisliyə gözləri yumulur, uşaqlarının pis əməlləri, pis tərbiyəsi haqqında deyilənləri də qulaq ardına verirlər. Sonradan bunun əziyyətini çəkirlər. Digər valideynlər isə uşaqlarının pis əməllərini ört-basdır edir, düşünürlər ki, uşaqdır, böyüyər və ağıllanar.

Uşağın Allah haqqında, peyğəmbərlərimiz haqqında, onların həyatı və fəaliyyəti, əməlləri haqqında məlumat ana vasitəsilə, bir çox hallarda ata vasitəsilə çatdırılır. 7 yaşda uşağın tərbiyə mühiti dəyişilir. 7 yaşadək uşağa ancaq ailə və yaxınlar təsir göstərə bilirsə, 7 yaşdan sonra ailə öz nüfuzunu və uşağa təsirini itirə bilər.

Müsəlman ailəsində uşağın allaha yaxın olması onun ibadətləri, namaz qılması ilə, oruc tutması, düz əməl sahibi olması ilə şərtlənir.

**Ailə böhranı** Sovetlər dönəmində SSRİ dövləti başçılarının apardığı dağıdıcı islahatların nəticələri, qəddar qonşular – rusların havadarlığı ilə ermənilər tərəfindən törədilən vəhşiliklər ailələrdə özünü çox pis nəticələrlə büruzə verdi. Bu siyasətin nəticəsi olan iqtisadi böhran ailənin də vəziyyətini pisləşdirdi. Ölüm halları artdı, nigahlar və doğum azaldı, insanlar yurd-yuvasından didərgin düşdü, illərlə yaratdıqları, topladıqları hər nə varsa hamısını erməni qəsbkarları talan etdi.

İşsizlik, ərzaq məhsullarının keyfiyyətsizliyi, bahalığı, kommunal xidmətlərin artması, mənzillərin və torpaq sahələrinin qiymətinin günü-gündən qalxması uşaq və yeniyetmələrin avara, tüfeyli həyat tərzi sürməsi, evsizliyə, sərxoşluğa, narkomaniyaya, psixoloji münaqişələrə gətirib çıxardı.

Müasir ailə hər şeydə, eyni zamanda qida qəbulunda da özünə qəsd edir. Varlılar və kasıblar təbəqəsi kəskin fərqlənir. Əhalinin qaçqın və köçkün təbəqəsi yoxsulluq həddindədir. Bu özünü çox uşaqlı ailələrdə büruzə verir. Müharibə əlillərinin ailəsi, ailə başçısını itirmiş ailələr çox böyük çətinliklərlə üzləşirlər.

Natamam ailələrdə böyüyən nigahdan kənar doğulan uşaqların sayı günbəgün artır, valideynlər öz uşaqlarının tərbiyəsindən boyun qaçırır, biganəlik artır, kriminal durum güclənir.

Yenidənqurma dövründə uşaqlarla aparılan işlər, mədəniyyət evləri, pioner saraylarının fəaliyyəti heçə endirildi.

Dövlət ailəyə əsil və tam köməkdən kənarda qaldı. Dövlət tərəfindən qadın məsləhətxanalarının, doğum evlərinin, uşaq evləri, məktəbəqədər müəssisələrin maddi təminatı azaldıldı. Ən çətin vəziyyət natamam, uşaqları həddi–büluğa çatmayan ailələrdə yarandı.

Mənəviyyatın pozulması, sərxoşluğun, narkomaniyanın, əxlaqsızlığın artması, ailəni təmin etməyin çətinliyi boşanmalarla nəticələnir. Səbəb- sosial, həm də iqtisadidir. Ailə dəyişmişdir. Təkcə maaşla dolana bilməmək ailənin bütün üzvlərini işləməyə məcbur etmişdir. Ailə böhranı dünyanın hər yerində özünü göstərir. Bu zaman əziyyət çəkən, çətin vəziyyətdə qalan uşaqlardır.

**Müasir ailəyə kömək**

Dövlət ailəyə hər cür qayğı göstərməklə öz köməyini ondan əsirgəmir. Çox uşaqlı, başsız qalmış, övladı müharibədə şəhid olmuş ailələrə müavinətlər verilir, tənha qalmış, ahıl insanların təqaüdləri hər il artırılır. Kimsəsiz, atılmış uşaqlara qayğı günbəgün artılır, uşaq və yaşlılar evlərinin təmiri, onların müxtəlif geyim və ərzaq malları ilə təchizi, onlara bayram sovqatlarının paylanması, şənliklərə, iftar süf-

rələrinə dəvət olunması və s. ayrı-ayrı imkanlı insanlar tərəfindən xeyriyyəçilik işləri aparılır.

Uşaq və yeniyetmələr üçün küçə və meydanlar, futbol meydançaları, əyləncə mərkəzləri, su parkları, idman kompleksləri, gimnaziya, xoreoqrafiya; xəstə, əlil, əqli cəhətdən zəif inkişaf etmiş, kor və s. uşaqlar üçün xüsusi evlər, mərkəzlər fəaliyyət göstərir.

İmkansız, maddi durumu çətin olan ailələrin uşaqları uşaq evlərinə verilir. Belə ailələrdə sosial pedaqoq valideynlərlə iş aparmağı xüsusi nəzərdə tutur. Valideynlərlə təmas fərdi bərpaedici işi hazırlayıb həyata keçirməyə imkan verir.

### 3.3. Müasir şəraitdə uşaqların müdafiəsi

Uşaqlıq dövrü necə səciyyələndirilir? İlk növbədə bu uşağın fərdi, ikincisi onun cəmiyyətdə inkişafı prosesidir, daha dəqiq cəmiyyətin uşaqlar haqqında qayğısıdır.

Uşaqlıq dövrünə də böyük insanın həyatı kimi inkişaf prosesi xasdır. İnsanın böyüməsində uşaqlıqda əsası qoyulmuş hər şeyin mühüm əhəmiyyəti var.

Uşağın yaş dövrləri onunla səciyyələnir ki, hər bir mərhələdə xüsusi fiziki yetkinlik, müəyyən idraki inkişaf, sosial həyatın təcrübəsi, müəyyən əxlaqi görüşlərin yaranması baş verir.

Yaş ötdükcə uşağın sosial təşəkkülü baş verir ki, bu da ilk növbədə ailədən asılıdır. Ona görə də ailənin cəmiyyət qarşısında məsuliyyəti böyükdür.

Uşaqlar arasında ölüm hallarının çoxalması, dünyaya gələn uşaqların sayının azalması, şikəst uşaqların sayının artması – dünya üzrə baş verən müasir iqtisadi və siyasi böhranın nəticəsidir. Uşaq və yeniyetmələr ölkə əhalisinin daha az müdafiə olunanları sırasındadır.

Uşaq və yeniyetmələrin real dövlət müdafiəsinin olmaması onların davranışı, fəaliyyəti, ünsiyyətində özünü göstərir, onları cəmiyyətə zidd davranışa, pula hərisliyə, cinayətkar əməllərə sövq edir.

Təhsilin böhranı, məvacibin aşağı olması ucbatından əsil pedaqoji kadrların başqa sahələrə axını, məktəbin ictimai proseslərdən kənarda qalması baş verdi ki, bu da böyüməkdə olan gənc nəslin təhsil və tərbiyəsi işinə ciddi ziyan vurdu.

**Sosial yetimlik** Sosial yetimlik - sosial hadisə olub, cəmiyyətdə valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olan, valideynlərin öz hüquqlarını itirmiş, naməlum səbəbdən valideyni olmayan uşaqların sayı ilə şərtlənir. Bu həm də həmin uşaqlardır ki, valideynləri hüquqları əllərindən alınmasa da, onların qayğısına qalmırlar.

«Sosial yetimlik» anlayışı ailənin böhranı dövründə, onun mənəvi dəyərlərinin sarsıldığı, kütləvi özbaşınalıq dövründə yarandı.

Boşanmaların artması, uşağı valideynlərindən birinin tərbiyə etməsi, nigahdan kənar doğulan uşaqların sayının artması, valideynlərin işsizliyi uşaqların davranışında əyintilərin yaranmasına səbəb olur.

Yetim, kimsəsiz uşaqları xarici vətəndaşlar övladlığa götürməyə başladı. 1992-ci ildən bəri yüzlərlə uşaq xarici vətəndaşlar tərəfindən övladlığa götürülüb. Uşaq evlərinin dağıdılması, internat – məktəblərə çevrilməsi, yetim uşaqların vəziyyətini pisləşdirdi. Bir çox internat-məktəblər ağzınadək dolmuş və yararsız vəziyyətdə idi. Lakin son illərdə H.Əliyev və Dövlət Neft fondu hesabına təmir edilmiş İnternat – məktəblər belə yetim uşaqların sosial problemlərini həll edə bilmir. Həyatda yer, sığınacaq, mənzil tapa bilməməsi, texniki peşə məktəblərinə göndərilməməsi (onların özünün pis vəziyyətdə olması),

müstəqil həyata hazırlıqsız olmaları, iş tapa bilməmək, həmin uşaqları cinayətkarlığa, qanun pozuntularına aparıb çıxarır.

Sosial yetimliyi yaradan səbəblər nədir?

- valideyn hüququndan məhrum olanların sayının artması;
- böyüyən uşaqlarda öz valideynlərini təkrar edərək valideyn hüquqlarından məhrum edilməsi;
- əhalinin yoxsulluq həddinə çatmasıdır.

Belə fakta da rast gəlinir ki, ata və ana öz övladlarından imkansızlıq, eyni zamanda narkomaniya və sərxoşluğa, əxlaqsızlığa qurşanması ucbatından imtina etmişlər:

- ailədə valideynlərin sağlamlığı, fiziki və ya psixi cəhətdən qabil olmaması, bir çoxunun əqli cəhətdən geri qalması uşaqları tərbiyə etməyə imkan vermir;
- normal yaşayış – mənzil şəraiti olmayan ailələrin sayının artması (torpaqlarımızın işğalından sonra respublikamızın bir sıra rayonlarının sakinlərinin öz yurd-yuvalarından didərgin düşməsi, çadır düşərgəsində məskunlaşması) və s.-dir.

*Valideynlərini tərk edən uşaqlar* - bunlar adətən 15-16 yaşda, şəhər və az sayda kənd ailələrindən çıxan uşaqlardır. Onlardan əksəriyyəti oğlanlar, az da olsa qızlar olur. Onlar məktəbdən qaçan, məktəbdən qovulan, müvəqqəti məktəbi tərk edən, məktəbdə oxuyan və ya onu bitirmiş uşaqlardır.

Uşaqlar adətən dağılmış və ya daim dava-dalaş və münaqişələrdə olan ailədən qaçırlar. Sakit ailədən çox nadir hallarda uşaqlar qaçıb öz dostları ilə yaşayırlar.

Tədqiqatçılar uşaqların ailədən getməsi səbəblərini «nədən qaçmaq» və «nəyə doğru qaçmaq» kimi nəzərdən keçirirlər ki, bu da imkan verir ki, getməni uşağın evdə sıxıntı çəkməsi, «əzilməsi» və ya nəinsə axtarışında

olması kimi izah edilsin. Evdən qaçmaların səbəbi – məqsədə çatmaqda həyəcan keçirməsi, ailədəki münaqişələr, ən mühümü—ətraf aləmə can atmalarıdır (Y.Tixomirova).

Belə uşaqlar, xüsusilə yeniyetmələr təhlükələrlə üzləşir, psixi və fiziki cəhətdən tam yetkin olmadığından zorakılığa məruz qalırlar.

Qaçan qızlar hamilə olur, cinsi zorakılığa məruz qalır, onları erkən cinsi əlaqələrə təhrik edirlər. Streslərdən əlavə onlar uşaqların dünyaya gəlməsi ilə ağır şəraitə düşürlər.

*Pis münasibətlərdən əziyyət çəkən uşaqlar* – sosial işçilər ailələrdə uşaqlarla pis, qəddar rəftarın şahidi olurlar. Tibb işçiləri ailədə uşaqlarla pis rəftarın nəticəsi kimi zədələnmələrə rast gəlirlər. «Döyülmüş uşaq sindromu» termini də mövcuddur.

Pis rəftarın günahkarları valideynlərdir, onlardan böyük faizi doğma valideynlərdir. Pis rəftarda qadınlar kişilərdən çox faiz təşkil edir (60% qadınlar, 39% kişilər). Valideynlər və ya onları əvəz edən insanlar uşağa pis baxır, onunla kobud rəftar edir, döyür, təhqir edir, onu zorakılığa məruz qoyurlar. Belə hərəkətlərə qadınlar kişilərdən də çox yol verirlər.

Tədqiqatçılar müəyyən etmişlər ki, pis rəftarın səbəbi valideynlərin şəxsi keyfiyyətləridir.

Belə ailələrdə sosial problemlər kəskin xarakterdədir: ailə natamamdır, valideynlər sərxoşluq edir, narkomandır, dini fanatdır, 17 yaşa çatmamışdır, qaçqın və ya işsizdir, fiziki qüsuru (kar, kor), əqli cəhətdən geri qalır və ya əsəbi, ruhi xəstədir.

Belə ailələrdə uşaqların çoxusu zorakılığa, zülmə dözməyib məhv olur və ya onlarda fiziki, psixi pozuntular yaranır. Onlar təhsil almır, nə oxumaq, nə də işləmək istəyir, həyatda özlərinə yer tapmır, ailə qurmaq istəmir.

Ən geniş yayılmış zorakılıq fiziki cəzalardır ki, uşağın bədənində zədələrin, qayışın yeri qalır. Pis qida qəbul etdikdə uşaq pis böyüyür, bədənində səpgilər olur, o, xoşagəlməz, adamayovuşmazdır, fiziki cəhətdən pis inkişaf edir. Döyülmədən və pis qidalanmadan, yarıac vəziyyətdə yaşamaqdan bəzən uşaqlar evdən qaçır.

Cinsi zorakılığa məruz qalan uşaqlar ruhi-əsəb sarsıntıları keçirirlər. Uşaqlar hər şeydən qorxur, qapalıdırlar, pis oxuyur, öz həmyaşıdları ilə pis rəftar edir, depresiyaya düşür, bədbinləşir, kənarda təskinlik tapmaq üçün evdən qaçırlar, narkoman olur və ya sərxoşluq edirlər, pozğun həyat tərzi keçirirlər.

Psixi zorakılıq zamanı uşağı (yeniyetməni) nalayiq sözlərlə təhqir edir, onu hər şeydən kənarlaşdırır, onu aldadırlar. Bu zaman həmin uşaqların orqanizmində patoloji dəyişikliklər meydana çıxır. Uşaq yazıq görkəmdə olur, fiziki və psixi inkişafı ləngiyir. Onlar çox təcavüzkar olur, pis yatır, həyəcanlı, əsəbi olur, öz həmyaşıdları ilə münasibət qura bilmirlər.

Ailədə mənəvi qəddarlıq - uşağa biganəlik, onun qayğısına qalmamaqdır. Uşaq özbaşına böyüyür, natamam inkişaf edir, nitqi qüsurludur, tez-tez xəstələnir, bədəni səpgilərlə doludur. O, oğurluq edir, həmişə acdır, sığal və diqqətdən kənardır, bədbin və aqressivdir, pis oxuyur, dostluq edə bilmir, hər cür cinayətə, pis əmələ qadirdir.

Bir çox valideynlər uşaqla pis rəftarına onun anadangəlmə mənfi xüsusiyyətləri ilə özlərinə bəraət qazandırmağa çalışırlar. Valideynlərin belə mövqeyi münaqişəni gücləndirir və uşağın ailədə təklənməsinə səbəb olur. Tədqiqatçılar belə hesab edir ki, valideynlər özləri uşaqlıqda qəddar rəftara düçar olmuş, öz yaxınları ilə ünsiyyətdə böyük problemlər yaşamışdır.

Belə anlarda sosial pedaqoq elə pedaqoji vəziyyət yaratmalıdır ki, uşaq böhran vəziyyətindən çıxa bilsin, çünki belə uşaqlar tərbiyəçilərə çox meylli olurlar.

*Şikəst uşaqlar* – son illərdə onların sayı artmaqdadır. Əsas etibarilə ruhi-əsəb xəstələridir. Səbəbi – ekoloji mühit, zədələr, xəstəliklər və ya ananın hamilə vaxtı keçirdiyi çətin vəziyyətlərdir. Belə uşaqlar üçün xüsusi internat məktəblər mövcuddur.

*Uşaqların sağlamlığı* - nəzarətsizlik, stres vəziyyəti, zədələnmələr və bədbəxt hadisələr uşaqlar arasında ölüm halını artırır. 14 yaşadək uşaqların bədən üzvlərinin xəstəlikləri üzə çıxır. Son illərdə uşaqların yoluxucu xəstəliklərə yoluxma halları üç dəfə artmışdır. 7 yaşadək uşaqların sayı azalmış, onlardan xroniki və funksional xəstəliklərə düçar olanların sayı artır. 16 yaşadək şikəst uşaqların sayı artır. Erkən yaşlarda siqaret çəkmək, narkomaniya, sərxoşluq, erkən cinsi həyat onların sağlamlığına ziyan vurur. Uşağın sağlamlığına həm də valideynlərin sağlamlığı da böyük təsir göstərir. Ananın hamiləlik dövründə keçirdiyi xəstəliklər, ailədəki əsəbi vəziyyəti və cəmiyyətin böhranlı vəziyyəti, əlverişsiz ətraf mühit, ekoloji amillər - uşaqların kütləvi patologiyasına səbəb olur.

*Sosial işçinin valideynləri sərxoş olan* uşaqlarla apardığı iş xüsusi münasibət tələb edir. Bu zaman valideynin hansının sərxoşluq etməsini aşkar etmək çox vacib məsələdir.

Ata sərxoşluq etdikdə o, uşaqların ona mane olduğunu bəhanə edərək onları tez-tez döyür, təhqir edir. Ana sərxoşluq etdikdə uşaqları ilə yaxşı münasibəti, xoş rəftarı olur, lakin onlara nəzarət etmir, onlarla məşğul olmur. Belə ailədə uşaqlar baxımsızdır, ac qalır, xəstədir, çoxusunda əqli kəmlik müşahidə edilir. Onlar özləri-özlərini müdafiə edir, valideynlərinin içməsi onlara əzab verir. Belə ailədə böyüyən uşaqların da həyatı pozulur, onlar özlərinə həyatda bir mövqe qazana bilmirlər. Bu zaman sosial işçinin mühüm vəzifəsi uşaq-

ları belə valideynlərdən uzaqlaşdırmaqdır. Ya onları uşaqlar evinə, ya yaxın qohumlarının nəzarətinə, ya qəyyumluğa və ya yeni valideynlərə verməklə onların həyatını gələcək təhlükələrdən qorumalıdır.

*İnternat məktəblərindəki uşaqlar* – valideynlərini itirmiş, atılmış uşaqlar olub, körpə olarkən (3 yaşadək) əvvəl körpələr evi, sonra uşaq evləri və internat məktəblərə yerləşdirilirlər.

Uşağın normal inkişafı üçün ona normal şərait də yaradılmalıdır. Bura ünsiyyət, məişət, fiziki sağlamlıq, ətrafdakılara xoş münasibət, uşağın şəxsi müvəffəqiyyətləri aiddir.

Lakin bütün internat müəssisələrində eyni yaşayış mühiti, yetimçilik, kazarma rejimi hökm sürür. Burada uşaqların əqli inkişafında gerilik, narkotiklərə, sərxoşluğa, qanun pozuntularına meyllilik artır. Onlar diqqətsizdir, sevməyi bacarmırlar. Bütün bunlar uşağın ətrafdakıları sevməməsi, hamıya mənfi münasibətində öz əksini tapır. Uşaq evi şəraitində uşaqlar arasında özünəməxsus müsbət münasibətlər yaranır. Ailədə soyadı ilə «biz» hissi mövcuddur. Bu mənəvi qüvvə uşaqda müdafiə olunmaq vəziyyətini yaradır.

Valideyn himayəsi olmadıqda uşaqlarda internat çərçivəsində «biz və özgəsi», «biz və onlar» kimi kortəbii hisslər yaranır. «Özgələr»dən hamı qaçır, öz qrupunda uşaq fərdiləşir.

Məhəbbət və qayğıdan kənarda qalan, validyen himayəsi və istiliyini hiss etməyən uşaqlar öz həmyaşıdları ilə kobud rəftar edir, özlərindən uşaqları incik salırlar. İnsanlardan uzaqlaşmanı onlar normal hal kimi qəbul edir ki, bu da onların qanun pozmasına gətirib çıxarır. Məktəbdə onlar ailələrdə yaşayan həmyaşıdları ilə çox asanlıqla münasibət qura bilirlər.

İnternatda uşaq böyük sayda həmyaşıdları ilə uyğunlaşmalıdır. Daim onların mühitində olmaq uşaqlarda gərginlik, həyəcan, təcavüz hissi yaradır. İnternat və uşaq evlə-

rində onanizm, homoseksuallıq, cinsi yayınmalar baş verir. Bütün bunlar əsəb pozulmaları, çatışmayan məhəbbət, emosiyaların çatmamasına səbəb olur.

İnternatda elə yer yoxdur ki, uşaq özü-özü ilə qala bilsin, gündəlik hay-küydən təcrid olunsun, öz əməllərini təhlil edə bilsin.

Daxili özünücəmləşdirmə olmadan standart sosial şəxsiyyət tipi formalaşmır. Dövlət hesabına yaşayan uşaqlarda himəyadarlıq («bizə borcludurlar», «verməlidirlər»), məsuliyyət və qayğıkeşlik hissi olmur. Tənhalığa çəkilərək onlar çardaq və zirzəmilər axtarırlar. Böyüklərin himayəsi olmadan onlar özlərini düşüncəsiz əməllərə, qaçmağa və avara, tüfeyli həyata sürükləyirlər. Psixi inkişafda da bu uşaqlar ailədə yaşayan öz həmyaşıdlarından kəskin fərqlənir, sağlamlıqda, inkişafda geri qalırlar. Böyüklərlə ünsiyyət dairəsinin məhdudluğu belə ünsiyyəti yarada bilməməklə nəticələnir. Onlar qadağa və iradları qəbul etmir, müstəqil deyil, qəmgin və sönükdürlər.

*Uşaq evlərindəki məktəbəqədər yaşlı* uşaqlar 3-7 yaşda çox passiv, diqqətləri və nitqi zəif inkişaf etmiş olur. Öz həmyaşıdları ilə çox tez-tez münaqişələrə girir, özlərindən başqa hamını günahkar hesab edirlər. Belə əməllərinə müstəqil surətdə nəzarət etmək və onları planlaşdırmaq onlar üçün çox çətindir.

*İnternat məktəblərdə kiçikyaşlı məktəblilər* sözə baxan, intizamlı olmağa, böyükləri qane etməyə çalışırlar.

*Yeniyetmələr internat məktəblərində* son illərini başa vurur. Onlar özləri ilə məşğuldur, müstəqil həyata hazırlaşmaq, öz gələcək həyatlarını qurmaq iqtidarında deyillər, bu günlə yaşayırlar. Belə uşaqlarla iş aparan sosial pedaqoq onlara gündəlik tutmağı öyrətməli, özünə tənqidə, özünü təhlilə, özünütəsdiqə münasibət yaratmalı, daxili aləmini inkişaf etdirməyə kömək etməlidir. Böyüklərin belə uşaqlara hörmətli münasibəti olmalıdır.

**Uşaqların müdafiəsi**

Uşaqlıq dövrü - bu müddətdə körpəyə böyük nəslin fəal təsiri olub, onun qabiliyyət, vərdiş və bacarıqlarının formalaşması kimi xarakterizə edilir. İngiltərənin «Sosial işçinin ensiklopediyasında» uşaqlıq dövrü böyük, məsuliyyətli, cəmiyyətin qanuniləşdirilmiş qayğı və iqtisadi köməyindən asılı olmayan dövr kimi səciyyələndirilir.

Bu insan həyatının xüsusi dövrü olub, onun xarakterinin ətraf mühitdən, qohumların, dövlətin, cəmiyyətin ona münasibətindən asılı olan mühüm xüsusiyyətləri ilə müəyyən edilir.

1999-cu ildə uşaqlıq dövrünün maraqlarını əks etdirən «Uşaq hüquqları haqqında» BMT Konvensiyası qəbul edilmişdir ki, burada:

- dövlət, inzibati, məhkəmə və xüsusi təşkilatlar uşaqların müdafiəsi maraqlarını əks etdirir;
- mənşəyi, irqi, milliyyəti, fəaliyyət növü, valideynlərinin əqidəsindən asılı olmayaraq uşaqların bərabərliyi təmin edilir;
- milli dəyərlərə hörmət, digər xalqların mədəniyyətini anlama və dözümlülük;
- uşaqların müxtəlif zorakılıqdan, qayğıdan kənarda qaldıqda təhqirlərdən, istismardan, qohum və himəyadarları tərəfindən cinsi təzyiqlərə məruz qaldıqda onların hüquq müdafiəsinə təminat verir;
- təhsilə, tibbi xidmətə, əməyə, peşə hazırlığına, istirahətə, qabiliyyətlərin, xüsusilə, fiziki və əqli inkişafına diqqət yetirilir, ictimai hüquqlar təmin edilir;
- uşağın şəxsi hüquqlarına: onlara edilən təzyiqlər, onların şəxsi həyatına müdaxilə edilməsi, görüşlərin əksliyi, onun şəxsiyyətinə, dini azadlığına hörmət, məlumatlar almasına, həyat şəraitinə təminat verilir.

Cəmiyyətdə aparılan yenidənqurmanın, elan olunmamış müharibələrin nəticələri ailələrə və uşaqlara möhkəm zərbə vurdu: dünyaya gələn körpələrin sayı azaldı; natamam

ailələrin sayı artdı; sosial yetimlik yarandı ki, uşaq evlərindəki 90% uşaqların valideyni var; uşaq ölümünün, məktəbəqədər yaşlı uşaqlarda xəstələnənlərin sayı artdı, məktəbi bitirən məzunların 40%-i seçdikləri ixtisas üzrə iş tapa bilmir, 1991-ci ildən uşaq şikəstliyi iki dəfə çoxalmış; uşaqlar üçün keyfiyyətli qida məhsulu və çeşidli mallar çatışmır; müharibə qaçqın uşaqları küçəyə tökdü; uşaq cinayətkarlığı, qızların cinayətkarlığı 50% artmışdır; uşaqları aşağı səviyyəli həyat tərzi keçirən 60% ailələr mövcuddur.

Evsiz-eşiksiz uşaqlar və yeniyetmələr – ailə böhranının nəticəsidir. Belə uşaqlara diqqətin olmaması onların çoxusunun xəstə olmasına, aşağı səviyyəli təhsil almalarına səbəb olur.

Uşaqlara ailədə fiziki, psixi və mənəvi təzyiqlər göstərilir, onlar normal qidalanmır, təhqir olunur, alçaldılırlar.

Son illərdə ailədə uşaqların vəziyyətini yaxşılaşdırmaq üçün dövlət tərəfindən bir sıra sənədlər işlənib qəbul edilmiş və bu sahədə dövlət siyasəti özünü büruzə verir:

- uşaqlara aylıq müavinətlərin verilməsi;
- ailə və uşaqların müdafiəsi üçün yeni müəssisələrin yaradılması;
- təhsil sahəsində dövlət qarantının təmin edilməsidir.

**Ailə uşaq evi** 100-150 uşaq olan uşaq evləri və 350 uşağı olan internat-məktəblərin təcrübəsi göstərdi ki, onların məzunları həyata hazır deyil, adi məişət problemlərində acizdirlər. 25 nəfər uşağı olan qrupda tərbiyəçi hər bir uşaqla, onun maraqları, imkan və qabiliyyətləri ilə məşğul olması çətin işdir. Ən yaxşı halda o, uşağı tanıyır, onların qrup kollektivinin həyatını təşkil edir, lakin hər biri ilə ayrılıqda məşğul ola bilmir. Belə müəssisələr öz işlərinin öhdəsindən gələ bilmir.

Bu problemi həll etmək üçün ailə uşaq evləri yaradılır ki, burada uşaq yetkinlik yaşınadək sığınacaq tapa bilir. Bir çox hallarda bu uşağı hüquqlarını itirmiş valideynlərdən

müdafiə formasıdır. Qəbul edilmiş valideynlər saziş imzalayır ki, burada onların əmək haqqı, hüquq və vəzifələri, uşağın ailədə yaşaya bilmək müddəti razılaşdırılır. Belə valideynlərin işi əmək stajına daxil edilir.

Uşağın bioloji valideynləri ilə də əlaqə yaradılır ki, bərpa dövründən sonra uşaq doğma ailəsinə qaytarılsın. Bioloji valideynlər xəbərdar edilir ki, uşaqlar narkomanlıqdan, sərxoşluqdan müalicədən sonra və işə qəbul olunandan sonra öz ailəsinə qaytarılsın.

Belə uşaqlar çox zaman aclıqdan, zülmdən, baxımsızlıqdan, xəstəliklərdən və s. əziyyət çəkirlər. Bu ailələr uşaqları fiziki cəhətdən möhkəmlədir, onlara tibbi və psixoloji köməklik göstərir, onlarla məşğul olurlar. Belə ailə evlərinin bir neçə növü mövcuddur. Ailə şəhərciyində 10-12 evin hər birində 1 və ya 2 ailə yaşayır. Bu şəhərcikdə inzibati orqanlar, idman meydançaları, həkim və tibb bacısı olan tibb məntəqəsi, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün mərkəzlər, məktəb və uşaq bağçası yerləşir.

Belə uşaq şəhərciyi şəhər əhalisinin sıx yaşayan ərazilərində də yerləşdirilir. Burada hər ailəyə 6 nəfərdən az olmayaraq uşaq qəbul edilir ki, bura uşaqların qəbulunu Təhsil Nazirliyi həyata keçirir. Ailələr maddi cəhətdən təmin edilir, onlara müxtəlif müavinətlər verilir.

Son illərdə belə ailələlərə uşaqları müxtəlif yaş həddində qəbul etməyə də icazə verilir ki, bacı-qardaşlar müxtəlif ailələrə səpələnməsin. 8 nəfərdən ibarət müxtəlif yaş həddində, eyni yaş həddində 5-10 nəfər uşaq olmaqla icazə verilir. Bakı şəhəri Nizami rayonunuda 1 saylı uşaq evi nəzdində Dünya Bankı xətti ilə belə ailə tərbiyəsi üçün bütün şəraitlərin əsası yaradılmışdır. Buraya valideynlər xüsusi test imtahanları ilə işə qəbul edilir, yetim, kimsəsiz uşaqların tərbiyəsi onlara həvalə edilir.

### 3.4.Sosial işçinin ailə ilə apardığı iş

Ailə tərbiyəsi ənənələri illərlə yaradılmışdır. Platon dövründən ta bizim dövrədək alim və pedaqoqlar təsdiq edirlər ki, insanın inkişafı və formalaşmasına, onun əqli, fiziki və mənəvi qabiliyyətlərinə, sağlamlığı və ənənəvi prinsiplərinə yalnız valideynlər müsbət təsir edə bilir.

Əgər valideynlər uşaqlarının sağlamlığı barədə düşünür, öz ürəyini və qəlbini bu iş üçün «yandırır»sa, onda uşaqlar mühitin zərərli təsirindən qorunmuş olurlar. Uşaq fiziki cəhətdən nə qədər sağlam olub naz-nemət içində yaşasa da, onun mənəvi, humanist hissləri inkişaf etməz, o, dünyaya heç nə verə bilməz.

Mədəni davranış, mənəviyyat, psixoloji inkişaf, ünsiyyət, həyat göstəriciləri - bütün bunlar ailədə formalaşdırılır. Valideynlər hansı problemləri, kimlərlə, necə həll etməsindən asılı olmayaraq, bütün bunlar uşaqların tərbiyəsində öz izini qoyur.

A.S.Makarenko möhkəm əmin idi ki, «valideynlərin özlərinə tələbləri, valideynin ailəyə hörməti, valideynin özünün hər addımına diqqət etməsi – ilk və ən başlıca tərbiyə vasitəsidir», əgər sizin uşaq uğursuz tərbiyə olunmuşsa, «onda gərək özünüzü mikroskop altına qoyasınız». Bu zaman uşağı yenidən tərbiyə etmək lazım deyil; ona münasibəti dəyişmək lazımdır ki, bu da valideynlərdən asılıdır.

V.A.Suxomlinski yazırdı ki, uşaqlar üçün sevinc ümmanını artırmaqda ən yaxşı vasitə bütün valideynlərin düzgün davranış kursudur.

A.Səhhət belə hesab edirdi ki, uşaq təkcə valideynin deyil, bütünlükdə yaşadığı cəmiyyətin, vətənin övladıdır. Ona görə valideyn imkanı daxilində uşağının tərbiyəsi ilə maraqlanmalıdır. Valideyn uşağının mənəvi davranışı, şüurlu hərəkəti, dosta-yoldaşa münasibəti ilə vaxtında maraqlanmazsa, o, gələcəkdə nə vətənə, nə də ailəyə heç bir xeyir verə

bilməz. Nəticədə uşağın əxlaqı pozular, həyatda, cəmiyyətdə valideynə böyük dərd olar.

Bendjamen Spok isə belə hesab edirdi ki, valideyn tərbiyəsi təkcə ciddilik və yumşaqlıqdan deyil, onların uşaqlara olan hisslərindən asılıdır. Uşağın hissi və fiziki inkişafı üçün onu əzizləmək ana südü qədər vacibdir.

Şübhəsizdir ki, məktəb və mühit uşağın inkişafında böyük rola malikdir, lakin valideynlərin onun tərbiyəsində məsuliyyəti daha böyükdür. Yeniyetməlik dövründə uşaq ailədə baş verən hər şeyi özünə «çəkir», ona görə də valideynlər bu dövrdə öz hərəkətlərini qiymətləndirməli, öz hörmətlərini ailədə qoruyub saxlamalıdırlar. Kiçik məktəb yaşında bu avtoritet-məhəbbət, qayğı, böyüdükcə – hörmət ilə əvəz olunur. Bu əxlaq, bilik və ağıl, cəsarət və qüvvədir. Lakin uşağı hörmət hissi ilə boğmaq, əzmək olmaz, onu çox da böyük olmayan «doza»larda vermək lazımdır. Uşaqla mütəmadi ünsiyyət valideynlərə onu öyrənməyə imkan verir. Yeniyetmə ilə bu iş bir qədər çətindir, çünki valideynin təsəvvürləri onun sürətli inkişafı ilə ayaqlaşa bilmir, onunla uşaq kimi davranılır. Məhz həmin dövrdə valideynlərlə yeniyetmənin sonrakı münasibətləri formalaşır. Yeniyetmə özünə qarşı xüsusi münasibət, daha çox müstəqillik və onun fikrinə hörmət tələb edir. O, ailədə lazımi hörmət və diqqət tapmadıqda onun mənliyi sınır. Məhz elə bu dövrdə münaqişə yaranır ki, hisslər ağılı üstələyir, yeniyetməni «partlamağa», kobud davranışa təhrik edir.

Bu zaman valideynlər gözləməlidir ki, onun çılğınlığı sönsün və onlar sakit şəraitdə hər şeyi götür-qoy etsinlər. Yeniyetməyə hər şeyi düşünməyə imkan verməlidirlər.

Unutmaq olmaz ki, uşağa öz valideynlərinin tələbi kənar adamlara nisbətən daha çoxdur.

Sosial işçi və ya pedaqoqlar valideynlərlə ünsiyyət, söhbət və ya məsləhət zamanı bu dövrün çətinliklərini an-

latmalı, uşağın tərbiyəsindəki naqislikləri yenidən tərbiyə etməyə diqqəti yönəltməlidirlər.

Ailədə uşağa təlqin edilən xüsusiyyətlərdən biri də itaətkarlıqdır. Bunu uşaq yaşlarından tərbiyə etmək vacibdir, çünki valideynlərə və böyüklərə hörmət və diqqət insanın həyatında zəruri və mühüm məsələdir.

Ailədə uşağa intizamlılıq tərbiyə edilməlidir ki, bu da onun əqli qabiliyyət və imkanlarının düzgün inkişafına təsir edir. Erkən yaşlarından qayda-qanuna alışmış uşaq bütün ömrü boyu buna əməl edir. Burada gündəlik rejim, ev təsərrüfatındakı öhdəliklərin yerinə yetirilməsi və s. mühüm rol oynayır.

Ailədə hökm sürən əmək vərdişləri kiçik insanın gələcək həyatını müəyyən edir.

Onu əhatə edən insanları duymaq, onlara qayğı və münasibət göstərmək yalnız ailədə tərbiyə edilə bilər.

Sağlam uşağın ailədə tərbiyəsi üçün çox geniş tərbiyə üsulları məlumdur. Bu barədə çoxlu sayda nəşrlər var. Burada həm orqanizmin möhkəmləndirilməsi, həm gigiyenaya riayət, həm yaranan zərərli vərdişlərin aradan qaldırılması, həm 6-7 yaşdan uşaqların spirtli içkilər qəbul etməsi, siqaret çəkməsi, narkomaniyanın qarşısının alınması, düzgün qidalanması, onun psixi inkişafı haqqında məlumatlar verilir.

Ailə ilə iş quran sosial pedaqoq ilk əvvəl onu öyrənməlidir. Adətən onun rastlaşdığı ailə növlərini nəzərdən keçirək. Bu uğursuz ailələrdir ki, burada valideyn sərxoşluq edir və ya narkomandır, xroniki xəstədir və ya şikəstdir. Müasir şərait valideynlər üçün bir də işsizlik problemini yaratmışdır.

Bu zaman sosial işçinin uşağa gündəlik müdafiə və qayğı göstərməsi çox vacibdir ki, ailədə ata və ya ana yox və uşağı nənəsi və ya qohumları tərbiyə edir, valideynlər sərxoş olduqda və ya evə gəlmədikdə tək qalır, valideynlər uşağa öz

məhəbbətlərindən imtina edir və ya öz münasibətlərində ondan «alver» məqsədi ilə istifadə edirlər.

Əgər ailədə münasibətlər yoxdur, valideynlər uşağa formal münasibətdədir, yalnız onu maddi cəhətdən təmin edirlərsə, məhz belə ailələrdə uşaqların davranışında pozuntular müşahidə edilir.

Ailənin psixoloji iqlimi də mühüm əhəmiyyətə malikdir. Bu sabit hissi durumdur ki, bu zaman ailədə ümumilikdə mehribançılıq, böyüklərin məhəbbəti və qayğılı münasibəti uşağa müsbət təsir göstərir.

Ailəyə sosial pedaqoq çox vacibdir, çünki müasir məktəb yalnız təlimlə məşğuldur, valideynlərin isə 2/3-i uşaqların tərbiyəsində çətinlik çəkirlər.

Sosial pedaqoq müxtəlif tip ailələrlə işləməli olur. Bu şəhər və ya kənd ailəsi, ənənəvi, müasir, çox uşaqlı, natamam, qaçqın ailəsi, miqrasiya etmiş, hərbiçi ailəsi, uşağı qəyyumluğa və ya övladlığa götürülmüş, yetkinlik yaşına çatmamış ailə, «baiaca ana», milli ailə və s-dir.

Müasir şəraitdə ailə qarşısında uşaqların tərbiyəsi və təmini, yaşlılara himəyadarlıq məsələlərinin bütün məsuliyyəti durursa, bu zaman ailədaxili şərait elə qurulmalıdır ki, ailənin iqlimi bunun üçün müvafiq şəraiti yarada bilsin.

Sosial pedaqoq ailənin bir çox problemləri ilə üzləşir. Bunlar: xəstə, şikəst uşaqlar; yaşlı, şikəst, təqaüdçü valideynlər; cinsi pozğunluq və ya fahişəliklə məşğul olan valideynlər; sərxoşluq edən və ya narkoman valideynlər; avara uşaqlar; validyenləri boşanmış ailələrdir.

Sosial pedaqoqun ailə ilə işinin birinci vəzifəsi böhranlı vəziyyətlərinin aradan qaldırılmasıdır. Eyni zamanda onların vaxtında qarşısının alınması və zərərsizləşdirilməsidir. Qarşısının alınmasında ailəyə maddi yardım dövlət tərəfindən müavinət, güzəştlər, sosial yardımlar şəklində verilməsidir. Sosial pedaqoq pedaqoji problemlərdən əlavə ailə ilə

işləyərkən eyni zamanda sosial, iqtisadi, tibbi və psixoloji məsələləri də həll edir.

Başlıca məqsəd – ailənin daxili qüvvələrini böhranının aradan qaldırılmasına yönəltməkdir. Bu zaman ilk növbədə problemləri təhlil etmək vacibdir. İkincisi, mütəxəssislərlə məsləhətləşmələr, üçüncüsü, böhrandan çıxış yollarının müəyyənləşdirilməsidir.

Sosial pedaqoqun ailəyə köməyi nədən ibarətdir?

1. Ailəyə müxtəlif müavinətlərin və sosial güzəştlərin alınması mümkünlüyü və alınma qaydaları haqqında məsləhətlər vermək;

2. Ailəyə gəlirlərini artırmaqda kömək etmək, böyüklərin və uşaqların qazanclarına, kreditlərin alınmasına kömək etmək;

3. Uşaqları ilə tək qalmış işsiz anaya kömək etmək. Ona elə iş tapılmalıdır ki, o, uşaqlarını uzun müddət nəzarətsiz qoymasın.

4. Bir çox valideynlərin pedaqoji köməyə ehtiyacı var. Məsləhətləri fərdi və qrup halında vermək olar. Şikəst uşaqları olan valideynləri, uşaqları I sinfə gedəcək valideynləri və ya uşaqları ilə ünsiyyətdə çətinliyi olanları və s. bir yerə toplamaq olar.

Valideynlər üçün mühazirələri aşağıdakı mövzularda təşkil etmək olar: pedaqogika və psixologiya uşağın inkişafı və tərbiyəsi haqqında elmdir; uşaqların tərbiyəsində valideynlərin rolu; ailədə müxtəlif nəsillərin münasibəti; çətin uşağın tərbiyəsi; fiziki və əqli cəhətdən qüsurlu uşaqların tərbiyəsi; əmək vasitəsilə tərbiyə; uşağın məktəbə hazırlaşması; uşağın ailədə estetik tərbiyəsi; cinsi tərbiyə; dini tərbiyə; uşaqlar üçün siqaretin və narkotik maddələrin təhlükəsi və s.

Çox uşaqlı ailələrin müxtəlif yaş həddində olan uşaqları necə düzgün qidalandırmaq, onlara düzgün davranış nor-

malarını necə təlqin etmək kimi daha əməli məsləhətlərə ehtiyacı var.

5. Ailə ilə iş qurarkən uşağı ailədəki mövqeyi nəzərə alınmalıdır. Ailə haqqında ən zəruri məlumatlar - məktəbdə, qonşulardan, poliklinikadan toplanmalıdır. Unutmaq olmaz ki, fiziki zorakılıqla bərabər hissi zorakılıq da mövcuddur ki, bu zaman uşaq «diqqət mərkəzində» olur, onu ələ salırlar, təhqir və tənqid edirlər. Bu uşaqda psixi pozuntulara gətirib çıxarır.

6. Sərxoşluq və ya narkotiklərdən istifadə edən ailələrlə işi qurarkən, uşaqların ilk növbədə uşaq evinə verilməsi məsələsi həll olunmalıdır. Valideynlər öz hüquqlarından məhrum edilməsi – uşaqların başqa ailələrə verilməsi deməkdir. Sonra isə valideynlərin məcburi müalicəsi həll olunmalıdır.

Sosial pedaqoq şikəst uşağı olan ailəyə diqqət yetirməli, həmin uşağın xüsusi məktəblərə verilməsi, onlar üçün uşaq arabasının və yay istirahəti üçün yollayışların alınmasına səy göstərməlidir.

Sosial pedaqoq daim münaqişələrdə olan ailələrə yardım məqsədilə hüquq məsləhətçisi ilə əlaqə yaratmalıdır. Çox uşaqlı ailəyə yeniyetmələrin işlə təmin edilməsində yardımçı olan sosial pedaqoq daim yeniyetmələrə nəzarət edir.

## 3.5. Sosial pedaqoq və ya sosial işçinin peşə fəaliyyətinin xüsusiyyətləri

Son dövrlərdə xeyriyyəçilik çox dəbdədir. Bu zaman çox uşaqlı ailələr unudulmamalıdır. Ailə üçün pedaqoq və ya sosial işçi ilə birlikdə oyuncaqların, geyimlərin, ayaqqabı və s. əşyaların satış yarmarkası təşkil olunmalıdır.

**Sosial pedaqoqun iş üsulları**

Öz işini sosial pedaqoq ilk olaraq ailəni öyrənməkdən başlayır. Ailədaxili münasibətlərin öyrənilməsi və onların müzakirəsi sosial işçiyə bu şəraitdə uşağı təsəvvür etməyə imkan verir.

Ailəni öyrəndikdən sonra sosial pedaqoq qarşısında – ailədə yeni münasibətlərin yaradılması vəzifələri durur. Bunu o, ailəni müxtəlif klublara, sağlamlıq qruplarına, birliklərə, məişət birliklərinə, bağçada, bağda, məişətdəki əməyə cəlb etməklə edə bilər.

Uşağın ailədəki vəziyyətini öyrəndikdən sonra sosial pedaqoq ailə ilə birlikdə onun üçün bərpa proqramları tərtib edir. Uşaqla gündəlik rejim, asudə vaxt barədə söhbətlər aparılır, onun işləri üçün rejim tərtib edilir. İnandırma üsulu ilə sosial pedaqoq o zaman uğur qazana bilər ki, o, hüquqi bilikləri yaxşı bilməklə yanaşı uşağı bunlara inandıra bilsin və onun asayiş pozmasının qarşısı alınsın. İnandırma üsulu ilə o, tərbiyə olunanların özünün düşdüyü vəziyyətdən çıxmaq üçün yollar axtarmasına nail ola bilər.

Adətən sosial işçilər ailələrin «xəritələrini» tərtib edirlər ki, bu zaman bütün ailə üzvləri haqqında məlumat əldə etməklə, onların hər biri səciyyələndirilir, ad günləri, yada salınmalı günlər xatırlanır. Ailənin statusu, yaşayış şəraiti, qanunlar, dini və milli mənsubluğu müəyyən edilir.

«Xəritə»nin uşağın ailədə aldığı tərbiyə tamamlayır. Valideynlərin uşağa nə qədər vaxt sərf etdiyini, onların iş birliyinin olub-olmamasını, ünsiyyət formasnıı, atanın oğulla ünsiyyətini, asudə vaxtını uşağa sərf etdiyini, mütaliə etdiyini, klublara getdiyini müəyyən edir. Ən mühümü ondan ibarətdir ki, valideynlər uşaqları barədə nə düşünür, uşaqlarının maraqları, arzuları və dostluq etdikləri uşaqlar barədə, uşağın sağlamlığı, problemləri barədə nə bildiklərini aşkar etməsidir.

Eyni zamanda uşaqların öz valideynləri haqqında: onların maraqları, dostları, işdəki nüfuzu, qayğıları, problemləri və səhvləri barədə bilikləri olması vacibdir.

Sosial pedaqoq ailədəki münasibətlərə də diqqət yetirməli, böyüklərin bir-birinə münasibətini, böyüklərlə uşaqlar arasındakı münasibətləri, qohumlarla, tanışlarla münasibəti, ailədə yaşayan böyüklərlə münasibəti öyrənməlidir.

Ailədə I sinfə gedən uşaq varsa, onun maraqları, ailədəki vəziyyəti, təəssüratlarını kimlə bölməsi, onu necə və nə ilə cəzalandırırlar, məktəbdə onun xoşuna nə gəlir, nə gəlmir - bunları sosial pedaqoq müəyyən edir.

Valideynləri işləyən ailələrin köməyə böyük ehtiyacı var. Uşaqların məktəbə ötürülməsi, evə qayıtması, dərsləri ilə məşğul olması bir problemdir.

Sosial pedaqoq ailədə fiziki və əqli cəhətdən qüsuru olan uşaqlarla apardığı iş üsulları xüsusi diqqətəlayiqdir. Amerika alimlərinin apardığı tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hər 7 ailədən birində belə xəstə uşaqlar mövcuddur. Sifətdəki anadangəlmə xaldan tutmuş funksional qüsurlaradək: korluq, karlıq, əqli gerilik daha çox yayılmışdır.

Belə ailələrdə valideynlərin öz uşaqlarına münasibəti aşkar olunmalı, belə hala qıcıqlanma dərəcəsi müəyyən edilməlidir. Bir çox valideynlər sifətdəki anadangəlmə xalı, digərləri xəstə uşaqlarının gələcəkdə köməyə ehtiyacı olduğunu faciə kimi qəbul edirlər.

Burada sosial pedaqoqun hissi yanaşmaları mühüm əhəmiyyətə malikdir. Bu gün ailə çox böyük çətinliklərlə üzləşir, əgər bütün bu sosial və ictimai çətinliklərə uşağın xəstəliyi də əlavə olunarsa, bu çox çətin olur. Belə ailələrdə ana işə gedə bilmir. Bu faciəyə səbəb olur, valideynlər boşanır, öz ömürlərini özlərinə qəsd etməklə başa vurur və ya sərxoşluq edirlər.

Uşağa köməklə yanaşı sosial pedaqoq valideynlərə də diqqət yetirir. Onların uşaqdan çox köməyə ehtiyacı var. Onların belə əzab-əziyyətdən çıxmaq yollarını axtarmaq, uşaqda müsbət keyfiyyətlər tapıb onların inkişafına bütün qüvvələrini səfərbər etməyi məsləhət görməlidir.

Sosial pedaqoq xəstə uşağa qulluq etməyin, onun təlim və tərbiyəsinin yollarını tapmaqda valideynlərə yardımçı olmalıdır. Belə valideynlər xəstə uşağı olan digər

valideynlərlə əlaqə yaratmalıdır ki, çətinliyə sinə gərsinlər, acizlik və tənhalıq hissindən uzaq olsunlar.

Ailədə şikəst uşaqlar olarsa, sosial pedaqoq həmin ailələrlə iş aparmaq üçün valideynlərlə görüşür, onlar üçün tövsiyələr hazırlayır, belə uşaqlara qulluq etmək barədə məsləhətlər verir.

Hər bir şikəst uşağın səhhətinin bərpası üçün ayrıca plan tərtib edilir. Bərpa mərkəzlərində belə uşaqlarla psixoloq, nevropatoloq, psixonevroloq, loqoped, masaj edən, defektoloq, müalicə və idman üzrə təlimatçı işləyir.

Belə uşaqların həyata az bələdliyini nəzərə alaraq, sosial pedaqoq bir sıra problemlər ortaya qoyur ki, uşaq bu problemləri yalnız onunla həll edir. Xüsusi proqramlar tərtib edilir ki, bunlarla uşaqlar ətraf aləmə bələd olurlar.

Şikəst uşaqların əmək fəaliyyətinə qoşulması (şəkil çəkməsi, tikiş tikməsi, ayaqqabı təmir etməsi, dülgərlik etməsi) də sosial pedaqoqun vəzifəsidir. Onlar iqtisadi problemlərin həllinə, əməyin planlaşdırılmasına və s. alışdırılmalıdır.

Əmək prosesində belə uşaqların öz yaradıcı qabiliyyətlərini təzahür etdirə bilməsi çox vacibdir. Belə uşaqları şəkil çəkməyə, müxtəlif yapma işləri görməyə alışdırmaq, parça, taxta və gildən olan oyuncaqlarda olan xalq yaradıcılığı, xalq təsviri və naxışları ilə tanış etmək, taxta, gil, parça üzərində təsvirlərə cəlb etmək lazımdır. Onların əl işlərinin sərgisinin təşkili, onların bayramlarda, konsertlərdə və səhnəciklərdə iştirakı, onların hər birinin şəxsiyyət kimi özünütəsdiqində mühüm əhəmiyyət kəsb edir.

Kitab mütaliəsi, kitabxana yaradılması uşağı inkişaf etdirir, onun dünyagörüşünü genişləndirir. Şikəst uşağı ailənin digər üzvlərini qıcıqlandırmaması ən vacib şərtlərdəndir.

Valideynlərin borcu uşağı sakitləşdirmək, onun hiss-həyəcanını azaltmaqdır. Bu işdə onlara yardımçı yalnız sosial pedaqoq ola bilər.

Sosial pedaqoqun belə uşaqlarla işinin əsas istiqamətləri aşağıdakılardır: əxlaqi söhbətlərin keçirilməsi; uşaq özünüidarəsinin təşkili; uşaq və tərbiyəçilərin əməkdaşlığı; yaradıcılıqla məşğul olmağa kömək etmək; stadiona, nağıllar otağına, kitabxanaya gediş, musiqi ilə parkda istirahət təşkil etmək; düşüncələr otağı yaratmaq; psixoterapiya üzrə məşğələlər aparmaqdır.

**Yeniyetmələrin ailə həyatına hazırlanması**

Ailədəki bütün mənfilikləri uşaq öz ailəsinə köçürür, ona görə də onu ailə həyatına hazırlamaq sosial pedaqoqun ən ümdə vəzifəsidir. Yeniyetmələrdə o, erkən yaşlarda normal ailə haqqında təsəvvür yaratmalı, onlara bilik və bacarıqlar verilməlidir.

Erkən uşaqlıq dövründə ailə həyatına hazırlıq müxtəlif oyunlarla (qız-ana), yuxarı siniflərdə fakultativ məşğələlərlə keçirilir.

Bu zaman yeniyetmə anlamalıdır ki, öz ocağını, öz ailəsini yaratmaq müqəddəs işdir. Ailə ocağının müqəddəsliyinin qorunub saxlanılması qadının işidir.

Nigahın əsası - məhəbbət, qarşılıqlı məhəbbət, sevimli olmaq üçün tələbatın olmasıdır. Eyni zamanda «nigahlar göydə kəsilir». Bu müqəddəslik unudulmamalıdır. Ailə həyatına hazırlaşmaqda ağıl, müdriklik böyük rola malikdir. Gənc anlamalıdır ki, anomal həyat tərzi insanı eybəcərləşdirir, onu abırsız edir, mənəviyyatını korlayır.

**Ailənin istirahətinin təşkili**

Sosial pedaqoqun işinin formalarından biri ailənin mənəvi aləminin zənginləşməsinə yönələrək böyüklərin və eləcə də uşaqların estetik hisslərinin inkişafına kömək edir. Birgə istirahətdə valideynlər öz uşaqlarını daha yaxşı tanıyır, böyüklərin və uşaqların sağlamlığı möhkəmlənir.

İstirahətin ən mümkün növü ailə turizmidir: gəzintilər, turist gəzintiləri, ekskursiyalar, bir və ya bir neçə ailənin gəzintiyə çıxmasıdır. Bütün yaş dövrləri üçün uyğun olan ailə

gəzintisidir ki, buraya uşaqlar öz həmyaşıdlarını da dəvət edə bilirlər. Ailə gəzintiləri: piyada, xizəklə, avtomobillə, velosipedlə, uzun müddətli - bir neçə günlük ola bilir. Bu gəzintiyə haızrlıq, marşrutun müəyyən olunması, əşyaların toplanması, əmək və istirahət rejiminin müəyyən edilməsidir. Adətən gəzintilərdə 2-3 ailə birləşir. Adamların sayının 20-dən artıq olması məsləhət deyildir. Təşəbbüskarların gücü ilə insanlar dərnəklərə, studiyalara, bölmələrə cəlb olunur ki, bununla da ailə klubları yaranır. Məs: uşaqların orqanizminin möhkəmləndirilməsi, körpə uşaqların üzməyə öyrədilməsi, uşaq və böyüklərin birgə yaradıcı əməyi, texnika ilə, kəşflərlə, idmanla, incəsənətlə məşğul olma və s. Ailə klublarında valideynlər öz uşaqlarını daha yaxından öyrənir, uşaqlar isə ünsiyyət vərdişləri qazanırlar. Natamam ailələrdə qadın və ya kişiniin ailədə çatışmaması və yaxud ailədəki tək uşağın çatışmayan ünsiyyətini əvəz edir.

*Ailə lektoriyaları* - tam istirahət üçün deyil, bir qədər ev işlərindən ayrılıb, uşaqların tərbiyəsi haqqında valideynlərin öz biliklərini artırmağa şərait yaradır. Lektoriya qrupplarıı qısa müddətli və ya davamlı ola bilir. Proqram dinləyicilərinin xarakteri və istəyindən asılı olaraq tərtib edilir. Bir qrupda dul qalmış, ayrılmış və ya işsiz valideynlər toplanır ki, onlara mənəvi dayaq daha çox lazımdır. Digər qrup valideyndlər uşaqların tərbiyəsi haqqında, ailə həyatının təşkili haqqında daha çox öyrənmək arzusundadırlar. Hər bir qrup üçün ayrıca proqram tərtib edilir: yeniyetmələrdə bir problem, tənha valideynlərdə başqa problem, ailədə şikəst uşaq olanda tam başqa problemlər yaşanır.

## 3.6.Sosial işçinin məktəbdə işi

Əvvəllər bu mövzu ayrıca: məktəbdə və mikrorayonda tərbiyə işi kimi nəzərdən keçirilirdi. Bu gün təhsil öz üzərinə ilk növbədə uşağın tərbiyəsi, şəxsiyyətin formalaşmasını

götürməklə öz məzmununu və iş üsullarını dəyişmişdir. Sosial pedaqoqa ehtiyac çox olan sahə məktəbdir, onun məktəbdəki işidir.

Müxtəlif ölkələrdə sosial pedaqoqun işinə iki münasibət mövcuddur. Ya sosial pedaqoq məktəblə əməkdaşlıq etməli, ya da onun ştatlı işçisi olmalıdır.

Məktəblə əməkdaşlıq edən, ona təhkim olunmuş sosial pedaqoq tez-tez məktəbə gəlir, valideynlərə və uşaqlara münasibətlərini normallaşdırmaqda kömək edir, dərsə gəlməyən uşaqların səbəbini araşdırır. O, uşaqları ilə sərt rəftar edən, uşaqlarına biganə qalan ailələri, əqli və fiziki cəhətdən geri qalan uşaqları, himayəsiz uşaqları aşkara çıxarır. Uşağa və ya ailəyə kömək etmək üçün o, hüquqşünas, həkim, milis işçisini də bu işə cəlb edir. Məktəbin həkimindən uşağın xəstəliyi haqqında məlumat alır, səbəbini araşdırır ki, dərsdə geriləməsin deyə xəstəxanada və ya evdə onun dərsləri ilə məşğul olur.

Almaniyada sosial pedaqoq məktəbin ştatına daxil edilmişdir. O, uğursuz ailələrlə, təlimdə geri qalan şagirdlərlə iş aparır, asudə vaxtı səmərəli keçirmək üçün uşaq birlikləri yaradır, bu işə valideynləri cəlb edir.

Sosial pedaqoq məktəbdə nə ilə məşğul olur? Fənn müəllimlərindən fərqli olaraq o, müəllim stolu arxasında oturmur, məktəbin klubunda, müxtəlif yaş səviyyəsində olan dəstələrdə uşaqların köməyə ehtiyacı olduğu yerlərdə olur. O, sosial köməyə ehtiyacı olan uşaqları aşkar edir. Bunlar təlimdə geri qalan uşaqlardır ki, öz imkanları gücünə məktəb kursunu mənimsəyə bilmirlər. Bu həmyaşıdlar qruplarında, ailədə stres keçirən uşaqlardır. Bu və ya digər qüsurlarla olan, spirtli içkilərə və ya narkotik maddələrə aludə olmuş uşaqlardır. Çox zaman onlar yerli milis orqanlarının nəzarəti altında olurlar. Belə uşaqlarla yanaşı həm də istedadlı uşaqlar da mövcuddur.

Bəzən belə uşaqlara kömək ətrafdakılarla münasibətlərini araşdırmaq, digər halda - öz əməllərinə nəzarət etmək, özünə inandırmaq olur. Hər iki halda sosial pedaqoqdan ürəyiyumşaqlıq, həssaslıq və insanpərvərlik tələb olunur.

Sosial pedaqoq uşaqların təlimdən kənar vaxtının təşkilatçısına çevrilir, öz tərbiyə işini valideynlərlə birgə qurur. O, müxtəlif bölmələr, klublar, əmək, turizm və ölkəşünaslıq dəstələri yaradır.

Sosial pedaqoq məktəbin pedaqoji kollektivinin işini çətin uşaqlarla, ailələrlə, ətraf sosial mikromühit və mikrorayon ictimaiyyəti ilə tənzimləyir. O, tez-tez pedaqoji kollektivə siniflərdəki psixoloji iqlim, hər bir çətin şagird və ona kömək edilməsi barədə məlumat verir. Məktəbin sosial işinin planlı hazırlanması və tərtibində o, mühüm rol oynayır.

Sosial pedaqoqun məktəbdən qovulmuş uşaqlarla xüsusi iş aparması da tələb olunur. O, həmin uşaqlara başqa məktəblərə qəbul olunmaqda, yeni kollektivə alışmaqda kömək edir.

O, dərsdən yayınan, işləyən uşaqları da aşkara çıxarır, uşaq əməyinin hüquq normalarının yerinə yetirib yetirməməsini yoxlayır.

O, məktəbəqədər yaşlı uşaqları da nəzarətdən kənarda qoymur: bərpa mərkəzlərinə ehtiyacı olanların hamısının ora gələ bilməsində onlara kömək edir; çoxuşaqlı ailələrin bütün sosial imtiyazlardan istifadə edib-etməməsini aşkar edir. Sosial pedaqoqun iş təcrübəsi məktəbdə geniş yayılır.

**Məktəbin sosial vəzifələri**

Müasir məktəbin təcrübəsində kommunist ideologiyası tərbiyəsi və «hərtərəfli inkişaf etmiş şəxsiyyət» utopiyası «xəyala» çevrildikdə müəllimlərdə bir qədər çaşqınlıq yarandı: böyüyən nəslin tərbiyəsi işində komsomol və pioner təşkilatlarının köməyi olmadan necə keçinmək olar?

Lakin son illərdə bir çox məktəblərin pedaqoji kollektivlərinin iş təcrübəsi sübut etdi ki, məktəb təkcə təlim və tərbiyə məsələlərini deyil, həm də uşağın bir sıra sosial problemlərini həll edə bilir.

Ölkəmizdə baş verən dəyişikliklər mövcud təhsil sistemimizə də öz təsirini göstərdi: onda cəmiyyətin sosial, iqtisadi və siyasi böhranı öz əksini tapmaya bilməzdi. Ümumtəhsil məktəbləri öz sosial vəzifələrini ön plana çəkərkən, öz tədris, tərbiyəvi və sosial rolunu bir daha nəzərdən keçirməli oldu. Onlar aşağıdakılardır:

- Təhsil haqqında Qanunun qarşıda qoyduğu vəzifələrin yerinə yetirilməsi. Təhsilin uşaq və yeniyetmələrin maraqları əsasında qurulması;
- Tərbiyə işinin təhsil səviyyəsində təşkili;
- Məktəbin bütün fəaliyyəti elə qurulmalıdır ki, onun mərkəzində uşağın şəxsiyyəti, onun maraqları və qabiliyyətləri dayanmalı; uşaqlara əsil qayğı təşkil edilməli, «humanist pedaqogika» təsbit edilməlidir.

Məktəbin bütün işlərinin uşaqların fəallığı, uşaq özünüidarəsi, müxtəlif uşaq birlikləri, klublarının yaranması ilə təşkil edilməsidir.

Məktəbin sosial vəzifələrindən ən başlıcası İnsan, Vətəndaş tərbiyə etməsi və uşaqların təhsil almaq hüquqlarını həyata keçirməsidir.

Müasir şəraitdə məktəb uşağın sosial müdafiəsi məsələlərini necə həll edə bilir?

Məktəb müdiriyyəti, sinif rəhbərləri, qrup tərbiyəçiləri az təminatlı ailələrdən olan uşaqlara maddi yardımların ayrılmasını, məktəbdə onların pulsuz qidalanmalarını təşkil edirlər. Onlar uşağın ailədəki vəziyyətini öyrənir, çətin uşaqlarla fərdi surətdə işləyirlər.

*Məktəbdə psixoloqlar* uşağın qabiliyyətlərini və maraqlarını öyrənir, onun fərdi inkişafının, təlim və tərbiyəsinin yollarını müəyyən edir, ona psixo-terapevtik və psixoloji kö-

məklik göstərir, valideynlərə və uşaqlara məsləhətlər verirlər.

*Məktəbdə sosial işə direktor müavinlərindən* biri rəhbərlik edir. Uşaq və valideynlərlə sosial iş valideyn konfranslarında və pedaqoji şuralarda müzakirə edilir.

Sosial işçisi olmayan məktəbdə tərbiyə işləri üzrə direktor müavini məktəbin məktəbdənkənar uşaq müəssisələri, müxtəlif maarif təşkilatları, həddi büluğa çatmamış uşaqlarla iş aparan müfəttişliyi ilə əlaqəsinə xüsusi diqqət yetirir.

Tədris işləri üzrə direktor müavini öz fəaliyyətində dərnəklərin, klubların, müəllimlərin şagirdlərlə fərdi işi, yaşayış yerlərində onlar üçün məsləhətlərin keçirilməsini, çətin uşaqlarla, pedaqoji diqqətə və qayğıya ehtiyacı olan uşaqlarla öz işini təşkil etməlidir.

İbtidai sinif müəllimləri və sinif rəhbərləri, mikrorayon sahəsində yaşayan ailələri və şagirdləri öyrənib elə uşaqlara diqqət yetirir ki, onların sosial köməyə ehtiyacı var; çətin uşaqların tərbiyəsində ailəyə köməklik göstərirlər.

Fənn müəllimləri uşaqların meyllərini öyrənib onları müxtəlif dərnək və bölmələrə cəlb edir, məktəbdə kütləvi tədbirlərə hazırlayır, bu tədbirlərin keçirilməsinə valideynləri və sinif şagirdlərini cəlb edir, məktəbə maraqlı insanları dəvət edirlər.

Məktəbdə həll olunan sosial məsələlərin sxemi təxminən belədir:

*Sosial pedaqoqun çətin yeniyetmələrlə işi.* Gənc oğlan və qızları 11-12, 15-16 yaşlarda biz yeniyetmə adlandırırıq ki, bu şəxsiyyətin uşaqlıqdan yetkinliyə, gəncliyə doğru inkişaf dövrüdür. Bu dövrün xüsusiyyətləri yeniyetmələrin fiziki inkişafı xüsusiyyətlərindən asılıdır. Lakin bu təkcə fiziki deyil, həm cinsi yetkinlik, həm də şəxsiyyətin formalaşması dövrüdür.

Fiziki inkişaf sürətlə böyümə, çəkinin artması, əzələlərin inkişafı, skeletin sümükləşməsi, qan təzyiqinin yüksəlməsi,

tez yorulma, baş gicəllənmə, beynin və sinir sisteminin inkişafı ilə xarakterizə olunur. Bu, əlbəttə orqanizm üçün artıq yükdür: buna həm də cinsi yetkinlik də əlavə olunur ki, bu da cinsi meylliyə gətirib çıxarır.

Bu zaman həm də mənəvi inkişaf gedir ki, yeniyetmənin əqidəsi formalaşır. Çox zaman da əqidələr ictimai fikirlə üst-üstə düşmür, uyğun gəlmir.

Bu elə dövrdür ki, uşaq bir şəxsiyyət kimi öz üzərində düşünür və bu da özünü tərbiyə prosesinə gətirib çıxarır. Bu zaman onun xarakteri formalaşır, yeniyetmə özünü ətrafındakı həmyaşıdları ilə müqayisə edir.

*Çətin yeniyetmələr* – pedaqoji cəhətdən nəzarətsiz qalan uşaqlar olub, fiziki cəhətdən sağlamdır, lakin nə tərbiyə, nə də təlim almamışlar. Onlar öz yaşıdlarından təhsildə geri qalırlar, çünki onlarda yaddaş, təfəkkür və təxəyyül inkişaf etməmişdir.

Onlar əməklə məşğul olmaq istəmir, özlərini nə isə etməyə məcbur edə bilmir, müntəzəm məşğul ola bilmir, onları nə maraqlandırırsa onu edirlər. Çətin yeniyetmələr məktəbdə intizamı və qayda-qanunu pozur, müəllimlərlə həmyaşıdları, valideynləri də münaqişəyə girir, məktəbi atır, özlərini uğursuz hesab edirlər. Avara, tüfeyli həyat keçirir, narkotiklərə, içkiyə qurşanır, qanunları pozurlar. Sərxoşluq onları oğurluğa, həbsə aparıb çıxarır. Cinsi əlaqələrin təbliği yeniyetmə hamiləliyinə gətirib çıxarır ki, onlar erkən yaşdan cinsi əlaqələrə sövq edilirlər. Məhz yeniyetmələr fiziki və cinsi zorakılıq nəticəsində özünü məhvə, intihara əl atırlar.

Müasir dövrdə uşaq nəzarətsizliyi ötən əsrin 20-ci illərinin səviyyəsinə çatır. Yeni iqtisadi münasibətlər (özəlləşdirmə, icarə, kooperasiya) yeniyetmələrin istehsalda mühafizə edilməməsinə səbəb oldu. Köhnə təhsil sistemində təhsil almış bir çox yeniyetmələr yeniliyi öyrənmək və ya təhsili davam etdirmək istəmirlər.

Demokratik azadlıqlar şəraitində (çoxpartiyalılıq, özünü-idarə, söz azadlığı) əgər ona mədəni davranış qaydaları aşılanmamışsa, əgər onlarda mənəvi dəyərlər yoxdursa yeniyetmələr düzgün seçim edə bilmir.

Onların məktəbdən qovulması və texniki peşə məktəblərinə qəbulunun azalması təcrübəsi göstərir ki, bu uşaqlar iş tapa bilmir. Məhz həmin yeniyetmələr, gənclər cinayətə sövq edilirlər.

90-cı illərdə yeniyetmələr arasında cinayətkarlığın sayı iki dəfə artmışdır.

### *Suallar və tapşırıqlar*

1. Ailə nədir. Şəxsiyyətin tərbiyəsi, inkişafında və sosiallaşmasında onun rolu.
2. Müasir ailənin tipiek problemlərini səciyələndirin.
3. Müasir dövrdə uşaqlar necə müdafiə olunur? Dövlətin bu işdə rolu və iştirakı nədən ibarətdir.
4. Sosial işçinin ailə ilə apardığı işin məzmunu, formaları və iş üsulları hansılardır.
5. Sosial pedaqoqun peşə fəaliyyətinin xüsusiyyətlərini səciyyələndirin.
6. Sosial işçi məktəbdə öz işini necə qurmalıdır?
7. Sosial pedaqoqun iş prinsiplərini açıqlayın.

### *Referat üçün mövzular*

1. Ailə uşaq şəxsiyyətinin tərbiyəsi, inkişafı və sosiallaşmasında sosimədəni mühitdir.
2. Ailənin sosial səciyyəsi.
3. Uşaqların sosial müdafiəsi sahəsində dövlət siyasəti.
4. Sosial işçinin praktik fəaliyyət prosesində ailə ilə apardığı işin məzmunu və formaları.

## Ədəbiyyat

1. Андреева Г.М. Социальная педагогика. М., 1988.

2. Василькова Ю.В., Василькова Т.А. Социальная педагогика. - М., Академа, 2004.

3. Галагузова М.А. Профессиональная подготовка социальных педагогов.//Социальный работник, 1992, № 6.

4. Григорьев С.И. Теория и методика социальной работы.- М., 1991.

5. Комарова М.С. Введение в социологию. М., 1994.

6. Кон И.С. Ребенок и общество. М., 1988.

7. Личность и факторы ее социализации: семья, коллектив, образование и культура. –Н.Новгород, 1995.

8. Мардахаев Л.В. Социальная педагогика. М., Гардарики, 2005.

9. Мудрик А.В. Введение в социальную педагогику.- М., 1997.

10. Никитин В.А. Понятие и принципы социальной педагогики. М., 1996.

11. Социальная работа и социальная философия.- М., 1996.

12. Смелзер Н. Социология. М., 1994.

13. Тихомирова Е.И. Социальная педагогика. Самореализация школьников в коллективе. М., Академа, 2005.

14. Филонов Г.Н.Социальная педагогика: научный статус и прикладные функции //Педагогика, -1994, -№ 6.

### Azərbaycan dilində

15. Abdulov R. Aktual sosial problemlər və viktimoloji proseslər. //Azərbaycan məktəbi, 2004, №2.

16. Abdulov R. Məktəbdə sosial-pedaqoji işin əsasları. «Adiloğlu», Bakı, 2005.

17. Abdulov R. Sənin sosial fəallığın. Bakı, 2002.

18. Ağayev.Ə.,Talıbov Y., Eminov A., İsayev İ. Pedaqogika. Adiloğlu, Bakı, 2006.
19. Ağayev.Ə. Həyatın astanasında. Bakı, 1983.
20. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiyanın aktual məsələləri. Nəzəriyyə.Metodika. Axtarışlar. Bakı, 1998.
21. Quliyev S.M. Ailə pedaqogikasının ümumi problemləri. Bakı, «Nurlan», 2005.
22. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı, Maarif, 1982.
23. Əlizadə H. Sosial pedaqogikanın aktual problemləri. Bakı, Maarif, 1998.
24. Əlizadə H. Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, 1993.
25. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika.Yeni kurs. Bakı: Çaşıoğlu, 2002, 2007.
26. Uşaq Hüquqları Konvensiyası. B.,1996.

# FƏSİL 4. ÇƏTİN HƏYAT ŞƏRAİTİNƏ DÜŞMÜŞ UŞAQLARLA İŞ

## 4.1.Yeniyetmələrin davranışındakı əyintilər

Yeniyetmələrin davranışındakı əyintilər - pedaqoji nəzarətsizliyin onu əhatə edən və ona pozucu təsir göstərən ətraf mühitin nəticəsidir. Bu nəticə – etiraz reaksiyası, itaətsizlik, kobudluq, küsərək evdən çıxıb getməkdir. Çətin uşaqlar çox çılğın, təcavüzkar, oğurluğa, avaraçılığa, cinsi pozğunluğa, spirtli içkilərin qəbuluna meyllidirlər.

Çətin yeniyetmələrin davranış xüsusiyyətləri sahəsində çox maraqlı tədqiqatlar aparılmışdır. Onlar aşağıdakı qruplara bölünür:

*I qrupa* - öz həmyaşıdlarından həm fiziki, həm də cinsi inkişafda geri qalan, psixi cəhətdən geriliyi olan uşaqlar aiddır. Belə uşaqlar özünə qapanan olub, məsuliyyətsiz, hissləri keçici və maraqları sabit deyil. Belə uşaqlar məktəbdən yayınır, üsyankarcasına heç nəyə tabe olmur, dərs oxumurlar.

*II qrupa* - «sürətli» cinsi inkişafı və yüksək affektli, çılğın, aqressiv yenilikləri olan uşaqlar aiddir. Onlar həm valideynlərinin, həm də tərbiyəçilərinin hər bir qadağasına çox çılğın reaksiyalar verirlər.

*III qrupa* - cinsi pozğunluq, avarçılıq, narkotiklərin qəbulu ilə məşğul olan uşaqlar aiddir. Bunlar adətən valideynləri asosial həyat tərzi sürən, daim münaqişədə yaşayan ailədən çıxırlar. Onlar çox kinli, qəddar, aqressiv, tez özündən çıxandırlar. Davranışda olan bu əyintilər pedaqoji cəhətdən nəzarətsiz qalan yeniyetmələr üçün səciyyəvidir. Həmçinin davranışdakı əyintilər, pozuntular orqanizmin anomal inkişafının nəticəsidir.

baxımsızlığın səbəblərini araşdırmalı, daha sonra pedaqoji prosesin özünü tərbiyə prosesi ilə birləşdirməlidir.

Çətin uşaqlarla iş zamanı sosial pedaqoq hər bir tərbiyə olunan üçün psixoloji xəritə hazırlayır ki, bu da sosial pedaqoqun şəxsiyyətlə işinin xüsusiyyətidir.

Belə uşaqların həddən artıq dözümsüz, çılğın olmasını nəzərə alaraq sosial işçi elə fəaliyyət növü seçməlidir ki, münaqişələr zamanı onlar özünü dözümlü və təmkinli apara bilsin. Pedaqoqun vəzifəsi yeniyetmədə dözümlülük, diqqət, təmkin tərbiyə etməkdən ibarətdir.

## 4.2. Sosial pedaqoqun «qeyri-formal»larla işi

«Çətin yeniyetmələr» bir çox qeyri-formal birliklərdə çoxluq təşkil edir ki, sosial pedaqoq belə uşaqlarla işləyərkən onlar haqqında xüsusi məlumatı olmalıdır. Tarixə müraciət edək. Qeyri-formal qruplar ilk dəfə ikinci dünya müharibəsindən sonra Avropa ölkələrində gənclərin ictimai və iqtisadi sistemləri, sosial və mənəvi dəyərləri qəbul etməməsi kimi meydana çıxdı. Bu mövcud qaydalara qarşı etiraz və insan varlığının mövcudluğunun daha düzgün, ədalətli formalarının axtarılması idi.

40-cı illərin sonu 50-ci illərin əvvəllərində çox da böyük olmayan gənclər qrupları özlərini cəmiyyətə qarşı qoyurlar. Onların jestləri, dilləri, davranışları, musiqiləri, siyasi həyata maraqları onlara diqqət yetirməyə məcbur edirdi. Onlar - *bitniklər idi ki,* zirzəmilərdə yaşayır, sadə geyimdə olub, həyatın mənasını axtarırdılar.

50-ci illərin ortalarında bir çox Avropa ölkələrində 14-20 yaşlarda dəri pencəkdə işsizlərdən ibarət, atalarını müharibədə itirmiş «qəzəblənmiş gənc insanlar» öz vəziyyətlərinə etiraz kimi mağaza vitrinlərini və reklamları qırıb sındırırdılar.

Daha sonra *teddlər* hərəkatı yarandı ki, onlar qəzəbli olub, təkcə mülki əmlaklara deyil, təsadüfən qarşılarına çıxan, xüsusilə də ağ dərisi olmayanları da öz qəzəblərinə düçar edirdilər.

12-20 yaş həddində olan gənclər 60-cı illərin əvvəllərində *Tods* qrupunda birləşərək, ixtisaslı fəhlələrin övladları olan, işləyən gənclər idi ki, onlar yalnız istirahət günlərində öz etiraz aksiyalarını keçirirdilər.

Daha kütləvi hərəkat *hipplərdir.* Onlar insansevərlik kimi dəyərlər sistemini irəli sürürdülər: «Müharibədənsə məhəbbəti yaradın». Onların geyimləri müxtəlif milli mədəniyyətləri, əlvan atributları əks etdirirdi: buddist geyimi, hind amuleti və talismanı, Avropa gitarası və dodaq qarmonları və s. Hərəkət simvolu – güllər idi. Onlar öz atalarını cəmiyyətin təbii insani tələbatlarından uzaqlaşdıqlarına görə günahlandırırdı. Şəxsiyyətin, hər bir fərdin məhvinə qarşı etiraz edir, cəmiyyətin formal qanunlarına qarşı çıxırdılar.

1964-cü ildə hipp hərəkatının təsiri ilə tələbələrin kütləvi çıxışları: nümayişlər, barrikadalar, polislə qarşıdurma başladı. Hipplər çox da böyük olmayan emalatxanalar, kənd təsərrüfatı fermalarını yaradıb, əşya pul münasibətlərindən qaçmağa çalışıb, öz mallarını mağazalara pulsuz verərək müflisləşdilər. Bu isə mövcud cəmiyyətə qarşı kommunalar yaratmaq cəhdi idi.

Bu zaman hipplərdən *yipilər* qrupu ayrıldı ki, onlar xalqı inqilabi dəyişikliklərə çağırırdı.1968-ci ildə 15 min yipi Çikaqoda yürüş təşkil edərək, ABŞ-da prezidentliyə nümayəndələri müzakirə edirdilər.

Üç gün sonra demokratik Amerika polisi dubinka və gözyaşardıcı qaz ilə yeniyetmələri qəddarcasına döyürdülər.

Hippi hərəkatının böhranı, məyusluq və gənclərin arzusunun boğulmasına, seksual inqilabı ideyaların onların hərəkatına nüfuz etməsinə səbəb oldu.

Hipp kommunası üzvləri ümumi təsərrüfatla məşğul olmaqla, eyni tərzdə uşaq tərbiyə edir, bir çoxları ümumi cinsi partnyorlara malik idi.

70-ci illərdə gənclər arasında cəmiyyətə daha dinc etiraz kimi müxtəlif dini cərəyanlar (sektalar): «yaşıllar» hərəkatı, yeni demokratiya qrupları, qadın və işsizlərin hüquqlarının müdafiəsi qrupları yarandı.

İnkişaf etmiş ölkələrdə *rokerlər* - fəhlə ailələrindən olan motosiklli gənclər meydana çıxdı. Onlar yüksək sürətlə, uğultu ilə şəhərlərin axşam sükutunu pozmaqla azadlıq hisslərini keçirirdilər. Almaniyada faşist yönümlü *milli rokerlər* hərəkatı yarandı.

Müasir dövrdə geniş şəkildə yayılmış kütləvi qruplar-fenklublardır ki, bunlar ekstremizm, zülm və təcavüz, millətlərarası çaxnaşma təbliğatı ilə məşğuldurlar. Almaniyada Avropa kuboku uğrunda keçirilən futbol matçı zamanı Qərbi Almaniya fanatları türklərə qarşı öz kinlərini nümayiş etdirdilər.

*Popperlər* - atalarına etiraz hərəkatından fərqli olaraq həyatdakı mənfiliklərə fikir verməyərək, mövcud nemətlərdən həzz almağı, onları öz ətrafında görməyi təbiiğ edirdi.

*Panklar* çox məşhur qrupdur. Özlərini cəmiyyətin tullantısı hesab edərək onlar ətrafdakıların hörmətini qazanmağa çalışırlar: sifətlərinə müxtəlif rəngli boyalarla yazılar yazır, başlarını keçəl qırxır, cırıq geyimdə, it boyunduruğu və ya boyunlarına unitaz zənciri taxaraq gəzirlər.

Yeni qeyri-formal gənclər hərəkatı *kiber-pankizm* adlanır ki, bu da qeyri-formal qrupa mənsub olub, iki istiqamətə yönəlir: özlərini dərk edən və dərk etməyənlər.

Çoxluğu ikinci istiqamət, müxtəlif yaş həddində olan kompyüter aludəsiləri olan insanlar təşkil edir. Texnikaya aludəçilik onlara incəsənətlə elmi, ədəbiyyatla sənayeni birləşdirməyə imkan verirdi.

Rusiyada belə qruplar Böyük Vətən müharibəsindən sonra meydana gəldi. Yenidənqurma dövründə onların sayı daha da artdı. Hal-hazırda çoxlu sayda qeyri-formal qruplar mövcuddur ki, onlar bir-biri ilə əlaqə saxlayırlar. Hippilər, metalçılar, pankilər bir-birini yaxşı tanıyırlar və bir qrupdan digərinə asanlıqla keçə bilirlər.

Niyə gənclər qeyri-formal qruplara can atırlar? Bəziləri maraq ucbatından hərəkatın fəlsəfəsini dərk etmədən, digərləri vaxtlarını keçirmək üçün hərəkatda maraqlı formalar görür, üçüncülər –orijinal həyat tərzi axtarışı ilə qoşulurlar. Hippilərin öz fəlsəfi platforması, özlərinin davranış formaları mövcuddur. Hippilər Rusiyada 60-cı illərdə meydana gəldi. Bu gəncəlrin «jins» parçadan olan geyimlərə marağından yarandı.

70-ci illərin sonunda hippiləri panklar, metalçılar, breykerlər sıxışdırmağa başladı, lakin 80-cı illərə yaxın yeni hippi hərəkatına maraq gücləndi. Hal-hazırda hipplər sistemini iki min-13-36 yaş həddində olan gənclər təşkil edir. Hipplər düz uzun saçlara malik olub, alın və ənsə hissəni nazik zolaqla örtür, çoxusu saqqal saxlayır. Onların geyimi və davranışı təbiətdən ayrılmamaq kimi izah edilir. Guya uzun saçlar kosmosla, kosmik zəka ilə əlaqəyə kömək edir. Jins parçadan geyim, bir çox hallarda cırıq geyim, köhnə dəbli palto geyir, bəzək əşyaları taxır, sənədlər üçün jins parçadan balaca torba gəzdirirlər. Ordu sıralarında xidmətə qarşı çıxaraq, başqa digər reallığa inanırlar. Hipplər hərəkatı cəmiyyətə qarşı özünəməxsus çağırışdır.

*Pank* hərəkatı da Rusiyada yayılmışdır. Onlarda xoruz pipiyinə bənzər saç düzümü, lüt bədəndə pencək,

kobud jarqon, qıcıqlandırıcı davranış var. Onlar şəhərlərarası əlaqə yaradırlar. Onların şəhərdə peyda olması dava-dalaşa və soyğunçuluqla müşaiyət edilir.

*Majorlar* qrupu (amerika tərzli, ingilis tərzli, fransız tərzli və s.) yalnız həmin ölkələrdə olan geyimləri geyir, onların qaldıqları mehmanxanaların qarşısında toplanaraq öz geyimlərini nümayiş etdirirlər. Onlar- işgüzar, güclü, bir neçə dil bilən narkotiklərə qarşı çıxan, fəal idmanla məşğul olanlardır.

*Rokerlər* motosikldə gur səslə yüksək sürətlə, qrupplarla, gecələr cəmiyyətə öz etirazlarını nümayiş etdirirlər, sürücülük vəsiqəsi olmur, cinayətkar elementlərlə əlaqəyə girirlər.

*Satalistlər* – bu müəyyən futbol komandasının fanatlarıdır.

*Metal rok pərəstişkarları* – daha geniş yayılmış qruppdur. Onlar da bir neçə növdür.

Geniş yayılmış qruplardan biri də *sağ ekstremist qrup – neofaşsitlərdir.*

Qara rəngli gödəkçə, dar şalvarda, ağ köynək, qara qalstuk, girz uzunboğaz çəkmə, bədəndə rəsm və yazılar (tatuirovkalar) – bu qrupların atributlarıdır. Onlar sosial cəhətdən qorxulu qruplardır. Moskva şəhərində soydaşlarımıza işgəncə verən, onların evlərini yandıran, küçələrdə onlara basqın edərək öldürənlərdir.

Alimlər, tədqiqatçılar yeniyetmələrin qeyri-formal qrupda iştirakı səbəbini təhlil etmişlər. Bu müasir qərb mədəniyyətini dərk etmək, məktəbdə yetirməyənlərin məktəb kollektivindən ayrı düşməsi; nəyə isə marağın «ölməsi», fəaliyyətsizlik, təlimə etinasızlıq; emosional hisslərə tələbat; məktəbdə onlara fərdi yanaşılmaması; ailədə uşaqlara qarşı olan diqqətsizlik, tənhalıq, atılmaq, gənclər qruplarında aldıqları orijinal azadlıq, təəssüratdır. Qeyri-formalların yanına getmə – dosta-yoldaşa olan tələ-

bat, evdə və ya məktəbdəki münaqişələrə, böyüklərin diqqətsizliyinə qarşı etirazdır. Belə uşaqlarla dil tapmaq, onları maraqlandıran problemləri həll etmək lazımdır.

Bir çox hallarda qadağalar da qoyulur, əgər qrupda narkotiklər, sərxoşluq, zülm, qəddarlıq, parnoqrafiya, fahişəlik, heofazm təbliğ edildikdə qrupların fəaliyyəti qanuna əks xarakter daşıyır.

### 4.3. Sosial pedaqoqun fitri istedadlı uşaqlarla işi

İstedad, talant, dahilik – bu insanın hər hansı qabiliyyətinin yüksək səviyyəsidir. Onlardan biri – sosial istedaddır ki, onu *müdriklik* adlandırırlar, o, nə şəhərdə, nə də ailədə narahatçılıq yaratmır.

Ən çox tədqiq olunan, öyrənilən *bədii* (musiqi, təsviri incəsənət və səhnə) istedadıdır. Xüsusi idman qabiliyyəti *psixomotor* istedadıdır.

*Akademik istedad* oxumaqda qeyri-adi qabiliyyətdə təzahür edir ki, gələcəkdə çox yaxşı ixtisaslaşmaya səbəb olur.

*İntellektual* istedad- təhlil etmək, düşünmək, faktları müqayisə etmək qabiliyyətidir. Ailədə ağıllıdır, məktəbdə əlaçı. Bəzi hallarda belə uşaq 1-2 fənn üzrə əlaçı olur, digər fənnlərdən yetirmir.

*Yaradıcı* istedad dünyanı qeyri-şablon düşüncə tərzi ilə qeyri-standart halda görməkdir. Çox zaman qarşıya qoyulan məqsədə çata bilmir və «uğursuzlar» sırasına düşür. Onlar uşaqlıqda məktəbdə və ailədə hamını qıcıqlandırırlar. Belə uşağı duymaq və ona vaxtında kömək etmək lazımdır.

İstedadlı uşaqlar üçün ümumi olan biliklərə tələbatdır. Adətən onları oxumağa məcbur etmək lazım gəlmir, onlar çox zaman özləri üçün çətin və intellektual iş və məşğuliyyət tapırlar.

İstedadlı uşaqlar böyüklərlə ünsiyyət qurmağa çalışır, çünki böyüklər onu yaxşı başa düşür və onunla fəxr edirlər. Həmyaşıdları onu başa düşmür və ona gülür, ona təxəllüs də verirlər.

Belə uşaqların emosionallığı çox güclü olur, onlar çox çılğın olub, bəzən boş şeylərin üstündə dava-dalaş salırlar, lakin bu şıltaqlıq deyil, bu emosionallığın yüksək həddidir. Yaradıcı uşaqlar sakit olur, öz istedadına görə uşaqlıqdan əziyyət çəkirlər.

Belə uşaqlarda anadangəlmə yüksək yumor hissi güclü olur. Onlar ən kiçik zarafatla öyünür və zarafatları dinləməyi xoşlayırlar.

Belə uşaqlar xüsusi nitqə malikdir. Onların xüsusi motorikası və ya qavraması digər uşaqlardan fərqlənir (onlar hətta «yeməyi də başqa uşaqlar kimi yemirlər»).

Qeyd etdiyimiz keyfiyyətləri yekunlaşdıraraq qeyd etməliyik ki, Dünya səhiyyə təşkilatlarının qərarı ilə fitri istedadlı uşaqlar əqli gerilyi olan, kiçikyaşlı cinayətkarlar, sərxoş ailələrin uşaqları ilə bərabər «risk qrupuna» daxildir. Onlara xüsusi tərbiyə, xüsusi fərdi tədris proqramları, xüsusi hazırlıqlı müəllimlər, xüsusi məktəblər də lazımdır.

Bunlar elə məktəblər olmalıdır ki, burada belə uşaqların xüsusiyyətlərini və problemlərini bilsinlər və nəzərə alsınlar. Burada belə uşaqlar üçün çətin vəzifələr qoyulmalıdır ki, öz qabiliyyət və imkanlarına uyğun onları dəf etdikdə onlarla bərabər müəllimləri də inkişaf etsin.

Belə məktəblərdə müəllimin işi çətin və ağırdır, çünki bu məktəbdə uşaqlar həmişə «çevik», «təlatümlüdür». Onlar sözü üzə dik söyləyən, özlərinə güvənən və təmiz qəlblidirlər.

İstedadlı uşaqla işləyərkən tərbiyəçiyə belə uşağı ondan ağıllı olması (!) fikrini qəbul etmək çox çətindir.

Onların bir çoxusunda özünü öymə çox üyksək olduğundan belə «səddi aşmaq» lazım gəlir.

Həm də gizli istedadı olan uşaqlar da var ki, bu onlarda açıq-aşkar şəkildə təzahür etmir, o zaman belə uşaqla ailədə onu əhatə edənlər böyük çətinliklərlə üzləşirlər. Bu *fanat* uşaqlardır ki, hər hansı bir fəaliyyətə aludə olurlar. Onlar üçün məktəb gülünc görünür. Eyni zamanda *tənbəl* uşaqlar da vardır ki, onlar məlumatı mənimsəyir, lakin heç bir iş görmək istəmirlər.

*Təvazökar* uşaqlar – özlərinə qiymət verməkdə «xəsislik» edir, özlərini nümayiş etdirməyə səy göstərmirlər. Bir tip də «nevroz»lardır ki, hətta onları «psixopatlar» da adlandırırlar ki, onlar daim ailədə və ətrafdakılarla münaqişə yaradırlar. *Qəribə və əcaiblər* - sakit olub, münaqişə xoşlamırlar.

Belə istedadları ailədə bilməli, onlara valideynləri, müəllimləri, tərbiyəçiləri və sosial pedaqoq tərəfindən xüsusi qayğı və kömək göstərilməlidir.

**İstedadlı uşaq ailədə**

Ailədə istedadlı uşaq - bu ailənin fəxridir. Çox zaman uşaq istedadı ailədə hiss olunmur. Əgər o, ailədə təkdir və ya ailədə bütün uşaqlar istedadlıdırlarsa, bu hiss olunmur.

Heç də bütün valideynlər belə uşaqlarla öyünmürlər. Çox hallarda onlar uşaqlarının başqalarından seçilməyinə utanır, onun da «hamı kimi» olmasını istəyirlər. İdeal hal o zaman baş verir ki, bu istedadı valideynlər vaxtında duyub, uşağa kömək etsinlər.

Bəzən valideynlər istedadı «incidir», çox da güclü olmayan qabiliyyətdən istedad «düzəltmək» üçün onu yorur, bütün gücünü, qüvvəsini tükədirlər. Bir çox uşaqlar valideynlərin belə təcavüzünə davam gətirir və xudbin valideynlərin ümidlərini doğruldurlar. Pozulmuş səhhəti düzəltmək olar, lakin qırılmış mənəvi qüvvələri bərpa etmək çox çətindir. İstedad, əgər varsa, o, üzə çıxır, ən

mühümü, ona kömək edilməsidir. Lakin istedadlı uşaq üzərində «qəsbkara» çevrilmək olmaz.

Valideynlər öz uşaqlarının istedadını çox zaman çətin söz və tələffüzündə, erkən nitqində, saymaq və oxumağında, iti yaddaşında və güclü marağında, həmçinin tez qavrama və təxəyyülündə hiss edirlər.

Validyenlərin vəzifəsi bu qabiliyyətləri vaxtında hiss etmək, duymaqdır. Daha doğrusu istedadı erkən uşaqlıq dövründə aşkar edib onun inkişaf etdirməkdir. Ailədə belə uşağı təkcə aşkar etmək deyil, həm də ona xüsusi münasibət göstərmək də vacibdir. Onu uşaqlar arasında seçmək lazım deyil, bu ona mənfi münasibətin yaranmasına səbəb ola bilər.

İstedadlı uşaq özünütəsdiqə can atır, öz «vergisinin» daha da inkişaf etməsini arzulayır. Valideynlər onun hamını «ötüb keçmək» səyinə narahat olmur və nəticədə həmin uşağın ətrafdakılarla problemi yaranmır.

**Sosial pedaqoqun istedadlı uşaqlarla işi**

Sosial pedaqoq ilk növbədə bilməlidir ki, uşaq nə qədər istedadlı olsa da onu oxutmaq, öyrətmək lazımdır. Onu oturaqlığa, əməyə, müstəqil qərar qəbul etməyə öyrətmək vacibdir.

Sosial pedaqoq ilk növbədə belə uşağa öz münasibətini müəyyən etməli, sonra onunla düzgün qarşılıqlı anlaşma yolunu seçməlidir. İlk növbədə uşaqda *xüsusi olan nədir* – onu aşkar etməlidir. Unutmaq olmaz ki, bir çox hallarda uşaq istedadı valideynlərin gözünü «qamaşdırır», kor edir.

Ailədə münaqişələr belə uşağa təzyiqlər göstərilməsi zəminində baş verir. Valideynlər unudurlar ki, o, təzyiqi xoşlamır, tənqidləri qəbul etmir, bu isə münaqişələrə səbəb olur.

Sosial pedaqoq valideynlərə uşağın fərdi qabiliyyətlərini inkişaf etdirməkdə kömək edir, onu mütəxəs-

sislərin yanına göndərir, məsləhətlər verir, valideynlərlə müəllimlər arasında müntəzəm əlaqələr yaradır.

İstedadlı uşaqların qeyri-adi davranışı o zaman təzahür edir ki, onların əhvalı tez-tez dəyişir, onlar ünsiyyətdə dözümlü olmur, öz həmsöhbətlərini yarımçıq kəsərək öz biliklərini nümayiş etdirirlər. Öz həmsöhbətində hansısa qeyri-dəqiqlik gördükdə onu düzəltməyə çalışır, həmişə öz fikirlərini düz hesab edir, düz olmadıqda özlərini pis hiss edirlər.

Bütün bu keyfiyyətlər ilk növbədə dözümlülük və barışmazlıq tələb edir.

İstedadlı uşaqlar əliaçıqlığın, ürəyiyumşaqlığın, düzgünlüyün nə olduğunu yaxşı bilir, lakin bu kimi gözəl keyfiyyətlərin təcrübədə tətbiqini bacarmırlar. Bu zaman sosial pedaqoqun köməyi lazım gəlir.

Hər şeyi bilmək, öyrənmək səyi, güclü yaradıcı potensial qəbul edilmiş qaydalar və ətrafdakılarla münasibət normasının pozulması ilə çulğaşır.

Burada sosial pedaqoqun valideynlərlə sıx əməkdaşlığı vacibdir. Belə uşaqları öz arzusuna uyğun əməyə cəlb etmək, onlar üçün yaradıcı iş şəraiti qurmaq lazımdır. Belə uşaqları adətən Uşaq yaradıcılıq evlərinə üzv etdirmək daha məqsədəuyğundur.

### *Suallar və tapşırıqlar*

1. Hansı uşaqlara istedadlı uşaq demək olar?
2. Ailədə istedadlı uşaq.
3. İstedadlı uşaqla sosial pedaqoqun işinin istiqamətləri.

### *Referat üçün mövzular*

1. Yeniyetmələrin davranışında müşahidə olunan əyintilərin yaranma səbəbləri.

2. Sosial pedaqoqun «qeyri-formal»larla apardığı işin səciyyəsi.

3. Sosial işçinin praktik fəaliyyət prosesindəçətin həyat şəraitinə düşmüş uşaqlarla apardığı işin məzmunu və formaları.

4. Fitri istedadlı uşaqlara ailə və məktəbin köməyi nədən ibarət olmalı.

### *Ədəbiyyat*


1. Андреева Г.М. Социальная педагогика. М., 1988.

2. Василькова Ю.В., Василькова Т.А. Социальная педагогика. -М., Академа, 2004.

3. Галагузова М.А. Профессиональная подготовка социальных педагогов. //Социальный работник, 1992, № 6.

4. Диагностика школьиой дезадаптации. М.,1993.

5. Как подготовить вашего ребенка к жизни.-М., 1991.

6. Кащенко В.П. Нужно ли выделить даровитых детей из общей массы школьников. //Антология пед. мысли России. Вторая половина XIX - начало XX в.- М., 1990.

7. Личность и факторы ее социализации: семья, коллектив, образование и культура. – Н.Новгород, 1995.

8. Мардахаев Л.В. Социальная педагогика. М., Гардарики, 2005.

9. Мудрик А.В.Введение в социальную педагогику.- М., 1997.

10. Одаренные дети. – М., 1991.

11. Психологические особенности агрессивного поведения подростков и условия его коррекции. М., 1996.

12. Семенов В.Д. Социальная педагогика: история и современность. Екатеринбург, 1995.
13. Тихомирова Е.И. Социальная педагогика. Самореализация школьников в коллективе. М., Академа, 2005.
14. Филонов Г.Н.Социальная педагогика: научный статус и прикладные функции //Педагогика, -1994, -№ 6.

Azərbaycan dilində

15. Abdulov R. Aktual sosial problemlər və viktimoloji proseslər. //Azərbaycan məktəbi, 2004, №2.
16. Abdulov R. Məktəbdə sosial-pedaqoji işin əsasları. «Adiloğlu», Bakı, 2005.
17. Abdulov R. Sənin sosial fəallığın. Bakı, 2002.
18. Ağayev.Ə. Uşaqlarda vətəndaşlıq borcunun tərbiyə edilməsi. B.,1975.
19. Ağayev.Ə. Həyatın astanasında. Bakı, 1983.
20. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiyanın aktual məsələləri. Nəzəriyyə. Metodika. Axtarışlar. Bakı, 1998.
21. Quliyev S.M. Ailə pedaqogikasının ümumi problemləri. Bakı, «Nurlan», 2005.
22. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı, Maarif, 1982.
23. Əlizadə H. Sosial pedaqogikanın aktual problemləri. Bakı, Maarif, 1998.
24. Əlizadə H. Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, 1993.
25. Kazımov N.M., Həşimov Ə. Ş. Pedaqogika. Bakı: Maarif, 1996.
26. Uşaq Hüquqları Konvensiyası. B.,1996.

# FƏSİL 5. SOSİAL TƏRBİYƏNİN AVROPA VƏ ABŞ TƏCRÜBƏSİ

## 5.1.Sosial pedaqoqun Almaniya, Böyük Britaniya və ABŞ-dakı iş təcrübəsi

Sosial tərbiyə üzrə iş təcrübəsinin öyrənilməsi sosial pedaqoq üçün çox maraqlıdır, belə ki, müxtəlif ölkələrdə özünəməxsus ailə və uşaqlarla sosial iş sistemi yaradılmış, xəstə uşaqlarla və böyük riskli ailələrlə sosial pedaqoqların məktəbdə və mikrorayonda maraqlı iş təcrübəsi toplanmışdır.

İnkişaf etmiş Avropa ölkələrində sosial iş ehtiyacı olanlara yardım kimi istiqamətlənmişdir. Belə ki, *İsveçdə* səhiyyə müəssisələrində xəstələrə sağalma rejimi yerinə yetirilməsində, əməliyyata hazırlıqda onun mənəvi vəziyyətinin yaxşılaşmasında, vəfat edənlərin ailələrinə mənəvi dayaq, valideynlərini itirmiş uşaqların taleyinin həll edilməsində kömək kimi həyata keçirilir. İsveçin ruhi xəstəxanalarında sosial işçi xəstənin müalicə kursu bitdikdən sonra da öz işini davam etdirir.

*İngiltərədə* sosial işçi doğum evlərində, ruhi xəstəxanalarda işləyir. Sosial pedaqoq sosial xidmətin tərkibinə daxil olur ki, burada məktəb müəllimlərinə çətin yeniyetmələrlə iş aparmaqda kömək edirlər. Valideyn və uşaqlara ailədə münasibətləri qaydaya salmaqda, valideyn və uşaqların təhsilə olan maraqlarını, müəllimlərlə münasibətəlrini qurmaqda kömək edir. İnkişafda geri qalan uşaqları ilə qəddarcasına rəftar edən ailələri aşkara çıxarırlar. Sosial pedaqoq müvəqqəti olaraq məktəbdən qovulan və ya xəstəlik üzündən məktəbə gəlməyən uşaqlarla məşğul olur, uşaqlarla evdə dərs keçir. Sosial yardımlardan istifadə etmək üçün milli azlıqların uşaqlarının

uyğunlaşması prosesində köməklik göstərir, məktəbdən kənarda təhsil alan uşağa arxa dururlar.

*Almaniyada* sosial işçi məktəbin ştatına daxil edilməklə çətin yeniyetmələrlə işləyir, onların asudə vaxtının təşkili ilə məşğul olur. Məhkəmə və həbsxanada o, kiçikyaşlı canilərlə cinayət işi qaldırılanadək və məhkəmə qərarından sonra da işləyir. Uşaq cinayətkarlığının qarşısının alınması üçün çalışır, uşaq və yeniyetmələri qoca, tənha insanlarla əlillər evində, xəstələrlə xəstəxanada işə cəlb edir.

Həbsxanada sosial pedaqoq məhkum olunanın bütün cəza çəkmə müddətində təhsili və işləməsi üçün plan tutur, istirahətini təşkil etməyə kömək edir, maliyyəni tənzimləyir, həbsdən azad olduqda işə düzəlməkdə kömək edir.

Almaniyanın bir sıra müəssisələrində sosial pedaqoq fasiləsiz təhsil və yaşlı fəhlələrin ixtisaslarının artırılması ilə məşğul olur.

*Şimali İrlandiyada* xüsusi xidmət mövcuddur ki, burada zabit 4-5 nəfərlik komanda ilə məhkəmə qarşısında həddi büluğa çatmayanların vəziyyətini təhlil edir, cəza müddətini çəkdikdən sonra ona kömək edir ki, yeniyetmə əvvəlki cinayətkar yola qayıtmasın.

C.Q.Baris «İngiltərədə ailələrlə sosial iş» kitabında sosial pedaqoqun iş təcrübəsi haqqında bəhs edir. Geniş sahəli ailə problemləri və onların həllinə müxtəlif yanaşmalarla bərabər müəllif ailələrdə daxilən böhran yaşayan uşaqlarla işin xüsusiyyətlərinə xüsusi yer vermişdir.

Ailə böhranı - ailənin üzərinə düşən çətinliklərin öhdəsindən gələ bilməmək vəziyyətidir. Çox zaman təkrar nigahlarda uşaq atalığını və ya ögey anasını qəbul etmək istəməyəndə baş verir. Uşaqlar kiçik yaşda olduqda münaqişə baş vermir, müəllim valideynlərin öz

uşaqları ilə əlaqəsinin nə səbəbdən itdiyini izah edir. Bu zaman köməyə sosial pedaqoq gəlir ki, o, ailədəki vəziyyəti təhlil edir, onun üzvləri arasındakı münasibətlərin dəyişməsini modelləşdirir. O, ailədə böyüyən uşaqların davranışı üzərində dayanır, valideynlərə övladlığa götürdükləri uşağı necə tərbiyə etməyi öyrədir.

Yeniyetmələrlə sosial işçinin apardığı işləri təhlil edərək müəllif bu yaş həddində baş verə biləcək böhran anlarına: öz valideynlərini erkən itirmiş, tənha qalmış, yeniyetmələrin özünəqəsd cəhdlərinə diqqəti yönəldir.

Qəyyumluğa götürülmüş belə uşaqların ailəyə uyğunlaşmayaraq onu tərk etməsi də ailə böhranı kimi qeyd edilir.

ABŞ-da hələ 1921-ci ildə sosial işçilərin Amerika assosiasiyası yaradılmışdır. Lakin bu qocaman təşkilat, daha dəqiq, 1920-ci ildə sosial işçilərin birliyi kimi *uşaqlara köməyin Amerika liqası kimi qurumudur.* Müasir dövrdə bu qurum uşaqlara yardımın müxtəlif proqramlarını işləyib hazırlayır.

Ehtiyacı olan ailələrə yardım Proqramı həyata keçirilir, əlil və ya inkişafında ləngimələr olan uşaqların təlim-tərbiyə işinə yardımlar ayrılır. Azyaşlı cinayətkar uşaqlarla həbsxanalarda xüsusi işçilər müəyyən istiqamətlər üzrə iş aparırlar.

Ən məşhuru valideynlər üçün müntəzəm dərs məşğələlərinin aparılması proqramıdır ki, bunun müəllifləri D.Dinkmeyerom və Q.Makkeyemdir ki, onlar da uşaqlarla valideynlər arasında qarşılıqlı hörmət əsasında təlimin qurulması modelini təklif edir (1976).

Bu proqram uşağın öz düzgün olmayan davranışını dörd məqsədə çatmaqda: diqqəti çəkmək, hakimiyyəti ələ almaq, qisas almaq və vəziyyətin uyğunsuzluğunu xüsusi nəzərə çatdırmaq kimi izah edir. Proqram bir çox səbəbləri də izah etməklə valideynlərə bu işdə yardımçı kimi

çıxış edir. Proqram həmçinin valideynlərə kurslarda bu sahədə zəruri biliklər verir, demokratik üsullarla onları tərbiyə edib, ədalətli qərarlar çıxarmağa səsləyir. Proqramın digər nəzərə çarpan xüsusiyyəti çətinliklərin qarşısının alınması və nizamlanması üçün ailə çərçivəsində görüşlərin keçirilməsidir.

## 5.2. Çətin tərbiyə olunan, xəstə uşaqlarla, işsiz-böyüklərlə, valideynlərlə iş

**Böyüklər tərbiyə prosesində**

Böyüklər –18 yaşdan yuxarı, hüquqi cəhətdən həddi-büluğa çatmış və ailədə xüsusi sosial vəzifələri yerinə yetirən şəxslərdir.

Müasir gənc əgər 18 yaşına çatmamışsa, o, böyük sayıla bilməz, lakin əməli fəaliyyətinə 16 yaşdan başlasa da, ümumi vətəndaşlıq haqqında pasportu 14 yaşından ala bilər. Belə hesab edilir ki, böyüklər iqtisadi, sosioloji və psixoloji cəhətdən öz valideyn ailəsindən asılı olmadan yaşamağa qadirdirlər.

Böyüklük həddini təyin etmək bir qədər çətindir. Adətən o qocalıq kateqoriyasına keçmək kimi qeyd edilir. Yaşlıların hüquqi statusu onların təqaüdə çıxması ilə bağlıdır. Təqaüdçünün yaş həddi müxtəlif ölkələrdə müxtəlif cür müəyyən edilir. BMT və DƏB (Dyünya əmək birliyi) yaşlılara 60 yaşdan yuxarı olan insanları daxil edir.

Böyüklük həddi – həyatın nisbətən sağlam dövrü olub, nadir hallarda xroniki və müalicə olunmayan xəstəliklərə düçar olmaya təsadüf edir. Böyüklük - sosial üfüqlərin genişləndiyi, yəni təhsilə, işləmək üçün peşə ixtisaslaşmasına, ailə qurmağa və sosial vəzifələri yerinə yetirməyə enerji sərf olunan yaş həddidir. Böyüklərin çox böyük əksəriyyəti nigahdadırlar.

Böyüklük dövründə inkişaf «hamıda» getmir, burada həm sabitlik, həm də irəliyə, geriyə doğru sıçrayışlar da müşahidə edilir.

Böyüklər adətən öz şəxsi fəaliyyət və şəraitlərinə görə obyektiv surətdə dəyişir, öz şəxsiyyəti ilə onu əhatə edənlərə, uşaqlara təsir göstərdiyinə görə özü də tərbiyə obyektinə çevrilir.

Böyük yaşlı insanlar öz həyatlarının mənası və məqsədini, böyüməkdə olan gənc nəslə, ətrafdakılara öz təsirini, borc və məsuliyyətini dərk etdikdə, özünün mənəvi və fiziki cəhətdən təkmilləşməsi üzərində məqsədyönlü çalışdıqda tərbiyə prosesinin subyektinə çevrilirlər.

Son illərdə böyük yaşlı insanlarla işə ekoloji yanaşma nəzəriyyəsi daha geniş yayılmışdır. Bu nəzəriyyə ətrafın fərdə təzyiqini nəzərə alaraq, insanı sistemlər və alt sistemlərin elementi kimi nəzərdən keçirir. Stres üç qarşılıqlı əlaqəli amillərin nəticəsi: bir həyat vəziyyətindən digərinə keçid, mühitin müxtəlif təsirləri və şəxslərarası qarşılıqlı təsir kimi qiymətləndirilir.

**Soial işdə böyüklərlə təlimin prinsipləri**

Təlimin *birinci prinsipi* ondan ibarətdir ki, burada təlim üçün başlıca məsuliyyət «şagirdin» öz üzərinə düşür. Böyük yaşlı peşəkar şagird könüllü subyekt olub, rolların, şagirdlər və müəllimlər arasında vəzifə və görüşlərin bölgüsünü aparır. Könüllü şagird - peşəkar, öz təlimini davam etdirərək müəyyən vərdiş, bilik və təcrübəyə yiyələnir.

*İkinci prinsip* ona əsaslanır ki, ixtisasçının şəxsi arzusu və peşə qabiliyyətləri onun oxumağa tələbatını stimullaşdırır. Müəllimlər öz şagirdinin tələbatını bilməli və onların qane edilməsinə çalışmalıdır. Adətən şagirddən təlim proqramı və metodikasının işlənilməsi üzrə fəallıq tələb edilir.

*Üçüncü prinsip* təhsilin müxtəlifliyinin tətbiqi zərurətindən irəli gəlir. Ən adi formalar - sinifdə dərs, peşə konfranslarında və simpoziumlarda iştirakdır. Təhsil alanlar fərdi proqram və ixtisaslaşdırılmış qrup, təlim modellərinin təşkilat və müəssisələr ilə işlənilməsində iştirak edir.

*Dördüncü prinsip* böyüklərin təlimi üçün təklif olunan şəraitin dəyişməsi, rəğbətləndirmə ilə təltifin yeni formalarının işlənilməsi və təsdiqidir. Oxuyan adi tələbənin təltifi diplom, ən sonda isə işlə təmin edilməsidir. Böyüklər üçün isə öz ixtisası üzrə biliklərinin dərinləşdirilməsi, daha yaxşı iş yeri ilə təmin edilməsidir.

*Beşinci prinsip* ondan irəli gəlir ki, təlim alanlar tez-tez fəal yaradıcı münasibət və təlim keyfiyyətinin yüksəldilməsi problemini qaldırırlar.

**Valideynlərin pedaqoji maarifi** Cəmiyyət uşaqların tərbiyəsi üçün valideynlərə daha yüksək tələblər versə də bu heç də uşaqların ehtiyacının ödənilməsinə yönəlmir. Ən böyük diqqət ata və anaların böyüməkdə olan nəslin böyüməsi və inkişafı üçün optimal şərait yaratmasına yönəlir. Uşağın tərbiyəsi prosesini yaxşılaşdırmaq üçün daha səmərəli üsul və vasitələrin seçimində fikir müxtəlifliyi mövcud ola bilir, lakin valideynlərə köməyin zəruriliyində heç bir fikir ayrılığı yoxdur.

Mütəxəssislər ailədə uşağın tərbiyəsini dünyada ən çətin iş hesab edərək, əmin edirlər ki, valideynlərin təlimi üçün geniş miqyaslı tədbirlər keçirilməlidir.

Pedaqoqlar valideynlərin ailədə uşaqlara təsirini yüksəltmək onlara kömək etmək üçün cəhd etdilər. 1960-cı illərin tədqiqatları sübut etdi ki, valideyn təsiri uşağın həm şüuruna, həm də nitq inkişafına böyük təsir göstərir. Bu baxımdan da valdeynlər üçün geniş proqramların tərtibinə ehtiyac duyuldu. Son 20 ildə xarici ölkələrdə sosial pedaqoqlar valideynlərə bu növ xidməti təxirə-

salınmaz vəzifə kimi gündəmə gətirdilər. Məktəb, ruhi-əsəb müəssisələri, sosial xidmət agentlikləri və departamentlər öz təcrübəsində və tədqiqatlarında valideynlərlə işə birinci dərəcəli məsələ kimi diqqət yetirməyə başladılar.

Ən geniş yayılanlardan biri uşaqla düzgün qarşılıqlı münasibətlərin qurulması və yaranan problemlərin həllinə kömək edən proqramlardır. Sosial işin praktik istiqaməti proqramların hazırlanması və təlim metodikasının işlənilməsidir.

Valideyn bilikləri kurslarının əsasında problemin qiymətləndirilməsi ideyası durur ki, burada valideynlərə mümkün olan və olmayanların arasındakı fərqi izah edir.

Valideyn bilikləri kurslarında ətraf aləmin münaqişələrinin həlli üçün dəyişdirilməsi, fikir ayrılığı, yaranan anda avtoritar qərarların qəbul edilməsindən yan keçmək üçün tövsiyələr verilir.

Valideyn bilikləri kursları modelindən istifadə edən sosial işçilər təlimin müxtəlif forma və üsullarına keçir, maqnitofon yazıları, qısa mühazirələr, səhnələşdirilmiş tamaşalar, diskussiyalar, qrup rəhbərinin vəziyyəti modelləşdirməsi, evdə işləmək və alınmış biliklərin bilavasitə real vəziyyətlərdə tətbiqi üçün tapşırıq dəftərlərindən istifadə edirlər.

Uşaqlara onların tələbatını ödəyən valideyn köməyi prosesi mərhələlərinə diqqət yetirək:

1) Valideynlər uşaqla müsbət münasibətlər atmosferini öz şəxsi nümunəsi ilə yaradır. 2) Valideynlərə uşağın davranışına nəzarət etməyə, onun seçiminə dərk edərək kömək etmək təklif edilir. 3) Valideynlər uşaqlara öz əməlləri haqqında dəyərli qərarlar çıxarmağa kömək edir. 4) Uşaq vəziyyətinin düzəlməsi üçün plan tərtib edir. 5) Valideynlər onların uşağının planı yerinə yetirməsinə cəlb edilməsi üçün ölçü götürür. 6) Vali-

deynlər üzr istəməklə deyil, həll oluna bilənləri praktik şəkildə həyata keçirməyə çalışmalıdır. 7) Valideynlər öz nüfuzlarını saxlamaq naminə cəzadan uzaqlaşmalıdır.

Bütün bu tip məşhur proqramlar nəzəri planda fərziyyələrə əsaslansa da, praktik surətdə valideynlərin mövqeyi və davranışında dəyişiklik yaratmağa da təsir göstərir.

**Sosial pedaqoqun əlillərlə işinin istiqamətləri**

Sosial işçinin əlillərlə işi adətən onların təlimi ilə bağlı olur. Əlillərin təlimi xüsusi təhsil və ümumi təhsil proqramları üzrə aparılır. Bu proqramlar qəbul olunmuş qaydalarda əlil kimi tanınan və ya məhdud imkanlı şəxslərdir. Bu proqramların müvəffəqiyyətli həlli üçün əlillərin peşə hazırlığı və peşəyönümü sisteminin bütövlükdə dəyişdirilməsi zəruridir.

İnsan orqanizminin inkişafında baş verən müxtəlif pozulmaların xüsusiyyəti müvafiq proqramları və ixtisaslaşmış məktəbləri tələb edir. Əlillər üçün xüsusi təhsil sisteminin təkmilləşdirilməsi bir çox prinsiplərə və əlillərin keçmiş peşə təcrübəsindən istifadəyə əsaslanır.

Pedaqoji bərpa kimi tərbiyəvi xarakterdə olan tədbirlər başa düşülür ki, bu da böyük yaşlı xəstələrin özünəxidmət və təhsil almaq kimi ən zəruri bacarıq və vərdişlərə yiyələnməsinə yönəlməsidir. Yaşlı insanların tam dəyərli insan olmasında psixoloji əminlik hissi və düzgün peşə bələdliyi yaratmaq vacibdir.

Peşə bərpası (reabilitasiyası) əməyin müvafiq formalarına uyğun təlim və ya yenidən təlimləri, işçi alətdən istifadəni asanlaşdırmaq üçün zəruri fərdi texniki uyğunlaşdırıcıları, əvvəlki müəssisədən fərqli olaraq xəstə və ya əlil insanın orqanizminin funksional imkanlarının işçi yerinə uyğunlaşdırılması, əlillər üçün yüngülləşdirilmiş əmək şəraiti və qısaldılmış iş günü və s. olan xüsusi sex və müəssisələrin yaradılmasıdır.

Bərpa mərkəzlərində əmək-müalicə üsulundan geniş istifadə edilir ki, bu da insanın psixo-fizioloji sahələrinə əməyin tənzimləyici və fəallaşdırıcı təsirinə əsaslanır. Uzun müddətli fəaliyyətsizlik insanın əzələlərini «boşaldır», iş isə həyat tonusunu qaldırır. Təkcə uzun sürən xəstəlik deyil, fəaliyyətsizlik də insanda enerji imkanlarını aşağı salır. Arzuolunmaz psixoloji səmərəni həm də işləyən insanın uzun müddət sosial cəhətdən təcrid olunması da verir.

Sümük-əzələ aparatı xəstəlikləri və zədələri olan xəstələrin adi həyat ritminə tədricən qayıtması üçün əmək terapiyasının bərpaedici müalicə üsulu kimi mühüm əhəmiyyəti var. Böyük Vətən müharibəsi illərində əmək terapiyası ön və arxa cəbhədə hərbi xəstəxanalarda geniş tətbiq edilirdi ki, bu da xeyli sayda yaralının tez sağalıb cəbhəyə qayıtmasına səbəb olurdu.

Əmək terapiyası bərpaedici müalicə üsulu kimi ruhi xəstəliklərin müalicəsində, xəstələrin tez-tez və uzun müddət cəmiyyətdən və yaxınlarından təcrid olunduğu zaman xüsusi əhəmiyyət kəsb edir. Belə əlamətləri - ruhi pozğunluq, emosional pozulmalar, «qara basmalar», müxtəlif növ sayıqlamalar insani munasibətləri çətinləşdirir. Əmək terapiyası birgə fəaliyyəti təşkil etməyə imkan verir, bu zaman insanlar arasında qarşılıqlı münasibətləri yüngülləşdirir, gərginliyi və narahatçılığı aradan qaldırır, onları xəstəlik həyatından uzaqlaşdırır.

Ruhi xəstələrin əmək fəaliyyətinin fəallaşdırılması, onların sosial əlaqə vasitəsilə birgə fəaliyyətinin saxlanılmasının əhəmiyyəti o qədər yüksəkdir ki, *əmək terapiyası* tibbi yardımın növü kimi hamıdan əvvəl psixatorlar tərəfindən istifadə edilmişdir. Ondan əlavə, əmək terapiyası müəyyən sahədə ixtisas qazanmağa imkan verir.

Təcrübə göstərir ki, insanların həyatında daha mühüm və problemli məsələlərdən biri peşə seçimi və bu

peşə üzrə işə düzəlməkdir. Peşə seçimi özündə iki prinsipial mühüm şərtləri əks etdirməlidir. Peşə seçimi subyektinin fəallığı və sosial pedaqoq tərəfindən bu məqsədlə ixtisaslaşdırılmış inkişafetdirici köməyin təmin edilməsidir. İnsanların peşə özünütəyinindəki çətinlikləri çox zaman qətiyyətsizlik və öz qüvvələrinə inamsızlıqdan irəli gəlir. Burada öz qabiliyyətlərinin və onların peşə əhəmiyyətinin dərki və düzgün qiymətləndirilməsi xüsusi rola malikdir. Peşələr haqqında məlumat ona görə əhəmiyyətlidir ki, burada həmin insanın keyfiyyətləri müvəffəqiyyətli fəaliyyətini təmin edə bilər.

### *Suallar və tapşırıqlar*

1. İngiltərədə sosial siyasətin xüsusiyyətləri, ailə və uşağın müdafiəsi.
2. ABŞ-da uşaqların sosial müdafiəsi.
3. Avropa ölkələrində böyük yaşlı insanlarla işin xüsusiyyətəlri.
4. Valideynlərlə iş.

### *Referat üçün mövzular*

1. Uşaqlıq dövrünün müdafiəsində Avropa ölkələrində dövlət siyasəti.
2. Ailə tərbiyəsi və evdə təhsil alma.
3. Müasir dövrdə uşaqların müdafiəsinin dünya təcrübəsi.
4. Sosial pedaqoqun əlillərlə işinin başlıca istiqamətləri.
5. Valideynlərlə aparılan pedaqoji maarifin təşkili.
6. Böyüklərlə aparılan sosial işdə təlimin prinsipləri.

## Ədəbiyyat


1. Андреева Г.М. Социальная педагогика. М., 1988.

2. Василькова Ю.В., Василькова Т.А. Социальная педагогика. - М., Академа, 2004.

3. Вергловский С.Г. Общее образование взрослых: сти-мулы и мотивы. -М., 1987.

4. Джил Горелл Барис. Социальная работа с семьями в Англии. –М., 1993.

5. Дыскин А.А., Решетов А.Л. Здоровье и труд в пожилом возрасте.- М., 1988.

6. Личность и факторы ее социализации: семья, коллектив, образование и культура. –Н.Новгород, 1995.

7. Мардахаев Л.В. Социальная педагогика. М., Гардарики, 2005.

8. Настольная книга специалиста: социальная работа с инвалидами. / Холостов Е.И. и др.-М., 1996.

9. Социальиая педагогика и социальная работа за рубежом. М., 1991.

10. Санин М.Я., Лыскин А.А. Ножилой человек в семье и обвществе. - М., 1984.

11. Сироткин С.А. В мире слепо-глухих //Вопросы философии.- 1975, -№ 6.

12. Тихомирова Е.И. Социальная педагогика. Самореализация школьников в коллективе. М., Академа, 2005.

13. Трофимова Н.М., Дуванова С.П., Трофимова Н.Б., Пушкина Т.Ф. Основы специальной педагогики и психологии. Питер, 2005.

14. Чорбанский С.И. Социальная работа и социальная программа в США. – М., 1992.

Azərbaycan dilində

15. Abdulov R. Aktual sosial problemlər və viktimoloji proseslər. //Azərbaycan məktəbi, 2004, №2.

16. Abdulov R. Məktəbdə sosial-pedaqoji işin əsasları. «Adiloğlu», Bakı, 2005.

17. Abdulov R. Sənin sosial fəallığın. Bakı, 2002.

18. Ağayev.Ə. Uşaqlarda vətəndaşlıq borcunun tərbiyə edilməsi. B.,1975.

19. Ağayev.Ə. Həyatın astanasında. Bakı, 1983.

20. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiyanın aktual məsələləri. Nəzəriyyə. Metodika. Axtarışlar. Bakı, 1998.

21. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı, Maarif, 1982.

22. Əlizadə H. Sosial pedaqogikanın aktual problemləri. Bakı, Maarif, 1998.

23. Əlizadə H. Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, 1993.

24. Kazımov N.M., Həşimov Ə. Ş. Pedaqogika. Bakı: Maarif, 1996.

25. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika.Yeni kurs. Bakı: Çaşıoğlu, 2002, 2007.

26. Uşaq Hüquqları Konvensiyası. B.,1996.

## MÜNDƏRİCAT

Ön söz .......... 3

Fəsil 1. Sosial pedaqogikanın elmi-nəzəri əsasları .......... 5

1.1. Sosial pedaqogika bilik sahəsi-tədris fənni kimi: predmeti, yeri və rolu .......... 5

1.2. Sosial pedaqogikanın məqsədi, məzmunu, vəzifələri və əsas anlayışları .......... 18

1.3. Sosial pedaqogika sosial fəlsəfənin bir hissəsi kimi .......... 23

1.4. Sosial-pedaqoji prosesin mahiyyəti, məzmunu və əsas tərkib hissələrinin ümumi səciyyəsi .......... 26

1.5. Sosial pedaqogikanın mühüm prinsipləri .......... 33

*Suallar və tapşırıqlar* .......... *43*

*Referatlar üçün təxmini mövzular* .......... *44*

*Ədəbiyyat* .......... *44*

Fəsil 2. Şəxsiyyət və sosial formalaşma .......... 46

2.1. İnsanın sosial formalaşması sosial pedaqoji hadisə kimi .......... 46

2.2. Şəxsiyyətin inkişafı, formalaşması, sosiallaşması və tərbiyəsi .......... 48

2.3. Dövlət (cəmiyyət), sosial institutlar və şəxsiyyət mövqeyindən sosial tərbiyə .......... 61

2.4. İnsanın sosial inkişafının mənbələri və hərəkətverici qüvvələri .......... 66

2.5. İnsanın sosiallaşmasında meqaamillərin, makroamillərin, mezoamillərin və mikroamillərin rolu .......... 77

2.6. Kütləvi kommunikasiya vasitələri və onların sosial qrup və şəxsiyyətə təsiri imkanları .......... 96

*Suallar və tapşırıqlar* .......... *102*

*Referatlar üçün təxmini mövzular* .......... *103*

*Ədəbiyyat* .......... *104*

Fəsil 3. Mühit və şəxsiyyətin sosiallaşması....... 106

3.1. Ailə şəxsiyyətin tərbiyəsi və inkişafının sosiomədəni mühiti kimi ........................................................................ 106
3.2. Müasir ailə və onun problemləri ......................... 111
3.3. Müasir şəraitdə uşaqların müdafiəsi ................... 119
3.4. Sosial işçinin ailə ilə apardığı iş .......................... 130
3.5. Sosial pedaqoq və ya sosial işçinin peşə fəaliyyətinin xüsusiyyətləri ................................................................ 135
3.6. Sosial işçinin məktəbdə işi ................................. 140
*Suallar və tapşırıqlar* ................................................ *146*
*Referatlar üçün təxmini mövzular* ............................. *146*
*Ədəbiyyat* ............................................................... *147*

Fəsil 4. Çətin həyat şəraitinə düşmüş uşaqlarla iş ............................................................ 149
4.1.Yeniyetmələrin davranışındakı əyintilər.............. 149
4.2. Sosial pedaqoqun «qeyri-formal»larla işi ........... 152
4.3. Sosial pedaqoqun fitri istedadlı uşaqlarla işi ....... 157
*Suallar və tapşırıqlar* ................................................ *161*
*Referatlar üçün təxmini mövzular* ............................. *162*
*Ədəbiyyat* ............................................................... *162*

Fəsil 5. Sosial tərbiyənin Avropa və ABŞ təcrübəsi ........................................................................ 164
5.1.Sosial pedaqoqun Almaniya, Böyük Britaniya və ABŞ -dakı iş təcrübəsi................................................ 164
5.2.Çətin tərbiyə olunan, xəstə uşaqlarla, işsiz-böyüklərlə, valideynlərlə iş ................................................. 167
*Suallar və tapşırıqla*.................................................. *173*
*Referatlar üçün təxmini mövzular* ............................. *173*
*Ədəbiyyat* ............................................................... *174*